# TƏHSİL

Aylıq jurnal

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN ORQANI *№ 12 (87)* DEKABR 2017 * www.tehsiljurnali.az


2018



**Əziz həmvətənlər! Hörmətli soydaşlar!**
**Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram...**



**Təhsil hər bir dövlətin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.**

*Heydər Əliyev*

# Bu sayımızda




Dünya azərbaycanlılarına

Səh.2-3

12 dekabr Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günüdür

Səh.3-4





Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rus Pravoslav Kilsəsinin yüksək mükafatına layiq görülüb

Səh.12

Birinci vitse-prezident Mehriban Əliyeva Rostropoviçlər adına Musiqi Məktəbinin yeni binasının açılışında iştirak edib

Səh.13





Heydər Əliyev dühası dahilik, zaman və müasirlik

Səh.18-24

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür

Səh.58-59





2017-ci ilin Nobel mükafatları sahiblərinə çatdı

Səh.80-81



# TƏHSİL

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı



***Redaksiya heyəti:***

İsa Həbibbəyli
Abel Məhərrəmov
Urxan Ələkbərov
Ədalət Muradov
Vaqif Şadlinski
Əjdər Ağayev
Mustafa Babanlı
Gülçöhrə Məmmədova
Nurlana Əliyeva
Maarifə Hacıyeva

***Baş redaktor:***
***Nizami Mirzə***



*Redaksiyanın ünvanı:*
AZ 1073, Bakı-73, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 7-ci mərtəbə

*Bizim rekvizitlər:*
Beynəlxalq Bankın Yasamal filialı
Kodu: 805562
M/h: AZ03NABZ01350100000000002944
VÖEN: 9900001881,
SWİFT: İBA ZAZ2X
Müəssisənin adı: "TƏHSİL" jurnalı
VÖEN 1303135891
HESAB-№:
AZ20İBAZ38060019443152701216 AZN

Jurnal 2007-ci ildə Ədliyyə Nazirliyində qeydə alınıb. "Təhsil" jurnalının kompüter mərkəzində yığılıb və *«Gold nəşriyyat» MMC-nin sifarişi ilə* «Elm və təhsil nəşriyyat-poliqrafiya» MMC-nin mətbəəsində çap olunmuşdur.

Redaksiyaya daxil olan əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Telefonlar:
537-17-89; 510-19-95
Mob: (050) 612-32-21
(077) 612-32-21

www.tehsiljurnali.az
E-mail: tehsil-2007@mail.ru

Sifariş: 714
Tiraj: 800



# Dünya azərbaycanlılarına



**Əziz həmvətənlər!**

**Hörmətli soydaşlar!**

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə “Əsrin müqaviləsi”nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və to-





lerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

**Bayramınız mübarək olsun!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri,*
*25 dekabr 2017-ci il*

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.**

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz

# 12 dekabr Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günüdür





Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və ulu öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.





# İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının və müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü kimi islam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, mühüm beynəlxalq layihə, tədbir və təşəbbüslərin həyata keçirildiyi məkana çevrilmişdir.

Ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi Azərbaycan Respublikasının dünyada islam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində atdığı mühüm addımlardandır.

Azərbaycanda ali təhsil, treninq və araşdırmalar sahəsində əldə olunmuş nailiyyətlər İslam Əməkdaşlıq Təşkilatı Baş Katibliyi tərəfindən də yüksək qiymətləndirilir. İslam Əməkdaşlıq Təşkilatının Təhsil Mübadiləsi Proqramı çərçivəsində üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali təhsil müəssisələrində ayrı-ayrı ixtisaslar üzrə təhsil üçün qrant təsis edilməsi beynəlxalq əməkdaşlığın genişlənməsinə və dünyanın bir çox ölkələrində insan resurslarının inkişafına mühüm töhfə verə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində islam ölkələri ilə əməkdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq Azərbaycan Respublikasının ali təhsil müəssisələrində İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşlarının təhsilinə dəstək verilməsi məqsədi ilə **qərara alıram:**

**1.** 2018-ci ildən başlayaraq İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris dilinə uyğun hazırlıq kurslarında və ali təhsilin bakalavriat, magistratura, doktorantura, tibb təhsili üzrə əsas təhsil və rezidentura səviyyələrində təhsil qrantı proqramı təsis edilsin.

**2.** Müəyyən edilsin ki:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş təhsil alanlar üçün təhsil qrantının say həddi hər il 20 nəfər olmaqla 5 il ərzində 100-ə çatdırılır;

2.2. həmin qrant dövlət hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, yataqxana və ya mənzil kirayəsi, gündəlik qidalanma, tədris ədəbiyyatı ilə təminat, nəqliyyatdan (taksi xidmətindən başqa) istifadə, kommunal xidmətlər, tibbi yardım və ildə bir dəfə ölkələrinə gediş-gəliş xərclərini əhatə edir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş təhsilalanlar üçün təhsil qrantının verilməsi qaydalarını, o cümlədən təhsil qrantının məbləğini iki ay müddətində təsdiq etsin;

3.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilmiş təhsil qrantı proqramı üçün ölkələri, ölkələr üzrə kvo-



ları, namizədlərin seçim meyarlarını və bunların əsasında qrant alacaq şəxslərin siyahısını müəyyənləşdirsinlər.

**5.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Sərəncamın 4-cü hissəsinə uyğun olaraq müəyyənləşdirilmiş siyahı üzrə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşlarının təhsil alacaqları Azərbaycan Respublikasının ali təhsil müəssisələrini müəyyən etsin və onlara növbəti ildən başlayaraq dövlət hesabına təhsil qrantı ilə əhatə olunan xərclərin ödənilməsini təmin etsin.

**6.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli digər aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**7.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilmiş təhsil qrantı ilə bağlı xərclərin müvafiq illərin dövlət büdcələrində nəzərə alınmasını təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 dekabr 2017-ci il*

## M.Ç.Cabbarovun Azərbaycan Respublikasının təhsil naziri vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mikayıl Çingiz oğlu Cabbarov Azərbaycan Respublikasının təhsil naziri vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 dekabr 2017-ci il*

## M.Ç.Cabbarovun Azərbaycan Respublikasının vergilər naziri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mikayıl Çingiz oğlu Cabbarov Azərbaycan Respublikasının vergilər naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 dekabr 2017-ci il*

## Ö.H.Eldarovun "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Ömər Həsən oğlu Eldarov "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 19 dekabr 2017-ci il*

## E.B.Hüseynovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsilin inkişafındakı xidmətlərinə görə Elxan Bahadur oğlu Hüseynov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 dekabr 2017-ci il*





# “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 834-VQD nömrəli Qanununun tətbiqi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 834-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 dekabr 2017-ci il*

---

# “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini Azərbaycan Respublikasının Təhsil Nazirliyi əlaqələndirsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 dekabr 2017-ci il*



# Azərbaycan Prezidenti İlham Əliyev “Bakutel-2017” sərgisi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Bakı Ekspo Mərkəzində XXIII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi - “Bakutel-2017” ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verdi.

Bildirildi ki, builki sərgidə 20 ölkədən 192 şirkət iştirak edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilən sərgidə ABŞ, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Finlandiya, Fransa, İsveç, Niderland Krallığı, Türkiyə və digər ölkələr təmsil olunur.

Nazir Ramin Quluzadə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumlarının, müəssisələrinin məhsul və xidmətləri, həyata keçirdiyi layihələri barədə də məlumat verdi.

Qeyd olundu ki, 2019-cu ildən etibarən veriləcək yeni nəsil şəxsiyyət vəsiqələrində vətəndaşlar “Elektron imza” sertifikatı ilə təmin olunacaqlar. Bunun üçün müvafiq infrastruktur artıq hazırdır. Gələn ildən “Elektron imza”ların dövlətlərarası qarşılıqlı tanınması prioritet istiqamətlərdən olacaq. Bu imzanın aktiv istifadə edilə biləcəyi məkan “Elektron Hökumət” portalıdır. Hazırda bu portal vasitəsilə vətəndaşlar 89 dövlət və qeyri-dövlət qurumunun xidmətlərindən yararlana bilirlər. “Güzəştli mənzil sistemi” artıq portala inteqrasiya olunub, burada “Elektron ipoteka sistemi” yaradılıb. Ümumilikdə, bu il portala 40 yeni xidmət əlavə olunub. Görmə qabiliyyəti məhdud olan insanlar üçün hazırlanan “Danışan Kitabxana”ya Heydər Əliyev Fondunun təşəbbüsü ilə 200 kitab əlavə edilib.

Sonra dövlətimizin başçısına və birinci xanıma “Baktelecom” və “Aztelekom”un il ərzində həyata keçirdiyi layihələrlə bağlı məlumat verildi. Müasir texnologiya sayəsində əlavə avadanlıq olmadan, bir xətt üzərindən əhaliyə telefon, internet və televiziya xidmətləri göstərilir. Eyni zamanda, dördüncü nəsil simsiz rabitə texnologiyası üzərindən xidmət də həyata keçirilir. Artıq Bakıda və Xaçmazın 4 kəndində bu texnologiya test qaydasında tətbiq edilib. Bir il ərzində layihə Abşeron yarımadasını da əhatə edəcək. “İctimai İnternet” layihəsi çərçivəsində 18 məkan pulsuz internetlə təmin olunub. Avropada 1 internet provayderinin təmin etdiyi ən geniş pulsuz “Wi-Fi” zonası Bakıdadır.

Daha sonra “AzInTelecom”un beynəlxalq səs trafiki mübadiləsinin təşkili, telekommunikasiya vasitələrinin sertifikatlaşdırılması, eləcə də Regional “Data Mərkəzi”nin texniki imkanları vasitəsilə “bulud” əsaslı xidmətləri barədə məlumat verildi. Beynəlxalq səs trafikinin təşkili üçün istifadə edilən kommutasiya şəbəkəsi tam surətdə yenilənərək IP əsaslı yeni Beynəlxalq Kommutasiya Sistemi qurulub.

Yeni yaradılan xidmət mərkəzlərindən biri də “Şəbəkə”-



dir. Hazırda respublika üzrə 5 “Şəbəkə” xidmət mərkəzi fəaliyyət göstərir. Onlardan 4-ü paytaxt Bakıda yerləşir, digəri isə Cəlilabad şəhərindədir. Xidmət şəbəkəsinin Bakının bütün rayonlarını əhatə etməsi üçün işlər aparılır. Növbəti mərhələdə isə “Şəbəkə” mərkəzlərinin ölkənin bütün böyük şəhər və rayonlarında açılması nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, bu il 25 yaşını qeyd edən “Azərmarka” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2017-ci ildə bir sıra işlər görülüb. “Azərbaycan poçt markalarında” adlı kitab həm yerli, həm də əcnəbi filatelistləri ölkəmizin mədəni irsi ilə tanış edir.

“Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin stendi ilə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya qurumun həyata keçirdiyi layihələr barədə məlumat verildi. 2010-cu ildə yaradılmış və Qafqazda ilk peyk operatoru olan Azərkosmos “Azərspace-1” peyki vasitəsilə öz müştərilərinə yüksək etibarlı peyk əsaslı teleradio yayımı, səs, video məlumatlarının ötürülməsi və digər xidmətləri təqdim edir. Yüksək ixtisaslı peşəkar heyətə və texniki imkanlara malik olan “Azərkosmos” ASC-nin yaradılmasından ötən dövr ərzində bu qurum ölkədə və bütünlüklə regionda İKT sektorunun aparıcı qüvvələrindən birinə çevrilib.

Sərgidəki Yüksək Texnologiyalar Parkında yerli startapçılar tərəfindən hazırlanan məhsullar nümayiş olunur. “Made in Azerbaijan” brendi altında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondundan qrant almış, Yüksək Texnologiyalar Parkının İnkubasiya Mərkəzində fəaliyyət göstərən startapçıların layihələri böyük maraqla qarşılanır.

Sonra Prezident İlham Əliyev “Euronews” və “Rossiya-24” televiziya kanallarının suallarını cavablandırdı.

# “Bakutel-2017”



Sərgidə Virtual Cərrahiyyə barədə də məlumat verildi. Dünya təcrübəsində ilk dəfə Azərbaycan cərrahları artırılmış reallıq eynəkləri ilə üzün bərpası əməliyyatını keçiriblər. Üzdə aparılan rekonstruktiv cərrahi əməliyyatlara yüksək funksional və estetik tələblər qoyulur. Bu metodika nəticəsində qısa müddətə yüksək dəqiqlik, təhlükəsizlik və estetik nəticələrə nail olmaq mümkündür.

Sərgidəki “Oyun zonası”nda Yüksək Texnologiyalar Parkının biznes inkubatorunda fəaliyyət göstərən yerli “startap”lar - “Pazl xalça” və “Yüksəklik” oyunlarını təqdim edirlər. “Pazl xalça” oyunu Azərbaycan xalçaçılıq məktəblərinin, xalça növlərinin öyrənilməsini və tarixi dəyərlərə sevgi ruhunun aşılanmasını təbliğ edəcək. “Yüksəklik” virtual reallıq döyüş oyunudur. Oyun düşmənə qarşı vuruşan qəhrəman əsgərlərimizə həsr edilib. Oyunu hazırlayanlar 2016-cı ilin aprel ayında cəbhə xəttində Milli Ordumuzun qəhrəmanlıqla işğaldan azad etdiyi Lələtəpə yüksəkliyindən ilhamlanıblar. Burada, həmçinin “Omarov's Game Studio” şirkətinin təqdim etdiyi oyunlar da nümayiş olunur. Şirkət bir il ərzində qlobal bazarda auditoriyası 3 milyondan artıq olan 4 oyun istifadəyə verib.

Məlumat verildi ki, Rusiya Federasiyası sərgidə geniş təmsil olunur. Rusiyanın 5 şirkəti televiziya şəbəkələri və onlayn video üçün platformalar, bu sahədə müxtəlif xidmətləri təklif edir. Bundan başqa, Rusiyanın stendində mobil şəbəkələrin optimallaşdırılması və radioölçmələr, peşəkar texniki təlimlər, eləcə də şəbəkənin idarə edilməsi və nəzarət üzrə həll variantlarının hazırlanması və tətbiqi sahəsində ixtisaslaşmış xidmətlər nümayiş olunur.

Fransa “Bakutel-2017” sərgisində 4 şirkətlə təmsil olunur. Bunlar qlobal proqram hazırlığı üzrə dünyada tanınmış şirkətlərdir. Eyni zamanda, Fransa stendlərində sənaye üçün qabaqcıl texnologiyalar, batareyaların hazırlanması və quraşdırılması, həmçinin yaşayış və qeyri-yaşayış binaları, məlumat mərkəzləri, ofis məkanları üçün şəbəkə avadanlığı və müşahidə sistemləri təqdim olunur. Bu ölkənin şirkətləri alıcılara təhlükəsiz mobil rabitə həlləri, iOS və Android telefonlarının zənglərini, mobil məlumat axınlarını, mesajların, elektron və poçt mübadiləsini şifrələyən sistemlərini təklif edir.

“Bakutel-2017” sərgisində iştirak edən ölkələr arasında Sloveniya da var. Bu ölkə 10 ildən artıqdır ki, “Bakutel” sərgisində iştirak edir. Sloveniya pavilyonunda İKT avadanlıqları, yeni texnologiyalar nümayiş olunur. Stendlərdə rabitə, dəmir yolu, energetika, təhlükəsizlik sahələrində İKT məhsulları barədə məlumat verilir.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının pavilyonuna gəldilər. Məlumat verildi ki, Türkiyə digər sərgilərdə olduğu kimi, “Bakutel-2017”də də geniş təmsil olunur. Qardaş ölkənin ümumilikdə 4 aparıcı şirkəti burada məhsullarını təqdim edir. Bu məhsullar arasında peyk sistemləri, rabitə, mobil və milli poçt operatorlarının xidmətləri yer alır. Türkiyə bu sərgiyə böyük maraq göstərir və hər il şirkətlərin təklif etdiyi xidmət və məhsulların çeşidi artır.

Kanada artıq 8 ildir ki, “Bakutel” sərgisində təmsil olunur. Budəfəki sərgidə Kanadanın 5 şirkəti simsiz, məlumat və sabit kommunikasiya şəbəkələri, telekommunikasiya cihazları ilə bağlı məhsullarını nümayiş etdirir.

“Bakutel-2017”nin fəal iştirakçıları arasında İran İslam Respublikası da var. İranın 9 şirkəti sərgidə intellektual məhsullarını nümayiş etdirir. Yüksək səviyyəli bu məhsullar böyük maraqla qarşılanır. Burada əsasən “startap” layihələri

barədə məlumat verilir. İran şirkətlərinin də "Bakutel" sərgisinə marağı ildən-ilə daha da artır.

Gürcüstanın 4 şirkəti "Bakutel-2017"də məhsullarını təqdim edir. Bu şirkətlər inşaat sənayesi üçün innovativ platformalar və İKT layihələri, "startap" və interaktiv dil öyrənmək üçün tətbiq ilə bağlı məhsullarını nümayiş etdirir.

İtaliya-Azərbaycan Ticarət Palatasının da sərgidə stendi var. Burada telekommunikasiya, naviqasiya, Yerin fəzadan müşahidəsi, ətraf mühitin idarə edilməsi, kəşfiyyat, elm və orbital infrastrukturlar üçün yüksək texnologiyalar üzrə həllər sahəsində 40 illik təcrübəsi olan İtaliya şirkəti məhsullarını nümayiş etdirir. Şirkət ölkəmizlə İKT sahəsində əməkdaşlıqda maraqlıdır.

Xorvatiya da "Bakutel" sərgisinə böyük maraq göstərir. Sərgidə bu ölkənin 5 şirkəti bulud və üztanıma texnologiyaları, mehmanxanalar, səhiyyə müəssisələri, aviasiya sənayesinin idarə edilməsi üçün proqram təminatı təqdim edir.

Birləşmiş Ərəb Əmirliklərinin stendində İT aktivlərinin ömrünü uzatmağa imkan verən məlumat mərkəzləri üçün texniki xidmətlər təklif olunur. Burada, həmçinin video, audio və məlumat siqnallarının qəbulu və yayılması üzrə texnologiyalar maraqla qarşılanır.

"Bestcomp" Cənubi Qafqaz və Orta Asiyanın İKT üzrə aparıcı şirkətidir. 2017-ci ildə şirkət ABŞ-ın Çikaqo şəhərində ilin ən yaxşı tərəfdaşı seçilib. Sərgidə şirkətə məxsus innovativ həllər nümayiş etdirilir. Həmçinin Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan "Htech İnvest" şirkətinin Azərbaycanda istehsal etdiyi "Acer" kompüterləri təqdim olunur.

Sərgidə iştirak edən "AzQtel" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycanda 4G texnologiyası əsasında genişzolaqlı mobil internet xidməti göstərən operatordur. "Sazz" internet brendi ilə tanınan şirkət ölkənin ən böyük internet provayderlərindən biridir. Abşeron yarımadasında, eləcə də digər şəhərlərdə simsiz, limitsiz və yüksək sürətli internet təqdim etmək məqsədilə şirkət sərgidə ən son texnologiyaları nümayiş etdirir.

"Huawei" şirkəti Azərbaycan bazarına 2002-ci ildə daxil olub. 2004-cü ildə şirkətin ölkəmizdə nümayəndəliyi, 2011-ci ildə isə filialı təsis edilib. "Huawei" hər zaman İKT sənayesinin inkişafını təbliğ etməyi, ticarət və mədəniyyət əlaqələri mövzusunda yardımçı olmağı qarşısına məqsəd qoyub. İndiyədək şirkət Azərbaycandakı bütün əsas telekommunikasiya operatorları ilə əməkdaşlıq qurub və əhalinin təxminən yarısını əhatə edən telekommunikasiya şəbəkəsi yaradıb.

"Nokia" şirkəti də "Bakutel-2017" sərgisində təmsil olunur. Şirkət bütün dünyanı birləşdirən texnologiyalar hazırlayır və "Nokia Bell" laboratoriyalarının tədqiqat və innovasiyasından istifadə edərək xidməti provayderlərini, iri müəssisələr və istehsalçıları ən mükəmməl və fasiləsiz İKT xidmətləri ilə təmin edir.

Dövlətimizin başçısı "Microsoft" korporasiyasının stendi ilə də tanış oldu. "Microsoft" 1975-ci ildə təsis olunub və proqram təminatı istehsalında dünya lideridir. Korporasiya geniş çeşidli proqram məhsulları hazırlayır və istehsal edir. Onların arasında stolüstü və şəbəkə əməliyyat sistemləri, müştəri-server əlaqələri üçün server tətbiqləri var. Şirkət ölkəmizdə 2005-ci ildən fəaliyyət göstərir.

Sonra dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı Ekspo Mərkəzinin foyesində "Azərmarka" tərəfindən 25 il ərzində dövriyyəyə buraxılan ən maraqlı poçt markalarından ibarət fotoqalereyaya baxdılar.



# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rus Pravoslav Kilsəsinin yüksək mükafatına layiq görülüb



**Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilib.**

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyevanı bu ordenlə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə, habelə Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi sahəsində çoxsaylı xidmətlərinə görə Moskvanın və bütün Rusiyanın patriarxı Kirill təltif edib.

Bu yüksək ordenlə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər.

Xatırladaq ki, 2013-cü ildə Mehriban Əliyevanın himayədarlığı ilə Həştərxanda Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılıb. Bu il Mehriban Əliyevanın şəxsi təşəbbüsü ilə abidənin ətrafındakı ərazidə abadlıq işləri görülüb.



# Birinci vitse-prezident Mehriban Əliyeva Rostropoviçlər adına Musiqi Məktəbinin yeni binasının açılışında iştirak edib



**Dekabrın 6-da Bakıda Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbinin yeni binasının açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib. Birinci vitse-prezident Mehriban Əliyeva məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev məktəbin yeni binasında görülən işlər barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya məlumat verdi. Bildirildi ki, bu musiqi məktəbi 1967-ci ildən fəaliyyət göstərib. 1997-ci ildə Prezident Heydər Əliyevin Sərəncamı ilə məktəbə Leopold və Mstislav Rostropoviçlərin adı verilib. 2014-cü ildə məktəbin köhnə binası sökülərək yerində yenisinin inşasına başlanılıb. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında mədəniyyət sahəsinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 14 avqust tarixli Sərəncamına əsasən musiqi məktəbinin tikintisinin və təchizatının tamamlanması üçün vəsait ayrıldı. Qısa vaxt ərzində görülən işlər nəticəsində məktəb şagirdlərini yenidən qəbul etməyə hazırdır. Birinci vitse-prezident Mehriban Əliyeva musiqi məktəbində yaradılan şəraitlə tanış oldu. Hazırda bu məktəbdə 600 şagird təhsil alır. Onlara 114 müəllim – professor, Bakı Musiqi Akademiyasının müəllimləri, əməkdar incəsənət xadimləri, xalq artistləri sənətin sirlərini öyrədirlər. Musiqi məktəbində 110 yerlik akt zalı, 34 sinif otağı, habelə 5 inzibati otaq, kitabxana və səsyazma studiyası var. Məktəbin bütün avadanlığı və inventarı təzələnib, o cümlədən təhsil müəssisəsinə 12 royal, 24 fortepiano alınıb. Burada 7 yaşından təhsillərinə başlayan şagirdlər fortepiano, simli və nəfəs alətləri və xalq çalğı alətləri şöbələrində musiqi biliklərinə yiyələnirlər. Son 10 il ərzində məktəbin 23 şagirdi Prezident təqaüdünə layiq görülüb. Həmçinin son iki ildə məktəbin 25 şagirdi beynəlxalq və respublika müsabiqələrinin qalibi olub. Onların əksəriyyəti nadir ixtisaslar – saksofon, fleyta və trambon üzrə qalib olanlardır. Bu gün musiqi məktəbinin məzunları Simfonik, Kamera orkestrlərində ifa edirlər, Musiqi Akademiyasında fəaliyyət göstərirlər. Vətəni Azərbaycanla hər zaman fəxr edən Mstislav Rostropoviç etiraf edirdi ki, onun enerjisinin sirri – genetika və Bakı iqlimindədir. Azərbaycana olduqca bağlı olan dahi musiqiçinin xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaq. Musiqiçinin vətənində onu yad edir və sevirlər. Azərbaycan paytaxtında Rostropoviçin bir çox xatirə yerləri var. Bakıda Beynəlxalq Mstislav Rostropoviç festivalının keçirilməsi də bir ənənəyə çevrilib. Leopold və Mstislav Rostropoviçlərin adını daşıyan musiqi məktəbi isə bu dahi sənətkarın xatirəsinə hörmətin daha bir təzahürüdür.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin kollektivinə uğurlar arzuladı.



# Azərbaycanın gənc alimlərinin birinci qurultayının iştirakçılarına

**Hörmətli qurultay iştirakçıları!**

Sizi Azərbaycanın gənc alimlərinin birinci qurultayının öz işinə başlaması münasibəti ilə səmimi qəlbdən təbrik edir, hər birinizə uğurlar arzulayıram!

Qloballaşmanın böyük vüsət aldığı müasir dövrdə elmin əhəmiyyətinin gündən-günə artması və yüksək texnologiya sahələrinin sürətlə genişlənməsi çevik innovasiya fəallığı və yeni yanaşmalar tələb edir. Mövcud şərait düşünən və araşdıran gəncliyin intellektual potensialının tam üzə çıxarılması üçün əlverişli zəmin hazırlanmasını ön plana çıxarır. Ümidvaram ki, gənc alimlərimizin ilk mötəbər məclisi zamanın çağırışlarına cavab olaraq bu istiqamətdə fəaliyyətin aparıcı meyillərinin müəyyənlik qazanmasına təkan verəcəkdir.

Mədəniyyətlər arasında əsrlər boyu körpü rolunu oynamış Azərbaycanın qədim dövrün elmi nailiyyətlərinin qorunub saxlanılmasında və dünya elm xəzinəsinin daha da zənginləşdirilməsində özünəməxsus yeri vardır. Tarixi ənənələrlə müasirliyin ahəngdar vəhdətində davamlı yeniləşən ölkəmizdə elmin prioritetləri dünya elminin hazırkı inkişaf tendensiyalarına uyğun olub, milli strateji maraqların konseptual şəkildə həllinə yönəlmişdir. Dinamik yüksəlişimiz də xalqımızın elmi potensialından yaradıcılıqla və səmərəli istifadənin nəticəsidir.

Azərbaycan Milli Elmlər Akademiyası və ali təhsil müəssisələrimizin fəaliyyəti respublikamızda kreativ düşüncəli və eyni zamanda dəyərlərimizə sadiq gənc alimlər nəslinin formalaşması baxımından xüsusi əhəmiyyətə malikdir. Müvəffəqiyyətlə gerçəkləşdirilən "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" gənclərimizin elmə daha yaxından cəlb olunması və dünya elminə inteqrasiyası istiqamətində atılmış mühüm addımlardandır. Proqram çərçivəsində beynəlxalq miqyasda tanınmış ali təhsil ocaqlarında təhsil alan gənclərimizin elmdə varislik prinsiplərini davam etdirərək sanballı tədqiqatları ilə ölkəmizin müasir dünya elm məkanında layiqli təmsilçiləri olacaqlarına inanıram.

Gənclərin həyatımızın bütün sahələrində fəal iştirakı və innovativ təşəbbüslərinin dəstəklənməsi Azərbaycanda gənclər siyasətinin başlıca prinsipləridir. Dövlətimizin daimi diqqət və qayğısı sayəsində gənc alimlərimiz, heç şübhəsiz, tükənməz enerji ilə çalışaraq müstəqil Azərbaycanın inkişafı naminə bundan sonra da töhfələrini əsirgəməyəcəklər.

Əminəm ki, qurultayınızda səmərəli fikir mübadiləsi aparılacaq, əhəmiyyətli təkliflər irəli sürüləcək və elmimizin gələcəyi ilə bağlı dolğun fəaliyyət proqramı qəbul olunacaqdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 dekabr 2017-ci il*

# Azərbaycan gənc alimlərinin I qurultayı keçirilib



**Dekabrın 15-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan gənc alimlərinin I qurultayı keçirilib.**

Tədbir iştirakçıları öncə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AMEA-da davam etdirilən tədbirdə Azərbaycanın gənc alimlərinin son illər əldə etdiyi nailiyyətlərdən ibarət sərgiyə baxış keçirilib. Sərgini ziyarət edən tədbir iştirakçılarına AMEA-nın institut və təşkilatları, regional elmi bölmə və mərkəzləri, eləcə də ali təhsil müəssisələri üçün ayrılmış guşələrdə gənc alimlərin tədqiqatları, həyata keçirdiyi innovativ layihələr və əldə etdikləri elmi nəticələr barədə ətraflı məlumat verilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev ölkə Prezidenti cənab İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxuyub.

Sonra çıxış edən AMEA-nın prezidenti Akif Əlizadə tədbirin "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən təşkil olunduğunu bildirib. Akif Əlizadə tədbirin əhəmiyyətindən danışaraq qurultayın intellektual gənckliklə bağlı proqramda nəzərdə tutulan vəzifələrin icrasına töhfə verəcəyinə əminliyini ifadə





edib. AMEA rəhbəri müasir dövrün sosial-siyasi reallıqlarının, dünyanın yeni çağırışlarının intellektual gənclik qarşısında bir sıra mühüm vəzifələr müəyyənləşdirdiyini söyləyib. Akif Əlizadə qeyd edib ki, akademiyada gənclərin intellektual potensialının inkişafı, biliklər cəmiyyətinin qurulmasında onların rolunun artırılması, gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülüb. Son illər AMEA-nın 100-ə yaxın gənc aliminin dünyanın nüfuzlu elmi mərkəzlərinə ezam olunduğunu deyən akademik bu prosesin hazırda da davam etdiyini vurğulayıb.

Təhsil naziri vəzifəsini icra edən Ceyhun Bayramov elm və təhsilin inkişafı üçün ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin bir çox fərman və sərəncamlar imzaladığını qeyd edərək bu gün ölkə iqtisadiyyatının tələblərini ödəmək məqsədilə yüksək ixtisaslı mütəxəssis və alimlərin hazırlandığını vurğulayıb. XXI əsrin milli təhsil quruculuğunun "yol xəritəsi" sayılan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihələrdən söz açan Ceyhun Bayramov ali təhsil sisteminin yeni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və formalaşdırılması üzrə görülən işlərin ali təhsil müəssisələri qarşısında yeni vəzifələr qoyduğunu söyləyib.

Ceyhun Bayramov təhsilin keyfiyyətinin yüksəldilməsi və kadr hazırlığının təmin edilməsindən danışaraq 2014-cü ildə SABAH qruplarının yaradılması, "Sabahın alimləri" respublika müsabiqəsinin keçirilməsi, respublika və beynəlxalq fənn olimpiadalarının təşkili, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemilə tədrisin təşkili Qaydaları"na dəyişikliklər edilməsi və tələbələrə uzunmüddətli güzəştli kreditlər verilməsinin onların təhsilalma imkanlarının genişləndirilməsi məqsədilə atılan addımlardan olduğunu deyib.

Gənclər və idman naziri Azad Rəhimov ölkədə həyata keçirilən gənclər siyasətindən danışıb, həmçinin rəhbərlik etdiyi qurum tərəfindən yeniyetmə və gənclərin elmə marağının artırılması istiqamətində həyata keçirilən layihələr haqqında məlumat verib.

Sonra qurultayın bəyannamə layihəsinin hazırlanması məqsədilə işçi orqanının yaradılması təklif olunub. Tədbirdə qurultay nümayəndələri tərəfindən qurultayın mandat komissiyası və katibliyinin tərkibi təsdiq edilib.

Daha sonra Azərbaycan gənc alimlərinin I qurultayının bəyannaməsi qəbul olunub.

Sonda qurultay iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti səsləndirilib.

# Anım mərasimi keçirilib

**Dekabrın 12-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**



Mərasimdən öncə Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin kollektivi Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Təhsil Nazirliyi rəhbərliyinin, ali təhsil müəssisələri rektorlarının və təhsil ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi mərasimdə Azərbaycan Milli Konservatoriyası tələbələrinin ifasında ümummilli lider Heydər Əliyevin sevdiyi mahnılar, musiqilər səsləndirilib.

# Təhsil müəssisələrində anım tədbirləri

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar konfrans, "dəyirmi masa", mühazirə və seminarlar təşkil olunub. Tədbirlərdə BŞTİ, rayon icra hakimiyyətləri, müxtəlif idarə və təşkilatların nümayəndələri, təhsil müəssisələrinin pedaqoji kollektivləri, şagirdlər, valideynlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Anım tədbirlərində ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dünya şöhrətli siyasi xadim, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin zəngin həyat və fəaliyyəti, xalqımızın tarixindəki misilsiz xidmətləri haqqında danışılıb. Dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində digər sahələr kimi, elm və təhsildə də böyük nailiyyətlərin əldə olunduğu vurğulanıb. Həmçinin, ümummilli liderin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, ulu öndərin anım gününün ümumxalq məhəbbətinin təzahürünə çevrildiyi və dahi şəxsiyyətin Azərbaycan xalqının qəlbində daim yaşayacağı vurğulanıb.

"Unudulmaz dahi", "Xalqa bağışlanan ömür", "Mən azərbaycanlıyam", "Şəxsiyyətin zirvəsi", "Heydər Əliyev irsini öyrənirik" və digər mövzularda keçirilən tədbirlərdə məktəblilər ulu öndərə həsr olunan şeirlər söyləyib, mahnılar ifa edib, ədəbi-bədii kompozisiyalar nümayiş etdirib, Heydər Əliyevin müdrik kəlamlarından sitatlar səsləndiriblər. Ulu öndərin həyat və fəaliyyətinə dair videoçarxlar, filmlər izlənilib. Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar təhsil müəssisələrində fotostend, sərgi, müsabiqə və idman yarışları da təşkil olunub. Müsabiqə və idman yarışlarının qaliblərinə Fəxri fərmanlar təqdim edilib. Paytaxt məktəblərinin müəllim və şagird kollektivlərinin Heydər Əliyevin anım günü ilə bağlı Fəxri xiyabana ziyarətləri təşkil olunub.

Qeyd edək ki, dekabrın 12-də BŞTİ-nin kollektivi də Fəxri xiyabanı ziyarət edib.



# HEYDƏR ƏLİYEV DÜHASI DAHİLİK, ZAMAN VƏ MÜASİRLİK





**İsa HƏBİBBƏYLİ,**
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

Bəşəriyyət bütün tarixi boyu dahilərin çiyinləri üstündə irəliyə doğru inkişaf etmişdir. Böyük dühalar mənsub olduqları ölkənin gələcək inkişaf yollarını əvvəlcədən görə bilmiş, həmin ali məqsədə çatdırmaq üçün xalqı mübarizəyə səfərbər etməyi bacarmışlar. Uzaqgörənlik, möhkəm siyasi iradə, aydın milli mövqe və dönməz mübarizə əzmi belə tarixi şəxsiyyətlərin əsas xüsusiyyətlərini təşkil edir.

Bu sözləri mənsub olduqları xalqların və ölkələrin tarixində xüsusi xidmətləri olan başqa dövlət xadimləri – Türkiyədə Mustafa Kamal Atatürk, Fransada Şarl De Qol və Fransua Mitteran, Çində Mao Tszedun, Amerikada Corc Vaşinqton və Eyzenhauer, İngiltərədə Vinston Çörçil və başqaları haqqında da demək olar. Dünya tarixinə dərin izlər salmış belə görkəmli şəxsiyyətlər böyük dövlətçilik istedadına malik olan tarixi simalardır.

Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən mənsub olduğu xalqın tarixi müqəddəratında həlledici rol oynamışdır. O, hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının milli mənafelərinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün böyük addımlar atmışdır. Heydər Əliyev sovet dövründə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran görkəmli siyasi xadimdir. Məhz onun xidmətləri sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyində hərtərəfli şəkildə inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyini qurulması və möh-





kəmləndirilməsi də üzvi surətdə Heydər Əliyevin adı və mübarizəsi ilə bağlıdır. Bütün bunlara görə Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideri kimi böyük tarixi ad qazanmışdır.

Heydər Əliyev – Azərbaycan xalqının böyük dövlətçilik istedadına və zəngin təcrübəyə malik olan nadir tarixi şəxsiyyətidir, xalqın və ölkənin taleyində xüsusi rolu olan görkəmli dövlət xadimidir, xilaskarlıq missiyasını həayat keçirmiş qüdrətli şəxsiyyətdir.

Heydər Əliyev – Azərbaycanda dövlət müstəqilliyinin banisidir. Cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş böyük xidmətləri onun adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmişdir. Müstəqil dövlətin siyasi prioritetlərinin önə çıxarılması, yeni idarəetmə strukturunun formalaşdırılması, daxili sabitliyin yaradılması, beynəlxalq aləmdə dostlar və tərəfdaşlar tapmaq, iqtisadi sahədə islahatlar həyata keçirmək, dövlət ideologiyasının formalaşdırılması Heydər Əliyevin həll etdiyi ümumdövlət miqyaslı vəzifələrdir. Dövlətçilik baxımından mühüm əhəmiyyətə malik olan həmin vəzifələrin sırasında azərbaycançılıq ideologiyası, ədəbiyyat siyasəti, elm və təhsil konsepsiyası mühüm yer tutur.

***

Ölkəmizdə azərbaycançılığın mətbuatdan və ədəbiyyatdan ictimai-siyasi müstəviyə çıxarılması kimi çətin və şərəfli vəzifənin həlli görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olan tarixi xidmətdir. Yaşadığı dövrün siyasi quruluşunun sərt qadağalarına baxmayaraq, ümummilli lider Heydər Əliyevin simasında tariximizdə ilk dəfə olaraq Azərbaycan məsələsinə dövlət səviyyəsində kompleks şəkildə yanaşılmış, problemə ardıcıl siyasi münasibət bəslənilmiş və konkret nəticələr əldə olunmuşdur. Azərbaycançılığın dövlət ideologiyası səviyyəsində formalaşdırılması və təsdiq edilməsi Heydər Əliyevin müstəqil dövlətçilik uğrunda mübarizəsinin əsas ana xətlərindən birini təşkil edir. Heydər Əliyev azərbaycançılıq siyasətini özünün çoxcəhətli fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, bu ideologiyanın xalqın milli şüurunda və dövlətçilik təfəkküründə inkişaf etdirilib möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Məhz Heydər Əliyevin çoxcəhətli və ardıcıl siyasəti nəticəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə milli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev çoxillik siyasi fəaliyyətinin bütün dövrlərində azərbaycançılıq məsələsini ən ali məqsəd hesab etmişdir. Tarixin verdiyi şansların, yaratdığı imkanların hamısında bu böyük dövlət xadimi özünü Azərbaycana həsr etmiş, Azərbaycan idealı uğrunda daim dönmədən mübarizə aparmışdır. Azərbaycan SSR-in Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyindəki fəaliyyətini də nəzərə alsaq, Heydər Əliyev qırx ildən artıq böyük bir dövrdə azərbaycançılıq ideyası ilə dövlət işi səviyyəsində məşğul olmuşdur. Sovetlər İttifaqının rəhbərliyi ilə anlaşıqlı münasibətlər qurmağı bacarmış Heydər Əliyevin Azərbaycanı geridə qalmış aqrar respublikadan hərtərəfli inkişaf etmiş bir ölkəyə çevirməsi mühüm tarixi hadisədir. Eyni zamanda, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilinin ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması da misilsiz tarixi nailiyyətdir. Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsidir. Bu böyük ümummilli hadisə Azərbaycan Respublikasının gələcək müstəqilliyinin mühüm təminatlarından biri idi.

Azərbaycanda milli birlik və həmrəylik ideyasının uğurla həyata keçirilməsi azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan dili kimi Azərbaycan xalqı anlayışının da ölkəmizdə bərqərar olması milli mövqeyin qorunub saxlanılması ilə yanaşı, müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, ölkədə yaşayan xalqlar və etnik qruplar arasında tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir. Dünya azərbaycanlıları anlayışı da Azərbaycanın



dövlət siyasətində Heydər Əliyevin adı ilə bağlı olan mühüm xidmətlərdən biridir. Sovet hakimiyyəti illərində mövcud rejimin yaratdığı çətinliklərə baxmayaraq, məhdud şəkildə olsa da dünya azərbaycanlıları ilə yaradılan əlaqələrin cığırları dövlət müstəqilliyinin ilk illərindən etibarən genişləndirilmiş, yeni əlaqələr yaradılmış, dünya azərbaycanlılarının birliyinə və həmrəyliyinə doğru böyük addımlar atılmışdır. Bu baxımından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən görkəmli dövlət xadimi Heydər Əliyevin "31 dekabr Dünya azərbaycanlılarının Həmrəylik və Birlik günü haqqında" imzaladığı 16 dekabr 1991-ci il tarixli Sərəncam son yüzillikdə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin varlığını təsdiq edən və onlarla əlaqələrin zəruriliyini dövlət səviyyəsində rəsmiləşdirən, əlaqələrə real təminat verən mühüm qərar kimi xüsusi əhəmiyyətə malikdir.

Ölkəmizdə dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi də möhtəşəm siyasi-tarixi hadisələrdir. Ulu öndərə məxsus "Dünya azərbaycanlılarının bir vətəni var, bu – Azərbaycandır" kəlamı müasir dövrün azərbaycançılıq təliminin siyasi-ideoloji əsasını təşkil edir. Dünya azərbaycanlılarının Birinci qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tarixi nitqi azərbaycançılıq məfkurəsinin siyasi manifestidir. Heydər Əliyevin azərbaycançılıq təlimi dünya azərbaycanlılarını tarixi vətən və vahid ideologiya ətrafında birləşdirir. Sözün gerçək və obrazlı mənasında Heydər Əliyev dünyada azərbaycançılığın rəmzinə çevrilmişdir.

Heydər Əliyev dövlətçilikdə qeyri-adi müdriklik və uzaqgörənlik istedadına malik olan qüdrətli liderdir. Bu böyük dövlət xadiminin müdriklik və uzaqgörənliyinin hərəkətverici qüvvəsi Vətənə, xalqa, doğma torpağa sonsuz inam və məhəbbətdən, sınaqlardan çıxmış böyük siyasi təcrübədən yoğrulmuşdur. Heydər Əliyev keçdiyi çətin və şərəfli yolla Sovetlər İttifaqında beynəlmiləlçi ideologiyanın sərt dövlətçilik prinsipi kimi qəbul edildiyi dövrlərdə vətənpərvər dövlət xadimi olub, Kremlin zirvəsinə qədər yüksəlməyin mümkünlüyünü isbat etmişdir. Azərbaycanda Sovetlər İttifaqının ən sərt dövrlərində Heydər Əliyevin özünəməxsus bir siyasətlə azərbaycançılıq istiqamətində həyata keçirdiyi böyük tədbirlər gələcək dövlət müstəqilliyinin təməllərinə çevrilmişdir. Bütün bunlara görə Heydər Əliyev üçün uzaqgörən bir dövlət xadimi olaraq çökmüş sovet ideologiyasından yeni müstəqil dövlətçilik siyasətinə keçmək heç bir çətinlik yarada bilməmişdir. Keçmiş sovet dövlətinin mərkəzdəki və respublikalardakı rəhbərlərinin bir çoxlarının adları dağılmış imperiya ilə birlikdə arxivə getdiyi halda, Heydər Əliyevin portretləri milli azadlıq hərəkatının bayraqları ilə birlikdə meydanlarda yüksəklərə qaldırılırdı. Deməli, Azərbaycanda xalq hərəkatı, milli azadlıq mübarizəsi böyük dövlət xadimi Heydər Əliyevin böyük azərbaycançılıq ideallarından keçib gəlmişdir. Bu mənada Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik qazanmış gənc respublikaların demək olar ki, mütləq əksəriyyətinin rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev xüsusi bir «keçid dövrü» yaşamamışdır. Əksinə, Azərbaycan üçün Heydər Əliyev epoxasının birinci mərhələsi sovet sosialist sistemindən müstəqil dövlətçilik erasına keçid dövrü xarakteri daşımışdır. Milli ideologiyanın formalaşdırılması baxımından digər keçmiş sovet respublikalarının müstəqilliyin ilk illərində üzləşdikləri çətinlikləri uzaqgörən dövlət xadimi Heydər Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində Azərbaycan xalqı müstəqil dövlətçiliyi qazanana qədər yaşamışdır. Məhz buna görədir ki, Azərbaycan müstəqillik qazanmış keçmiş sovet respublikaları ilə müqayisədə milli ideologiya baxımından bir mərhələ qabaqdadır.

***

Böyük dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik və azərbaycançılıq təlimində ədəbiyyat və incəsənət faktoru xüsusi yer tutur. Ulu öndər üçün ədəbiyyat və incəsənət azərbaycançılığın, milli şüurun inkişaf etdirilməsinin əsas hərəkətverici qüvvəsi funksiyasını daşımışdır. Heydər Əliyev dövlət rəhbərliyinin bütün mərhələlərində ədəbiyyat və incəsənət məsələlərinə xüsusi əhəmiyyət vermişdir. O, uzaqgörən görkəmli dövlət xa-





dimi kimi həm Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsinə böyük qayğı göstərmiş, həm də bu mühüm sahələri istiqamətləndirmişdir. Heydər Əliyevin aşağıdakı sözləri onun ədəbiyyata dərindən bələd olması ilə yanaşı, həm də cəmiyyətin inkişaf etdirilməsində bu mühüm işə nə qədər dərindən əhəmiyyət verdiyini göstərməkdədir: "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".

Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müsirlik prinsiplərinə xüsusi əhəmiyyət vermişdir. Bu prinsiplər Heydər Əliyevin ədəbiyyat və incəsənət siyasətinin konseptual əsaslarını təşkil etmişdir. Azərbaycan ədəbiyyatının böyük klassiklərinin və görkəmli yaradıcılarının dövlət səviyyəsində yubileylərinin keçirilməsi, əsərlərinin nəşri, dünya dillərinə tərcümə olunması, tamaşaya qoyulması geniş mənada milli-mənəvi özünüdərk proseslərinin genişlənməsinə, azərbaycançılıq anlayışının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi beynəlxalq aləmdə böyük əks-səda doğuran mühüm ədəbi-mədəni hadisə olmuşdur. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibəti ilə görkəmli dövlət xadimi Heydər Əliyevin bəyan etdiyi aşağıdakı sözlər müstəqil Azərbaycan dövlətinin ədəbiyyat və incəsənət siyasətinin əsasını təşkil edir: "Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin ... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir".

Görkəmli Azərbaycan yazıçı və şairlərindən Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Süleyman Rəhimova, böyük incəsənət xadimlərindən Qara Qarayev, Rəşid Behbudov, Fikrət Əmirov, Tahir Salahova Sovetlər İttifaqının ən ali mükafatı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi Azərbaycan tarixinin Heydər Əliyev epoxasının parlaq hadisəsidir.

Ulu öndər Heydər Əliyev Azərbaycan bədii mədəniyyətinin, ədəbiyyatının və incəsənətinin qüdrətli bilicisi və vurğunu idi. O, ədəbiyyatı, təsviri sənəti, xalq yaradıcılığını çox sevirdi. Azərbaycanın tanınmış yazıçı və şairləri, rəssamları, heykəltəraşları, memarları, istedadlı xalça ustaları onun ən çox qiymətləndirdiyi sənətkarlar cərgəsində xüsusi yer tuturdu. Bu bağlılıq təsadüfi olmayıb, ulu öndərin böyük Vətən sevgisinin, azərbaycançı baxışlarının parlaq təzahürü idi. Ulu öndərin görkəmli Azərbaycan yazıçılarından Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Fikrət Qoca, Sabir Rüstəmxanlı və başqalarına göstərdiyi böyük diqqət və bir çox hallarda onları xüsusi çətinliklərdən xilas etməsi bu yaradıcı ziyalılara göstərilən ehtiramdan başqa, həm də ölkəmizdə milli şüurun, müstəqillik idealının formalaşdırılmasına, müdafiə olunmasına dəstəyin ifadəsi idi. Böyük dövlət xadiminin Azərbaycan rəssamlarından Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, heykəltaraşlardan Ömər Eldarov, Tokay Məmmədov, Mirəli Mirqasımov, xalçaçı sənətkarlardan Lətif Kərimov, Kamil Əliyev və başqalarının yaradıcılıq fəaliyyətinə bəslədiyi münasibət tarixi hadisələrə çevrilmişdir. Heydər Əliyevin təsviri sənət əsərləri haqqındakı təcrübəli ustad sənətşünas kimi dəqiq mülahizələri, elmi-nəzəri təhlilləri daim sənət adamlarını heyrətləndirmişdir. Ulu öndər milyonlarla insanın qəlbində yaşadığı kimi, rəssam və heykəltəraşlarımızın da yaddaşında unudulmaz işıqlı izlər qoymuşdur. Ona görə də sənətkarlarımız daim Heydər Əliyev mövzusuna müraciət edir, xüsusi bir sevgi ilə bu dahi insanın kamil obrazını



yaradırlar. Azərbaycan incəsənətində Heydər Əliyevin obrazını yaradan sənətkarlardan Tahir Salahov, Ömər Eldarov, Oqtay Sadıqzadə, Kamil Əliyev, Eldar Mikayılzadə, Ülviyyə Həmzəyeva, Natiq Əliyev, Akif Əsgərov, İlham Mirzəyev, Həmzə Sadıqov, Eldar Zeynalov, Məmməd İbrahimov və bir çox başqalarının yaratdıqları möhtəşəm heykəllər və bənzərsiz rəsm əsərləri yaddaşlara yazılmışdır. Bu əsərlərdən hər biri ulu öndərin bədii obrazını yeni-yeni fərqli təcəssüm formalarında əks etdirir. Bu da çox əhəmiyyətlidir ki, bu gün Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrinin rəssamları və heykəltəraşları da azərbaycançılığın daim canlı, əbədi simvolu olan Heydər Əliyev mövzusuna müraciət edirlər. Hazırda dünyanın bir çox xarici ölkələrində Heydər Əliyevin adını daşıyan parkların, xiyabanların mövcud olduğunu görür, onun əzəmətli heykəlləri ilə qarşılaşırıq. Azərbaycanla yanaşı qardaş Türkiyədə, eləcə də Rusiya, Ukrayna, Gürcüstan, Rumıniya və digər ölkələrdə böyük azərbaycanlı dövlət xadimi Heydər Əliyevin heykəllərinin ucaldılması xalqımızda milli qürur hissləri doğurur.

Azərbaycan musiqi sənətinin inkişafında da ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan musiqi mədəniyyətinin böyük yaradıcıları olmuş dünya şöhrətli bəstəkarlar Qara Qaarayev, Fikrət Əmirov, Arif Məlikov, məşhur müğənnilər Müslüm Maqomayev, Rəşid Behbudov, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqalarının sənətinə yüksək qiymət vermiş, onların əsərlərinin beynəlxalq aləmə çatdırılmasına geniş üfüqlər açmışdır.

Teatr və opera sənətinin yüksək inkişaf mərhələsinə çatdırılmasında da Heydər Əliyevin böyük xidmətləri tarixi hadisə səviyyəsində qiymətləndirilməyə layiqdir. Heydər Əliyev epoxası Azərbaycan incəsənətinin məşhur rejissorlarını və aktyorlarını meydana çıxarmışdır.

***

Azərbaycan elminin inkişaf etdirilməsində də ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri vardır. Görkəmli dövlət xadimi cəmiyyətin inkişafında elm faktoruna xüsusi əhəmiyyət verdiyi üçün ölkədə elmin inkişaf etdirilməsini həmişə diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə Azərbaycanda Elmlər Akademiyasının fəaliyyəti genişləndirilmiş və ölkəmizin maraqlarına doğru istiqamətləndirilmişdir. Azərbaycan Elmlər Akademiyasında yaradılmış Xüsusi Konstruktor Büroları ölkənin təbii resursları və elm adamlarının səmərələşdirici ideyaları əsasında istehsalat yönlü problemlərin həllinə geniş yol açmışdır. Bu, dövlət mülkiyyətinə və planlı təsərrüfata əsaslanan sosializm cəmiyyətində bazar iqtisadiyyatı əsasında elmi proseslərin formalaşdırılması demək idi. Həmin istiqamətdə həyata keçirilmiş elm-istehsalat prosesləri fundamental və tətbiqi elmin nailiyyətlərinin ölkənin inkişafında özünəməxsus yer tutmasını şərtləndirmişdir.

XX əsrin 70-80-ci illərində Azərbaycanda ən müxtəlif sahələr üzrə böyük elmi məktəblər yaranmışdır. Əvvəlcə ölkə miqyasında ön mövqeyə çəkilən elm xadimləri tədricən məqsədyönlü dövlət siyasəti nəticəsində keçmiş Sovetlər İttifaqı miqyasında qəbul olunan görkəmli alimlər kimi tanıdılmışdır. Onların adı və fəaliyyət dairəsi ilə bağlı olan elm sahələrinin inkişaf etdirilməsi üçün zəruri maddi-texniki baza yaradılmış, siyasi dəstək verilmişdir. Nəticədə görkəmli elm xadimlərinin layiqli yetirmələri və davamçıları yetişmiş, yeni elmi nəsil formalaşdırılmışdır. Bu isə öz növbəsində müxtəlif istiqamətlər üzrə elmi məktəblərin yaranması ilə nəticələnmişdir. Qeyd edilən dövrdə Azərbaycanda yarımkeçiricilər fizikası – selen məktəbi, molekulyar biologiya – fotosintez məktəbi, geologiya – yer elmləri məktəbi, neft kimyası və aşqarlar kimyası, riyaziyyat, nəbatat, torpaqşünaslıq, kristalloqrafiya mktəbləri yaranıb inkişaf etmişdir. Azərbaycanda şərqşünaslıq, ədəbiyyatşünaslıq, dilçilik-dialektologiya, tarixçi-mətnşünaslıq məktəblərinin yaratdıqları çoxcildlik elmi nəşrlər, ölkə əhəmiyyətli ümummilli problemlərə həsr olunmuş monoqrafiyalar, aktual mövzularda keçirilmiş elmi konfranslar respublikadakı siyasi-ideoloji mühi-





tin daha da qüvvətlənməsinə, milli şüurun dirçəldilməsinə xidmət etmişdir. Ulu öndər Heydər Əliyev görkəmli elm xadimləri Ziya Bünyadovun, Abbas Zamanovun həyatı ilə bağlı ciddi problemləri nəinki aradan qaldırmış, onların hərtərəfli fəaliyyətləri üçün geniş meydan yaratmışdır. Ölkə maraqlarına həsr edilmiş elmi əsərlərin respublika Dövlət mükafatına layiq görülməsi, ölkədə beynəlxalq simpoziumların təşkili də respublika miqyasında elmin inkişafına ciddi təkan vermişdir. Nəhayət, ölkə rəhbəri Heydər Əliyevin təqdimatı əsasında 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Sovetlər İttifaqının ən mühüm ordenlərindən olan "Xalqlar dostluğu" ordeni ilə təltif olunması aparılan məqsədyönlü dövlət siyasətinin mühüm yekunu idi.

Müstəqillik illərində də Azərbaycan elminin yenidən milli dövlətçilik maraqları əsasında inkişaf etdirilməsi ölkəyə ikinci dəfə rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə üzvi surətdə bağlıdır. Ulu öndərin 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında respublika ziyalıları ilə görüşündəki tarixi nitqi geniş mənada elmin, ziyalılığın və akademik qurumların xilas edilməsi ilə əlaqədar səsləndirilmiş tarixi bəyanatdır: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. ...Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. ...Akademiyanın fəaliyyətini tənqid də etmək olar. ...Ancaq ümumən götürdükdə şübhəsiz ki, elmin inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, yüksək qiymətləndirməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. ...Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir."

Görkəmli dövlət xadimi Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli Sərəncamı ilə ölkənin baş elmi mərkəzinə - Milli Elmlər Akademiyası statusu verilmiş, həmin yolla bu akademik qurumun fəaliyyətində ölkə və dövlət maraqları üstündə köklənmiş yeni epoxa başlanmışdır.

Müstəqillik illərində, xüsusən 2013-cü ildən akademik Akif Əlizadənin Milli Elmlər Akademiyasının prezidenti seçilməsindən sonra Akademiyada genişmiqyaslı islahatlara start verilmişdir.

***

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Beləliklə, möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Ölkəmizin Prezidenti möhtərəm cənab İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Artıq hər kəsə yaxşı məlumdur ki, milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması Prezident İlham Əliyev siyasətinin təməl prinsipidir. Dövlət başçısı İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı Azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın hərtərəfli inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Yeni tarixi mərhələdə də Azərbaycançılıq bu böyük və müdrik siyasətin nüvəsini təşkil edir. Ölkəmizin rəhbəri İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, təzə istiqamətlər açan, yol göstərən, bələdçilik funksiyasını həyata keçirən görkəmli dövlət xadimidir. Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin, qəti və aydın mövqeyinin olması müstəqil dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi, qətiyyət və geniş elmi dünya görüşü özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və böyük siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır. Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı,



həyata keçirilən möhtəşəm layihələr – Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars Dəmir Yolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni tarixi epoxanın və müasir Azərbaycanın reallıqları ilə daha da zənginləşdirən görkəmli dövlət xadimidir. İlham Əliyev daim inkişafda olan, yeniləşib zənginləşən Heydər Əliyevçi siyasi təlimin, yeni dövlətçilik nəzəriyyəsinin yaradıcısıdır. İlham Əliyev – mövcud dövlətçilik təliminin inkişaf edən yeni epoxa ilə şərtlənən yeni dövrünün lideri səviyyəsində görkəmli təmsilçisidir. İlham Əliyev – Azərbaycanın sınanılmış yolu olan Heydər Əliyev yolunun böyük magistrallardakı qüdrətli sükançısıdır. Məhz İlham Əliyev yeni dünya düzənində Azərbaycana başucalığı gətirən, ölkəmizin nüfuzunu artıran böyük siyasətçidir. Azərbaycanın yeni tarixi epoxadakı inkişaf etməkdə davam edən müasir həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin onkret əməli nəticəsidir. Bakının az qala hər gün, hər həftə keçirilən genişmiqyaslı böyük və əhəmiyyətli tədbirlərə layiqincə ev sahibliyi etməsi də Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin real göstəricilərindəndir. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi, beynəlxalq miqyaslı qərarlara imza atmaq, dünyaya müraciətlə bəyanatlar səsləndirmək haqqı qazanması Prezident İlham Əliyev müdrik siyasətinin təntənəsidir. Böyük uğurla Avropa Oyunları keçirmiş müstəqil Azərbaycan dövlətinin İslam Oyunlarına da bacarıqla ev sahibliyi etməsi ölkəmizin Prezidentinin qlobal siyasi baxışlarının əhəmiyyətli göstəricisidir. Multikulturalizm ilini dünyaya əks-səda salan mühüm tədbirlərlə və real nəticələrlə başa vuran Azərbaycan Respublikasının 2017-ci ildə bəyan edilmiş İslam Həmrəyliyi İlinin düşünülmüş addımlarını atması dövlətimizin uzaqgörən siyasətinin reallıqlarının parlaq ifadəsidir. Bütün bunlar Prezident İlham Əliyevin müasir dövrün görkəmli liderlərindən biri olduğunu əyani şəkildə təsdiq edir və azərbaycançılıq ideallarının sabahına daha inamla baxmağa tam əsas verir.

Hazırda ölkəmizdə cəmiyyət həyatının bütün sahələri kimi, ədəbiyyat və incəsənət işi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə inkişaf etdirilir. Azərbaycan elmi, ədəbiyyatı və incəsənəti böyük dövlət qayğısı ilə əhatə olunmuşdur. Ədəbiyyatda, incəsənətdə və elmi istiqamətdə azərbaycançılıq ideyalının daha da dərinləşdirilməsi, milli-mənəvi dəyərlərin aparıcı mövqe qazanması və bəşəri ideyalar mövqeyindən işıqlandırılması yeni dövrdəki inkişafın xarakterini müəyyən edir.

Milli Elmlər Akademiyasında beynəlxalq əlaqələrin genişlənməsi, Yüksək Texnologiyalar Parkının yaradılıb inkişaf etdirilməsi, elmdə innovasiya və sahibkarlığın özünəməxsus yer tutması, yeni elmi-tədqiqat institutlarının fəaliyyətə başlaması, gəncliyə elmdə açılmış geniş meydan Azərbaycan elminin İlham Əliyev dövrünün mühüm reallıqlarıdır. Eyni zamanda, Azərbaycan incəsənətinin dünya miqyasına çıxarılması və milli sənətin inkişafına xüsusi diqqət yetirilməsi sənətin ayrı-ayrı sahələri üzrə keçirilən müsabiqələrdə gənc istedadların üzə çıxarılması, yazıçıların əsərlərinin dünya dillərinə tərcümə edilərək xarici ölkələrdə çap edilməsi və Azərbaycan mövzusunun xüsusi önəm daşıması müstəqillik dövrünün yeni epoxasının konkret bəhrələridir.

Azərbaycançılıq ideyaları müstəqil Azərbaycan dövlətinin siyasi-ideoloji istiqamətinin ana xətti, elm, ədəbiyyat və incəsənət isə bu ideyaların əsas hərəkətverici qüvvəsidir.

Prezident İlham Əliyev Azərbaycan Respublikasını qətiyyətlə və yaradıcılıqla irəli aparan qüdrətli dövlət xadimi kimi çoxcəhətli yorulmaz fəaliyyəti ilə ölkəmizin sabahına gur işıq salır.

Müstəqil Azərbaycan dövləti milli-mənəvi dəyərlərlə bəşəri idealların vəhdəti işığında daha böyük gələcəyə doğru inamla yol gedir.





# Bakıda ikinci milli BMT modeli konfransının açılış mərasimi keçirilib

**Dekabrın 18-də Bakıda ikinci milli BMT modeli konfransı (Milli MUN) işə başlayıb.**

Konfransda diplomat qismində 20-dən çox ali təhsil müəssisəsindən və orta məktəbdən 250-dən çox gənc iştirak edib.

Konfransın açılışında çıxış edən Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov bildirib ki, ölkəmizdə BMT modeli hərəkatı Prezident İlham Əliyevin 2014-cü il 19 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakının dəstəklənməsi üçün yeni platformalar yaradılması haqqında" imzalanmış layihə çərçivəsində formalaşıb. Konfrans Gənclər və İdman Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının birgə layihəsi çərçivəsində reallaşdırılır.

Nazir vurğulayıb ki, tədbirin və layihənin əsas məqsədlərindən biri Azərbaycanda BMT modeli (MUN) hərəkatının institutlaşdırılması, ali təhsil müəssisələrində MUN klublarının təsis edilməsi və onları birləşdirəcək şəbəkəsinin (Model UN Network) yaradılmasıdır. Eyni zamanda, gənclərin qlobal siyasi müzakirələrdə fəallıqlarını dəstəkləmək üçün yeni platformaların yaradılması da tədbirin əsas hədəflərindəndir. Azərbaycanda BMT modeli hərəkatının əsası 2013-cü ildə qoyulub. İlk dəfə Azərbaycanda Milli MUN konfransı ötən il fevralın 20-23-də 350 gəncin iştirakı ilə keçirilib. Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 30 gənc dünyanın müxtəlif ölkələrində bu Milli MUN Modeli çərçivəsində konfranslarda iştirak ediblər.

Azad Rəhimov bildirib ki, əvvəllər Daşkəsəndə, Naxçıvanda, İsmayıllıda keçirilmiş BMT modeli üzrə konfranslar və yay məktəbləri gənclərin bir araya gəlməsində böyük rol oynayıb. Bu model gənclərə fərdi bilik və bacarıqlarını inkişaf etdirmələri üçün böyük dəstəkdir. Gənclər burada BMT ilə bağlı biliklərini artırmaq imkanı əldə edirlər. Növbəti dörd gün ərzində gənclər aparılan müzakirələrdə və qaldırılan problemlərin həllində fəal olacaq, təkliflərini verəcəklər.

Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev tədbirdə çıxış edərək bildirib ki, Bakıda keçirilən ikinci milli BMT modeli konfransı və ümumiyyətlə təşkilatın keçirdiyi belə simulyasiya oyunları layihələri böyük əhəmiyyət kəsb edir. Dünya ölkələrini sülh və dialoqdan yayındırmağa çalışan nifrət və zorakı amillərin geniş vüsət aldığı dövrdə ölkəmizin gələcək liderləri və öz sahəsinin peşəkarları həm çox yaxşı hazırlıqlı, həm də savadlı olmalıdırlar.

Şöbə müdiri deyib ki, BMT modeli konfransının və simulyasiya oyunlarının Azərbaycan gənclərinə və ümumiyyətlə dünyaya verəcəyi əsas töhfə belə beynəlxalq platformada bütün dünyanı narahat edən aktual problemləri müzakirə etmək, ortaq prinsiplər axtarışında olmaq, dözümlülük qabiliyyətinə yiyələnmək kimi dəyərlərdir. BMT Modeli simulyasiya oyunu dünyada baş verən problemlərlə yaxından tanış olmaqda gənclərə kömək göstərir və onları bu problemlərlə mübarizədə daha əzmkar olmağa sövq edir. Bunun nəticəsində ölkəmizin gənc liderləri yaşadığımız planeti daha yaxşı məkana çevirmək üçün səylərini daha ustalıqla və həvəslə yerinə yetirmək bacarığına sahib olurlar.

Konfransın müzakirə ediləcək əsas mövzuların dünyanı narahat edən siyasi, sosial-iqtisadi və ətraf mühitlə bağlı problemlərə dair olduğunu vurğulayan Yusuf Məmmədəliyev bildirib: "Dünya liderlərinin təsdiq etdikləri 2030-cu ilə qədər davamlı inkişaf gündəliyi təşəbbüsü bəşəriyyət qarşısında duran mövcud problemlərin həlli baxımından dünya dövlətləri tərəfindən irəli sürülmüş böyük irəliləyişdir. Gənclər bu layihənin fəal iştirakçıları olduğundan 2030-cu ilə qədər davamlı inkişaf gündəliyini həm də gənclərin gündəliyi adlandırıla bilər. Bu gün dünyada əvvəlki illərdən



fərqli olaraq, gənclərin sayının çox olması gələcək inkişaf üçün misilsiz imkanlar yaradır. Biz gənclərin ideyaları və innovasiyaları sayəsində gələcəyimizi dəyişmək iqtidarındayıq. Belə tədbirlər gənclərin bilik və bacarıqlarını ortaya qoymaq, təcrübə mübadiləsi aparmaq, onların qabiliyyətlərini nümayiş etdirmək və birgə səylərini ortaq problemlərin həllinə yönəltmək baxımından çox əhəmiyyətlidir".

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və təşkilatın İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai, Azərbaycanın təhsil naziri vəzifəsini icra edən Ceyhun Bayramov, Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov və başqaları ölkəmizdə ikinci dəfə keçirilən bu tədbirin gənclərin inkişafı, onların qlobal müzakirələrdə iştirakı, öz fikirlərini çatdırmaq və mövqelərini əsaslandırmaq baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər. Konfransın gənclərin həm milli, həm də beynəlxalq səviyyədə ölkə ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmalarına mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

Çıxış edənlər Prezident İlham Əliyev tərəfindən ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, həyata keçirilən gənclər siyasətinin uğurlarından danışıblar. Qeyd edilib ki, indiyədək BMT modeli hərəkatının genişlənməsi istiqamətində bir sıra işlər görülüb. Ali təhsil müəssisələrində BMT modeli haqqında təqdimatlar keçirilib, MUN klubları yaradılıb, universitet səviyyəsində və universitetlərarası konfranslar təşkil edilib, sosial media və kütləvi informasiya vasitələrində təbliğat işi aparılıb.

Çıxışlardan sonra konfransla bağlı "BMT modeli" adlı videoçarx nümayiş etdirilib.

BMT modeli gənclərə diplomatiya və əməkdaşlıq dünyasını təsvir edən BMT Baş Məclisi, BMT Təhlükəsizlik Şurası və bu təşkilatın digər qurumlarının işinin real həyatda simulyasiyasıdır. Bu modeldə gənclər təşkilatın gündəliyindəki cari məsələlər üzrə müzakirələr aparır və seçilən mövzu üzrə mövcud problemləri həll etmək üçün tərəfdaşlar və rəqiblərlə danışıqlar aparır, qətnamə qəbul etməyə çalışırlar. BMT modeli iştirakçılara öz şəxsi və iş bacarıqlarını artırmağa imkan verən bir vasitədir. BMT modeli ilə məşğul olan zaman gənclər xarici dil, danışıq, təqdimat, əməkdaşlıq, rəsmi yazı və ünsiyyət bacarıqlarını inkişaf etdirir, BMT-yə daxil olan qurumlar və ölkələr haqqında, həmçinin müzakirə edilən mövzular barədə biliklərini təkmilləşdirirlər.

**AZƏRTAC**

# Azərbaycanlı şagirdlərin oxu bacarıqları üzrə nəticələri yüksəlib

**Dekabrın 7-də Təhsil Nazirliyində PIRLS tədqiqatı üzrə azərbaycanlı şagirdlərin göstərdikləri yüksək nəticə ilə bağlı brifinq keçirilib.**




Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev qeyd edib ki, son 5 ildə oxu bacarıqları üzrə IV sinfin sonunda yüksək nəticə göstərən azərbaycanlı şagirdlərin sayı 2 dəfə artıb. Belə ki, oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqat – PIRLS-in (Progress in International Reading Literacy Study) nəticələrinə görə, azərbaycanlı şagirdlərin 2016-cı ildə oxu bacarıqları 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 462 baldan 472 bala yüksəlib və ya 10 bal artıb.

Oxu prosesinin ayrı-ayrı komponentləri üzrə də ölkə üzrə şagirdlərin nəticələrində əsaslı yaxşılaşma qeydə alınıb. "İnformasiya almaq məqsədilə" oxu bacarıqları 460 baldan 475 bala, ədəbi məzmunlu mətnlər üzrə oxu bacarığı 461 baldan 465 bala qədər inkişaf edib. Şagirdlərin "İzah, inteqrasiya və qiymətləndirmə" bacarıqları 449 baldan 463 bala, "birbaşa nəticə çıxarma" bacarıqları isə 469 baldan 476 bala qədər artıb.

PIRLS tədqiqatı şagirdləri nəticələrinə görə 4 – "mükəmməl", "yüksək", "orta" və "aşağı" səviyyəyə bölür. PIRLS - 2011 tədqiqatının nəticələri ilə müqayisədə azərbaycanlı şagirdlərin "mükəmməl" səviyyəyə daxil olan payı 0 faizdən 2016-cı ildə 2 faizə qədər artıb. "Yüksək" səviyyə üzrə isə şagirdlərin nəticələri 2011-ci il ilə müqayisədə 9 faizdən 2016-cı ildə 16 faizə yüksəlib. Başqa sözlə, ölkə üzrə son 5 ildə "mükəmməl" və "yüksək" səviyyəyə uyğun nəticə göstərmiş ibtidai sinif şagirdlərinin sayı 2 dəfə artıb. "Aşağı" səviyyəyə uyğun nəticə göstərmiş şagirdlərin payı 37 faizdən 27 faizə enib və ya 27 faiz azalıb.

PIRLS - 2016 proqramına ümumilikdə 60 iştirakçı ölkə (ştat, zona və s.) üzrə 340.000-dən çox şagird, 330.000 valideyn, 16.000 müəllim, 12.000 məktəb cəlb olunub. Azərbaycan üzrə isə təsadüfi seçim əsasında 170 ümumtəhsil məktəbi, 6000-dən çox 4-cü sinif şagirdi, 340 müəllim və 6000-dən çox valideyn iştirak edib.

Bildirilib ki, ölkəmiz PIRLS, TİMSS və PİSA beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak edir. Beynəlxalq qiymətləndirmə proqramları təhsilin keyfiyyətinin qiymətləndirilməsi funksiyasını yerinə yetirməklə ölkədə təhsil prosesi haqqında məlumat əldə etməyə, həlli tələb olunan əhəmiyyətli problemləri araşdırmağa, nəticələrin beynəlxalq təcrübə ilə müqayisəsinə imkan yaradır.

PIRLS ibtidai təhsil səviyyəsinin sonunda şagirdlərin oxu bacarıqlarını qiymətləndirən beynəlxalq tədqiqat proqramıdır. PIRLS tədqiqatı Şagirdlərin Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya tərəfindən 2001-ci ildən başlayaraq hər beş ildən bir keçirilir. Azərbaycan Respublikası bu proqrama 2011-ci ildə qoşulub. Əsasən inkişaf etmiş ölkələrin şagirdlərinin iştirak etdiyi bu qiymətləndirmə tədqiqatında ölkələr üzrə orta bal 500 bal olaraq müəyyən edilir.

İbitidai təhsildə keyfiyyət artımı insan kapitalının və iqtisadiyyatın inkişafına uzun müddətdə müsbət təsir edən həlledici amillərdəndir. Təhsil Nazirliyi son illərdə ibtidai təhsil səviyyəsində şagird nailiyyətlərinin yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirib. Məktəbəhazırlıq qruplarının təşkili, ibtidai sinif müəllimlərinin sınaq qiymətləndirilməsi, bu qiymətləndirmə əsasında ixtisasartırma təlimləri, müəllimlərin peşəkar inkişafı ilə bağlı layihələr, şagirdlər arasında oxu vərdişlərinin təşviqi, oxu bacarıqlarının inkişafına yönəlmiş "Zərdabi" layihəsi, valideynlərlə iş buna bariz nümunədir.

Sonda media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.



# “Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik” respublika müsabiqəsi başa çatıb

**“Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik” mövzusunda məktəblilərin II Respublika müsabiqəsinin final mərhələsi keçirilib.**



Müsabiqənin keçirilməsində əsas məqsəd aqrobiomüxtəlifliyin qorunması, ekoloji təmiz və ənənəvi kənd təsərrüfatı məhsullarının əldə edilməsində məktəblilərin fəal iştirakını təmin etmək, ekoloji təmiz bitki sortlarının becərilməsi, yerli heyvan cinslərinin qorunub saxlanılması, kənd təsərrüfatı məhsullarının öyrənilməsi və mühafizəsinə dair şagirdlərin maarifləndirilməsindən ibarətdir.

İl ərzində keçirilən müsabiqədə “Meyvəçilik”, “Arıçılıq”, “Heyvandarlıq”, “Meşə məhsulları”, “Tərəvəzçilik”, “Subtropik bitkilər”, “Gülçülük”, “Dənli bitkilər”, “Balaca fermer” nominasiyaları üzrə ümumtəhsil məktəblərindən 2000-ə qədər IV-XI sinif şagirdi fərdi, kollektiv, siniflə və ya ailəvi olaraq iştirak ediblər. Gənc ekoloqlar milli sərvətimiz olan aqrobiomüxtəlifliyin qorunması və artırılması işinə öz töhfələrini veriblər.

Müsabiqənin final mərhələsində Azərbaycanın müxtəlif regionlarından 100-ə yaxın şagird il ərzində yetişdirdikləri ekoloji təmiz məhsul nümunələrini, arıçılıq, tərəvəzçilik, gülçülük, meyvəçilik, meşə məhsulları, quşçuluq və heyvandarlıq nominasiyaları üzrə təcrübə işlərinin nəticələrini yekun sərgidə nümayiş etdiriblər.

Sərgidə iqtisadiyyat naziri Şahin Mustafayev, təhsil naziri vəzifəsini icra edən, nazir müavini Ceyhun Bayramov, Böyük Britaniyanın Ticarət və İxracın Təşviqi üzrə dövlət naziri Baronessa Rona Ferhed iştirak edib. Qonaqlar “Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik” mövzusunda məktəblilərin II Respublika müsabiqəsinin iştirakçılarının stendləri və məktəblilər tərəfindən yetişdirilmiş məhsullar ilə tanış olublar. Məlumat verilib ki, ekoloji təmiz məhsullar yeni yaradılan Respublika Uşaq Gənclər İnkişaf Mərkəzinin “Yaşıl şəbəkə” brendi ilə təqdim olunub.

Tədbirin ikinci günü Milli Məclisin Təbii ehtiyatlar, ekologiya və energetika şöbəsinin sektor müdiri Şamil Hüseynov, Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov, Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçilk şöbəsinin müdiri İmran Cümşüdov, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin İBİS proqramının rəhbəri Patrik Şlager, Respublika Uşaq Gənclər İnkişaf Mərkəzinin (RUGİM) direktoru Firuzə Sultanzadə çıxış edərək ölkəmizdə aqrar sektorun inkişafının və gənc nəslin bu istiqamətə yönləndirilməsinin vacibliyindən danışıblar.

Təhsil Nazirliyi, Kənd Təsərrüfat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, AMEA-nın Botanika, Genetika, Əkinçilik Elmi-tədqiqat institutlarının, BDU-nun əməkdaşlarının daxil olduğu münsiflər heyəti tərəfindən seçilmiş ən yaxşı təcrübəçilik işlərinin müəllifləri RUGİM-in təsis etdiyi medallar, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

**edu.gov.az**

# “İcma əsaslı məktəbəqədər təhsil” pilot layihəsinin təqdimatı




**Dekabrın 19-da UNİCEF-in maliyyə dəstəyi ilə Təhsil İnstitutu tərəfindən icra olunan “İcma əsaslı məktəbəqədər təhsil” pilot layihəsinə dair hesabat tədbiri keçirilib.**

Tədbirin keçirilməsində məqsəd məktəbəqədər təhsilin vacibliyini və bu sahədə ötən 8 ay ərzində görülən işləri ictimaiyyətin diqqətinə çatdırmaq olub.

Tədbirdə təhsil naziri vəzifəsini icra edən, nazir müavini Ceyhun Bayramov, millət vəkilləri, UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin, Təhsil İnstitutunun, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları, təhsil ekspertləri və məktəb direktorları iştirak edib.

Hesabat tədbirini giriş sözü ilə açan Emin Əmrullayev həyata keçirilən layihə ilə bağlı ətraflı məlumat təqdim edib.Emin Əmrullayev bildirib ki, layihə çərçivəsində Bakı şəhərində və 10 rayonda 50 icma seçilib, hər icmaya orta hesabla 20 nəfər 3 və 4 yaşlı uşaq layihəyə cəlb olunub. İcmada iştirak edən valideyn məktəbəqədər təhsil qruplarında övladını könüllü şəkildə qeydiyyatdan keçirir və razılığa əsasən həftədə bir neçə gün 2-4 saat ərzində uşaqlara hazırlıq təşkil olunur. İcmalarda dərslər könüllü müəllimlər, məktəb işçiləri və ya valideynlər tərəfindən aparılır. Keçirilən dərslər mütəxəssislərdən ibarət işçi qrupu tərəfindən hazırlanmış “İcma əsaslı məktəbəqədər təhsil proqramı” vəsaitinə əsaslanır.

UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin isə “İcma əsaslı məktəbəqədər təhsil” pilot layihəsinin uğurla həyata keçirilməsini diqqətə çatdıraraq bu cür təşəbbüslərə dəstək verməkdən məmnun olduqlarını qeyd edib.

Daha sonra təhsil naziri vəzifəsini icra edən, nazir müavini Ceyhun Bayramov çıxış edərək Azərbaycan Respublikasının dövlət təhsil siyasətinin strateji istiqamətlərindən biri olan məktəbəqədər təhsilin əhəmiyyətindən və bu sahədə əldə edilmiş nailiyyətlərdən danışıb. Erkən uşaqlıq dövrünü uşaqların potensial imkanlarının inkişafı dövrü hesab edən Ceyhun Bayramov bu yaş dövründə təhsilin uşağa ətraf mühitin kəşf olunmasına, baş verən dəyişiklikləri şüurlu şəkildə dərk etməsinə, sosiallaşmasına, digər uşaq və böyüklərlə əməkdaşlıq etməsinə imkan yaradan bir vasitə olduğunu, öyrənilən hər bir bacarıq və vərdişin uşağın məktəbdə oxumasına, eləcə də sonrakı həyatı boyu necə öyrənməsinə böyük təsir göstərdiyini vurğulayıb.

Ceyhun Bayramov Təhsil Nazirliyi ilə UNİCEF arasında səmərəli və islahatyönümlü əməkdaşlığı yüksək qiymətləndirib və bu əməkdaşlığa görə təşkilatın Azərbaycandakı nümayəndəliyinə təşəkkürünü bildirib.

UNİCEF ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında imzalanmış “2016-2017-ci illərə dair Dövri Fəaliyyət Planı”nına uyğun olaraq “Təhsil Nazirliyinə ailələrin maarifləndirilməsi proqramı əsasında valideynlərin maarifləndirilməsi proqramının və 3-4 yaşlı uşaqlar üçün təlim modullarının hazırlanmasına, Bakı şəhəri və 10 rayonda pilotdan keçirilməsinə texniki dəstək” layihəsinin icrası Təhsil İnstitutuna həvalə olunub. Layihə istiqamətində hər rayondan bir neçə nəfər olmaqla, 20 icma rəhbəri cari ilin sentyabr ayında təlimdən keçib, vəsaitlə tanış olub və icmalara qayıdaraq valideynlərlə layihə, uşaq inkişafı və mərhələləri, həmçinin, uşaqlarla düzgün davranış qaydaları barədə fikirlərini bölüşüb, proqram vəsaitini valideynlərə paylayaraq ondan istifadə qaydaları ilə bağlı məlumat veriblər.



# Elektron dərslik portalı xüsusi mükafata layiq görülüb

**"Milli Net-2017" Milli İnternet Mükafatı müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Təhsil Nazirliyinin elektron dərslik portalı (www.e-derslik.edu.az) "Milli Net-2017" Elektron Resurslar Müsabiqəsinin qalibi olub. Portal ilin ən yaxşı "Təhsil və elm" nominasiyası üzrə bütün nominantları üstələyərək müsabiqənin buta mükafatını əldə edib.**

Artıq 9-cu dəfə keçirilən Milli Net elektron resurslar müsabiqəsinə bu il 18 nominasiya üzrə 392 internet resurs təqdim olunub və onlardan yalnız 291 resurs yarışmaya buraxılıb. Həmin resurslardan 96-sı əsas mükafat uğrunda yarışmaq üçün nominant olaraq seçilib.

Təhsil Nazirliyi elektron dərsliklərin müasir təhsil sistemində aktuallığını nəzərə alaraq 2014-cü ildə elektron dərslik portalını istifadəyə verib. Cari ildə portalın ümumi dizaynı tamamilə yenilənib və yeni funksiyalar əlavə olunub. Son dəyişikliklərdən sonra qeydiyyatdan keçmədən də portala daxil olub elektron kitablardan istifadə etmək olur. Bundan əlavə bütün dərsliklər üzrə sürətli axtarış sistemi aktivləşdirilib. Portaldan daha rahat istifadə üçün qeydiyyatdan keçməklə bağlı izahlı video da əlavə edilib.

2017-ci ildə portala 59 yeni elektron dərslik əlavə edilib. Bundan əlavə 15 elektron dərslik multimedia vəsaitləri ilə zənginləşdirilib. Hazırda 199 elekron dərslik, 22 müəllim metodik vəsait və 2 sinifdənxaric oxu ədəbiyyatı olmaqla portalda 223 ədəd elektron kitab yerləşdirilib. Dərsliklər Azərbaycan və rus bölməsi üzrə I-X siniflər üzrə sıralanıb.

Portal yarandığı gündən bu vaxta qədər 2.500.000 dəfədən çox istifadə olunub. Təkcə 2017-ci ilin göstəricilərinə görə bu rəqəm 1 milyonu keçib. Portaldan qeydiyyatdan keçən istifadəçilərin sayı 172.143 nəfərdir.

# Ali təhsil müəssisələrində təlimlər

**2017-2018-ci tədris ili müddətində akkreditasiyası keçiriləcək ali təhsil müəssisələrinin əməkdaşlarına təlimlər keçirilib. Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin Akkreditasiya şöbəsinin əməkdaşları tərəfindən keçirilən təlimlər Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Kooperasiya Universiteti, Bakı Qızlar Universiteti,Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan Dövlət Aqrar Universiteti və Milli Aviasiya Akademiyasında təşkil olunub.**

Təlimlərin məqsədi ali təhsil müəssisələri tərəfindən təqdim olunan özünütəhlil hesabatlarının təkmilləşdirilməsi və hesabatların tələb olunan qaydada tərtib edilməsinə dəstək göstərməkdir. Təlimlərdə ali təhsil müəssisələrinin müvafiq səlahiyyətli şəxsləri ilə birlikdə özünütəhlil prosesinin effektiv təşkili, hesabatlarda qiymətləndirmə meyarlarının tam şəkildə əksi, habelə müəssisənin fəaliyyətində son 5 ilin dinamik inkişafının əks olunması, müvafiq ardıcıllıqla onların hesabatda göstərilməsi qaydaları müzakirə edilib. Eyni zamanda akkreditasiya üçün keyfiyyət istiqamətləri ətraflı şəkildə izah olunub.

İştirakçılar akkreditasiya prosesinin təşkilində bu təlimlərin faydalı olduğunu qeyd edib, ali təhsil müəssisələrində keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi üçün təlimlərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.





# “Elektron təhsil” respublika müsabiqəsinin qalibləri mükafatlandırılıblar

**Dekabrın 26-da Təhsil Nazirliyində “Elektron təhsil” respublika müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə təhsil naziri vəzifəsini icra edən Ceyhun Bayramov müsabiqənin əhəmiyyətindən danışıb. Bildirilib ki, 2010-cu ildən etibarən keçirilən "Elektron təhsil" respublika müsabiqəsində iştirak edənlərin sayı ildən-ilə artır. Son illər təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılmasının ölkəmizdə prioritet



istiqamətlərdən biri olduğunu qeyd edən C.Bayramov bu sahədə müxtəlif layihə və tədbirlərin həyata keçirildiyini söyləyib.

C.Bayramov Azərbaycan Təhsil Şəbəkəsinə qoşulmuş təhsil müəssisələrinin sayının artması, elektron tədris resurslarının mütəmadi zənginləşdirilməsi və informatika fənni üzrə yeni layihəyə başlanılması barədə geniş məlumat verib.

Bildirilib ki, müsabiqənin təşkilinin əsas məqsədi elektron tədris resurslarının, internet texnologiyalarının tədris prosesinə tətbiqini fəallaşdırmaq, tədris məqsədləri üçün internetdən istifadənin yeni üsullarını öyrənmək, tədris prosesində informasiya texnologiyalarından səmərəli istifadə edən müəllimləri həvəsləndirməkdir.

Müsabiqədə əsasən ümumi təhsil müəssisələrinin pedaqoji heyəti, pedaqoji kadrların ixtisasartırma və yenidənhazırlanması ilə məşğul olan qurumların metodist mütəxəssisləri, şagirdlər iştirak ediblər.

Üç istiqamət və altı nominasiya üzrə keçirilən müsabiqənin şəffaflığını təmin etmək məqsədilə qiymətləndirmə mərhələləri online təşkil edilib.

Müsabiqənin birinci mərhələsinə təqdim edilən 703 işdən 644-ü ikinci mərhələyə - ekspertlər tərəfindən qiymətləndirilməyə təqdim olunub və nəticədə 197 iş nominant kimi üçüncü mərhələyə keçib. Üçüncü mərhələyə keçən işlər münsiflər tərəfindən online qiymətləndirilib, 26 qalib və 35 fərqlənən müəyyənləşdirilib.

Qaliblərə diplomlar, hədiyyələr və digər xüsusi mükafatlar təqdim olunub.

Qeyd edək ki, müsabiqə “AzEduNet”, “Ultra”, "Təhsildə İnnovativ Texnologiyalar" Əlavə Təhsil Mərkəzi, “Edumedia Azərbaycan” və “Nar” mobil operatoru tərəfindən dəstəklənir.



# İnformatika fənninin tədrisi üzrə pilot layihəyə başlanılıb

**Dekabrın 25-də Təhsil Nazirliyində informatika fənninin yeni formatda tədrisi üzrə pilot layihəyə başlanılmasına dair brifinq keçirilib.**



Brifinqdə informatika fənninin tədrisi üzrə pilot layihənin rəhbəri Fəxri Qurbanov məlumat verib ki, layihə informasiya texnologiyaları (İT) sistemləri və rəqəmsal bacarıqların öyrədilməsi üzrə proqramlar hazırlayan "Alqoritmika" beynəlxalq təhsil şirkəti ilə birgə həyata keçirilir.

Pilot layihə alqoritmik düşüncə və məntiqin, layihə işləmə bacarıqlarının inkişafı və proqramlaşdırmanın əsaslarının öyrədilməsi məqsədini daşıyır. Layihə təhsilalanlara yeni texnologiya və rəqəmsal bacarıqları təcrübədə öyrənməyə, proqramlaşdırmanın sirlərinə bələd olmağa imkan verir.

Ümumi təhsil müəssisələrinin beşinci siniflərini əhatə edən layihə cari ilin sentyabrından Bakının 23 və 24 nömrəli tam orta məktəblərində tətbiq olunub. Noyabr ayından isə layihəyə Bakı şəhəri 27, 145, 240 nömrəli tam orta məktəbləri, 132-134 nömrəli təhsil kompleksi və 160 nömrəli Klassik Gimnaziya qoşulub. 2018-ci ilin fevralından isə belə məktəblərin sayının 40-a çatdırılması planlaşdırılır. Beləliklə, yaxın müddətdə pilot layihənin 5000 şagirdi əhatə edəcəyi nəzərdə tutulur.

Qeyd olunub ki, dünyanın bu sahədə özünü doğruldan ən innovativ metodikalarından istifadə edilməklə peşəkar metodist və pedaqoqlar tərəfindən hazırlanan proqram bu sahə üzrə ən yaxşı təcrübələri özündə birləşdirir. Proqram fərdi təlim, nəzəriyyə və tətbiqi yanaşma, fənlərarası əlaqə və motivasiyanın artırılması prinsiplərinə əsaslanır. Bu məqsədlə müəllim və şagirdlər vahid rəqəmsal sistemdə fəaliyyət üçün fərdi akkauntlar əldə edirlər. Şəxsi kabinetdə müəllim sinfin fəaliyyətini izləyə, şagirdlər isə müxtəlif növ rəqəmsal məzmun yarada bilərlər. Proqram uşaqlarda məntiqi, kreativ və alqoritmik düşünmə qabiliyyətinin inkişafında mühüm rola malikdir. Rusiya, Qazaxıstan, Polşa, İsrail və Kiprdə müvəffəqiyyətlə həyata keçirilən alqoritmika uşaqlara təkcə proqramlaşdırmanı deyil, biliyin praktikada tətbiqi bacarıqlarını da öyrədir.

İnformatika fənninin tədrisinin təkmilləşdirilməsi ilə şagirdlərin kompüter savadlılığının yüksəldilməsi, onların yüksək texnoloji ixtisaslara marağının artırılması nəzərdə tutulur. Proqramlaşdırma sahəsində ixtisaslı kadr hazırlığına diqqətin artırılması bu sahədə ölkəmizin beynəlxalq miqyasda rəqabətədavamlılıq əmsalını artıracaq. Bu baxımından inkişaf etmiş ölkələrin məktəb proqramlarının əsas trendi hesab olunan təhsilalanlara rəqəmsal bacarıqların öyrədilməsi zərurəti ölkəmizin ümumtəhsil şəbəkəsi üçün də mühüm əhəmiyyət kəsb edir.

Sonda media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

# Peşə təhsili müəssisələrinin işəgötürənlərlə əməkdaşlığına dair konfrans




**Dekabrın 6-da Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının birgə təşkilatçılığı ilə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində peşə təhsili müəssisələrinin işəgötürənlərlə birgə əməkdaşlığa dair konfrans keçirilib.**

Konfransın məqsədi dövlət-özəl əməkdaşlığı çərçivəsində işəgötürənlərin peşə təhsili müəssisələri ilə tərəfdaşlığa cəlb olunması və bu prosesin təşviq edilməsidir.

Öncə konfransda ölkəmizdə peşə təhsili sahəsində aparılan islahatlara dair videoçarx nümayiş olunub.

Tədbiri Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq rayonun sosial-iqtisadi inkişafı və görülən işlər barədə məlumat verib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov çıxışında özəl sektorun inkişafının Azərbaycan iqtisadiyyatının prioritetlərindən olduğunu, dövlətin iqtisadi siyasətində sahibkarlığın inkişafının əhəmiyyətini və yaradılan iş yerlərinin səriştəli işçi qüvvəsi ilə təminatının vacibliyini diqqətə çatdırıb.

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev çıxış edərək bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən, işəgötürənlərin peşə təhsili sisteminə cəlb edilməsi, kadr hazırlığının işəgötürənlərin tələblərinə uyğun aparılması və təhsildə dövlət-özəl tərəfdaşlığı sisteminin həyata keçirilməsi zəruridir. İqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən işəgötürənlər ilə peşə təhsili müəssisələri arasında müxtəlif səviyyələrdə tərəfdaşlığın qurulmasının günün tələbi olduğunu vurğulayan Famil Mustafayev ixtisaslı və səriştəli kadrların hazırlanmasının bu prosesə mühüm töhfə verəcəyini qeyd edib.

Tədbirdə Avropa İttifaqının Bakı ofisi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, British Petrolium (BP), British Council və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) kimi beynəlxalq təşkilatların, iri sahibkarlıq subyektlərinin nümayəndələri, yerli iş adamları iştirak edib və öz fikirlərini bildiriblər.

Tədbir iştirakçıları Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış olublar.

# Peşə təhsili sahəsində ikitərəfli əməkdaşlıq müzakirə olunub

**26 noyabr-2 dekabr 2017-ci il tarixlərində Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Estoniya Respublikasında səfərdə olub.**

Səfərin əsas məqsəd "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən, əmək bazarının tələblərinə uyğunlaşdırılmaqla peşə təhsili sisteminin inkişafı, peşə təhsili müəssisələrində strateji planlaşdırma, qeyri-formal və informal təhsil, yaşlıların təhsili, səmərəli maliyyələşdirmə mexanizminin yaradılması istiqamətində beynəlxalq təcrübələrin öyrənilməsindən ibarət olub.

Səfərin ilk günü Estoniya Respublikasının Təhsil və Tədqiqat Nazirliyində görüşlər keçirilib, iki ölkə arasında peşə təhsili sahəsində əməkdaşlıq imkanları müzakirə edilib.

Səfər çərçivəsində Təhsil və Tədqiqat Nazirliyinin əsas tərəfdaşı olan İnnovasiya Fondu, Estoniya Ticarət ve Sənaye Palatası, kənd təsərrüfatı və xidmət sahələri üzrə fəaliyyət göstərən peşə təhsili müəssisələrində görüşlər keçirilib. Görüşlərdə ölkə-





lərimiz arasında yüksək səviyyəli və tarixi əlaqələrə toxunan Famil Mustafayev peşə təhsili sahəsində Azərbaycanda aparılan islahatlar haqqında geniş məlumat verib, ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün konkret təklifləri qarşı tərəfə çatdırıb.

Təlim səfərində Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndələri Estoniyanın kvalifikasiya sitemi, peşə təhsilində keyfiyyətin təminatı, peşəyönümü və işəgötürənlərlə əməkdaşlıq, kurikulumların hazırlanması, yaşlıların təhsili və nəticəyönümlü modulların tətbiqinə dair təcrübə ilə yaxından tanış olublar.

Təlim səfəri "Azərbaycanda Peşə Təhsili və Təliminin inkişafına Avropa İttifaqının dəstəyi" texniki yardım layihəsi çərçivəsində baş tutub. Səfərdə bu layihənin rəhbəri Herman Sonnerveld və ekspertlər də iştirak edib.

Estoniya təhsil islahatlarına görə Avropa ölkələri içərisində aparıcı yer tutur və əmək bazarının tələblərinə uyğun ixtisaslı kadr hazırlığı, optimallaşdırılmış peşə təhsili müəssisələri, effektiv peşə təsərrüfat fəaliyyəti sahəsində qabaqcıl təcrübəyə malikdir.

# "Sabahın alimləri" müsabiqəsinə dair görüş



**Dekabrın 6-da "Sabahın alimləri" VII Respublika müsabiqəsinin təşkili məsələlərinə həsr olunmuş görüş keçirilib. Tədbirdə Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili sektorunun müdiri Anar Kazımov, Sumqayıt Dövlət Universitetinin dosenti, müsabiqənin Elmi Ekspertiza Komitəsinin rəhbəri Samir Orucov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunun müdiri Anar Qədiməliyev və məktəb direktorları iştirak ediblər.**

Tədbirin keçirilməsinin məqsədi müsabiqə çərçivəsində bir neçə il qaliblər sırasında olmuş məktəblərin təcrübəsini digər məktəblərlə bölüşmək, təcrübə mübadiləsi aparmaq, müsabiqəyə qoşulan məktəblərin sayını artırmaq və onlara müvafiq istiqamət verməkdən ibarətdir.

Tədbirdə çıxış edənlər bildiriblər ki, müsabiqənin əsas məqsədi IX-XI sinif şagirdlərinə tədqiqat aparmaq, öz elmi nailiyyətlərini nümayiş etdirmək imkanı yaratmaq və onların arasından hər il ABŞ-da keçirilən İntel ISEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisinə qatılacaq namizədləri müəyyənləşdirməkdən ibarətdir.

Qeyd edilib ki, müsabiqə riyaziyyat, fizika, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya, mühəndislik, kompüter kateqoriyaları üzrə təşkil olunur.

Tədbirdə müsabiqənin ötən il qalibi olmuş 299 nömrəli məktəb-lisey şagirdinin işinin təqdimatı olub. Həmçinin, 299 nömrəli məktəb-liseyin elmi rəhbəri müsabiqəyə hazırlıqla bağlı təfərrüatları digər məktəb nümayəndələrinin diqqətinə çatdırıb.

"Sabahın alimləri" VII Respublika Müsabiqəsində iştirak və qeydiyyatdan keçmə qaydaları haqqında da ətraflı məlumat verilib.

Qeyd edək ki, "Sabahın alimləri" VII Respublika Müsabiqəsi 2018-ci il 14-16 fevral tarixlərində təşkil olunacaq. Müsabiqənin təşkilatçıları Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsidir.

# “Clarivate Analytics” şirkəti seminar-təlim keçirib

**Elmin İnkişafı Fondunda (EİF) dünyanın ən iri elmi informasiya və analitik təhlil nəşr şirkətlərindən olan “Clarivate Analytics”in Rusiya və MDB ölkələri üzrə təhsil proqramının rəhbəri Valentin Boqorov və bu qurumun Azərbaycan üzrə nümayəndəsi Aygün Babazadənin iştirakı ilə fondun əməkdaşları üçün seminar-təlim keçirilib.**

EİF-dən AZƏRTAC-a bildiriblər ki, tədbirdə uğurlu, müasir beynəlxalq səviyyəli elmi jurnalın formalaşdırılması, inkişaf etmiş ölkələrdə elmi nəşrin beynəlxalq səviyyədə tanıdılması, elmi əsərlərin keyfiyyətinin artırılması, elmi jurnalların və əsərlərin beynəlxalq referativ bazalarda istinadlarının maksimuma çatdırılması ilə bağlı diskussiyalar aparılıb. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdə elmi jurnalların inkişaf tendensiyaları müzakirə olunub, həmçinin beynəlxalq verilənlər bazalarında işin optimallaşması barədə məlumat diqqətə çatdırılıb. İnteraktiv müzakirədə V.Boqorov sualları cavablandırıb, EİF ilə əməkdaşlığın “Clarivate Analytics” şirkəti üçün əhəmiyyətini vurğulayıb. Seminar-təlimlərin mütəmadi keçirilməsi nəzərdə tutulub.

# “Məktəbdənkənar müəssisələrdə qabaqcıl metodiki və pedaqoji təcrübə”

**Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində (RUGİM) “Təhsildə keyfiyyət ili” çərçivəsində “Məktəbdənkənar müəssisələrdə qabaqcıl metodiki və pedaqoji təcrübə” mövzusunda təlim keçirilib. Ekologiya, turizm və diyarşünaslıq istiqamətlərində keçirilən maarifləndirici təlimə mərkəzdə fəaliyyət göstərən dərnəklərin rəhbərləri qatılıb.**



RUGİM-in direktoru Firuzə Sultanzadə yeni tədris ili üçün proqram və layihələr, tərəfdaşlarla əməkdaşlığın inkişafı və birgə mühüm tədbirlərin həyata keçirilməsi haqqında məlumat verib, mərkəzin eksperti Stefanie Ettling müasir standartlara uyğun olan dərsin gedişi barədə metodiki tövsiyə ilə çıxış edib.

Təlimdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ekologiya idarəsinin əməkdaşları da iştirak edib. Bildirilib ki, ölkənin təbii ehtiyatlarının davamlı istifadəsi və alternativ enerji mənbələrinin tətbiqi sahəsində gənc nəslin bilik və bacarıqlarının artırılması üçün müvafiq idarə ilə RUGİM arasında anlaşma memorandumu imzalanıb. Həmin sənədə əsasən, elmi-tədqiqat və ekoloji maarifləndirmə məqsədi ilə birgə seminar və konfransların, öyrədici proqramların, turların, ekskursiyaların, praktik məşğələlərin və digər layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Daha sonra təlimdə “Yaşıl düşüncə-yaşıl davranış” mövzusunda təqdimat edilib, Səmti Müəyyən Etmə İdman Federasiyası ilə RUGİM arasında əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub.



# “Milli Kurikulum Çərçivəsi: tədqiqatlar və perspektivlər”

**Dekabrın 15-də “Milli Kurikulum Çərçivəsi: tədqiqatlar və perspektivlər” mövzusunda hesabat tədbiri keçirilib.**




UNİCEF-in maliyyə dəstəyi ilə Təhsil İnstitutunun hazırladığı Milli Kurikulum Çərçivəsinə dair keçirilən tədbirin məqsədi bu sahədə aparılan tədqiqatları və gələcək perspektivləri müzakirə etmək olub.

Tədbirdə təhsil nazirinin müşaviri Həsən Həsənli, Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Emin Əmrullayev, UNİCEF -in, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nümayəndələri, təhsil ekspertləri, müxtəlif fənlər üzrə ekspertlər və məktəb direktorları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Emin Əmrullayev cari ildə təhsil sahəsində əldə edilmiş nailiyyətlərdən, UNİCEF-lə səmərəli əməkdaşlıqdan danışıb və bu əməkdaşlığa görə təşkilatın Azərbaycandakı nümayəndəliyinə təşəkkürünü bildirib.

UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbərinin müavini Min Yuan “Alternativ tədris proqramlarının təbliği” layihəsinin uğurla həyata keçirilməsini diqqətə çatdıraraq bu cür təşəbbüslərə dəstək verməkdən məmnun olduqlarını bildirib.

Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasov, təhsil eksperti Zülfiyyə Veysova və Milli Təhsil Texnologiyaları Mərkəzi İctimai Birliyinin sədri Şamil Suleymanlı Milli Kurikulum Çərçivəsinə dair təqdimatlarla çıxış ediblər.

Tədbirdə layihəyə əsasən görülən işlərlə bağlı müzakirələr aparılıb, təkliflər səsləndirilib.

Milli Kurikulum Çərçivəsinin ilkin versiyası UNİCEF-in maliyyələşdirdiyi “Alternativ tədris proqramlarının təbliği” layihəsinə əsasən hazırlanıb. UNİCEF Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə imzalanmış “2016-2017-ci illərə dair Dövri Fəaliyyət Planı”nına uyğun olaraq Təhsil İnstitutuna beynəlxalq təcrübənin yerli mühitə uyğunlaşdırılması, onun əsasında alternativ və variativ kurikulumlarının hazırlanması işlərində maliyyə dəstəyi göstərib. Layihə çərçivəsində təmayüllər üzrə təhsil alan 10-cu siniflər üçün 7 istiqamət üzrə tədris proqramları tərtib edilərək çap olunub. Xarici ölkələrin Milli Kurikulum çərçivələri araşdırılıb və Azərbaycan Respublikası Milli Kurikulum Çərçivəsi üçün təlimat hazırlanıb. Milli Kurikulum Çərçivəsi 10-dan çox xarici ölkənin kurikulum çərçivəsi ilə müqayisə edilib.





# Entoni Qrin: "Oksford Universiteti professor Nərgiz Paşayeva ilə şəffaf, ikitərəfli inam və etimad əsasında qurulan əməkdaşlığı daimi davam etdirmək qərarına gəlib"

***Böyük Britaniyada işgüzar səfərdə olan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin (https:www.orinst.ox.ac.uknizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus) Azərbaycan tərəfdən rəhbəri, akademik Nərgiz Paşayeva dekabrın 5-də Oksford Universitetinin Akademik Proqramlar üzrə İnkişaf Departamentinin direktoru Entoni Qrin və Oksford Universitetinin (www.campaign.ox.ac.ukthe-campaignacademic-programmes) Nizami Gəncəvi Mərkəzinin İngiltərə tərəfdən rəhbəri professor Edmund Hertsiq ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin 2017-ci ildəki elmi-tədris fəaliyyəti müzakirə edilib. Başlıca olaraq 2018-ci ildən etibarən Mərkəzin Universitetdə daimi fəaliyyətinə dair həyata keçiriləcək rəsmi, protokol mərhələləri və elmi-tədris planları haqda geniş fikir mübadiləsi aparılıb. İlk növbədə, Universitetin rəsmi nümayəndəsi Entoni Qrin bu illər ərzində Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayeva ilə şəffaf, ikitərəfli inam və etimad əsasında qurulmuş əməkdaşlıqdan məmnunluq hissini ifadə edib və Universitetin rəhbərliyi adından akademik Nərgiz Paşayevaya minnətdarlığını çatdırıb. O qeyd edib ki, dünyanın ən qədim və ən nüfuzlu elm ocaqlarından sayılan Oksford Universiteti dəyişməz qayda olaraq əməkdaşlıq etdiyi tərəf müqabilini həmişə böyük diqqətlə seçir və əsl akademik tutumu, davamlı elmi-pedaqoji təcrübəsi olmayan və alimlərin təmsil edilmədiyi təklif və layihələrdə iştirak etmir. **Entoni Qrin Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin fəaliyyət göstərdiyi beş il ərzində artıq özünün akademik simasını doğrultduğunu və bu Universitetin bundan sonra daimi bir hissəsinə çevrilməsini əhəmiyyətli tarixi bir an kimi qiymətləndirib. Universitetin rəsmi nümayəndəsi qeyd edib ki, bu tarixdən başlayaraq Oksford Universiteti akademik Nərgiz Paşayevanın rəhbərliyi altında Nizami Gəncəvi Mərkəzinin Oksford Universitetində daimi fəaliyyətinin təmin edilməsi üçün bütün səyləri göstərməyə hazırdır.**

## *Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi*



Bu daimiliyin gerçəkləşdirilməsi üçün Mərkəzin yaradılmasının ilk günlərindən böyük əmək sərf edən Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun keçmiş direktoru, həmin universitetin Nizami Gəncəvi Mərkəzinin İngiltərə tərəfdən hazırkı rəhbəri və Şərqşünaslıq İnstitutunun aparıcı professoru Edmund Hertsiq akademik Nərgiz Paşayevanın təklifi nəticəsində Azərbaycan elmi və ümumiyyətlə, Azərbaycan tarixi üçün böyük və qürurverici bir yenilik haqqında da məlumat verib. **O deyib ki, Nizami Gəncəvinin adının, Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına verilməsi ilə bağlı təklifin rəsmi razılığı alınıb. Qeyd edək ki, bu təklif akademik Nərgiz Paşayeva tərəfindən Universitet rəhbərliyinə verilmişdir.**

Öz növbəsində, akademik Nərgiz Paşayeva ona və onun timsalında bütün Azərbaycan elmi cəmiyyətinə və tarixinə göstərilən bu böyük etibara və hörmətə görə professor Edmund Hertsiqə və Entoni Qrinə böyük təşəkkürünü bildirib. **Professor Nərgiz Paşayeva qeyd edib ki, Oksford Universitetində Nizami Gəncəvi Mərkəzinin daimiliyi, ümumiyyətlə, ölkəmiz üçün inkaredilməz uğurdur. Mərkəzin sadəcə beş, on, iyirmi, əlli il deyil, əsrlər boyu Oksford Universitetinin tərkibində qalıb fəaliyyət göstərməsi gələcəkdə bütün Azərbaycan alimləri və tələbə nəsilləri üçün dünyanın bir nömrəli universitetini əlçatan edir. Nizaminin adının Azərbaycanın adı ilə dünya elmi çevrəsinin ən yüksək pilləsində - Oksford Universitetində bərabər, daimi qalması isə ölkəmiz və xalqımız üçün böyük tarixi əhəmiyyət daşıyır.**

Qeyd edək ki, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi 2013-cü ildə yaradılıb və bu günədək Qərbdə Azərbaycan elmini dünyada təmsil edən ali elm ocağında yeganə rəsmən qəbul edilmiş funksional akademik Mərkəzdir.

# ADA Universitetində biznes sektorunun liderləri ilə görüş keçirilib

**ADA Universiteti bu il başladığı "İnkişaf naminə 100 yeni tərəfdaş" adlı kampaniya çərçivəsində biznes sektorunun liderləri ilə hesabat tədbirini keçirib. Bu barədə AZƏRTAC-a universitetdən məlumat verilib.**




ADA Universiteti yarandığı ilk gündən məşğulluq bazarında təmsil olunan sektorlarla əməkdaşlıq etsə də, ölkədə "bilik iqtisadiyyatı"nın inkişafı bu əməkdaşlığı şaxələndirmək zərurətini ortaya qoyub. Yeni kampaniya çərçivəsində ADA şirkətlərlə üç əsas istiqamət üzrə işləyir: ADA tələbələri üçün müxtəlif sahələrdə staj imkanları, şirkətlər üçün ixtisasartırma proqramları və tələbə təqaüdləri. Bu maliyyə dəstəyi hesabına, həmçinin universitetdə tələbələrin "start up" ideyalarını inkişaf etdirən İnnovasiya Mərkəzi yaratmaq mümkün olub. Tədbirdə ADA tələbələri ən uğurlu "start up" layihələrini biznes sektoru liderlərinə təqdim ediblər.

Hesabat tədbirini yekunlaşdıran xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev deyib: "Müstəqil Azərbaycan Respublikası son illər bütün sahələrdə əhəmiyyətli inkişaf əldə edib. Bizim ölkənin beynəlxalq miqyasda uğurlu olması üçün bütün resursları var. Lakin insan resurslarından hələ ki, tam səmərəli istifadə edə bilməmişik. ADA Universitetinin missiyası Azərbaycana müxtəlif sahələrdə yüksək səviyyəli insan resursunun hazırlanmasını təmin etməkdir. Bu istiqamətdə universitetin göstəriciləri məmnunluq doğurur - məzunların 90 faizi universiteti bitirdikdən üç ay sonra iş tapır". Rektor vurğulayıb ki, ADA Universiteti təkcə Azərbaycan üçün yox, qlobal miqyasda mükəmməl kadrlar yetişdirməyi qarşısına məqsəd qoyub. Bu istiqamətdə sənaye sektoru ilə yaxın münasibətlər qurmaq vacibdir.

ADA Universitetinin tədbirinə 40 digər biznes sektorunun liderləri ilə qoşulan "PricewaterhouseCoopers" (PwC) şirkətinin Azərbaycandakı nümayəndəliyinin idarəedici tərəfdaşı Mövlan Paşayev universitetlə qurulan münasibətlərindən məmnunluğunu ifadə edib: "Bu günə kimi şirkətimizdə ADA Universitetinin 20 tələbəsi və məzunu staj və məşğulluq imkanlarından yararlanıb. Deyə bilərəm ki, bu gənclərin keyfiyyətcə fərqləndiyi dərhal nəzərə çarpır: onlar müasir biznes mühitinə uyğun, praktik və ən son bilik və bacarıqlara malikdirlər. ADA Universitetinin təhsil fərqi də məhz bundadır".



# İSESKO-nun baş direktoru "Bakı Dövlət Universitetinin Dostu" adına layiq görülüb

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrinin rəhbərlik etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində olub. Universitetin professor-müəllim heyətinin iştirakı ilə baş tutan tədbiri açan rektor, akademik Abel Məhərrəmov baş direktor Əbdüləziz bin Osman əl-Tüveycrinin dünyanın tanınmış siyasətçilərindən biri olduğunu, müasir dünyada təhsilin, elmin və mədəniyyətin inkişafına layiqli töhfələr verdiyini bildirib. İSESKO-nun fəaliyyəti barədə danışan rektor təşkilatın əsas məqsədinin İslam ölkələri arasında həmrəyliyi möhkəmləndirmək, qarşılıqlı əlaqələri daha da yaxşılaşdırmaq, İslam ölkələrinin əldə etdiyi uğurları, zəngin mədəniyyəti, elmi və incəsənəti dünyaya təqdim etmək olduğunu xüsusilə qeyd edib. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradıldığını, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2006-cı ildə İSESKO-nun xoşməramlı səfiri adına layiq görüldüyünü, qurumun 30 illik yubiley xatirə qızıl medalı ilə təltif edildiyini də diqqətə çatdırıb. Baş direktorun ölkəmizə həmişə diqqət göstərdiyini vurğulayan rektor beynəlxalq arenalarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı barədə ədalətli və cəsarətli çıxışlar etdiyini də xatırladıb. Onun Prezident İlham Əliyevin sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü təyin edildiyini, Heydər Əliyev Fondunun "Qızıl çinar" beynəlxalq mükafatına layiq görüldüyünü, Azərbaycanın ali mükafatı olan "Dostluq" ordeni ilə təltif edildiyini qeyd edib.

Daha sonra İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri çıxış edərək Azərbaycanda gedən davamlı inkişaf proseslərindən və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə əldə olunan möhtəşəm uğurlardan danışıb. Ölkəmizin bu uğurlarının İslam dünyasında və ondan kənarda böyük maraqla qarşılandığını bildirib. Əbdüləziz bin Osman əl-Tüveycri qocaman ali təhsil ocağında olmasından məmnunluğunu ifadə edib və BDU-nun Azərbaycan elm-təhsilindəki yerini və rolunu, o cümlədən son illər universitetin beynəlxalq nüfuzunun daha da artmasını yüksək qiymətləndirib.

İSESKO-nun baş direktoru çıxışından sonra tələbələrin çoxsaylı suallarını cavablandırıb.

Sonda Əbdüləziz bin Osman əl-Tüveycri "Dünyada sülhün qorunmasında, xalqlar arasında dostluq əlaqələrinin möhkəmlənməsində böyük roluna, elm və təhsilin tərəqqisinə verdiyi dəstəyə görə" "Bakı Dövlət Universitetinin Dostu" adına layiq görülüb.

***BDU-nun Mətbuat və informasiya şöbəsi***

# BDU-nun 100 illik yubileyi Avrasiya Universitetlər Assosiasiyasında qeyd ediləcək

Avrasiya Universitetlər Assosiasiyasının prezidenti, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadoniçi Bakı Dövlət Universitetinin rektoru, qeyd edilən Assosiasiyanın vitse-prezidenti, akademik Abel Məhərrəmova məktub ünvanlayıb. Məktubda Avrasiya Universitetlər Assosiasiyasının 2019-cu ildə keçiriləcək əsas tədbirləri sırasına Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirinin də əlavə edilməsi əksini tapıb. Assosiasiyanın prezidenti, eyni zamanda, akademik Abel Məhərrəmovun qurumda aktiv fəaliyyətini yüksək qiymətləndirib. Viktor Sadovniçi həmçinin Assosiasiyaya daxil olan universitetlərin beynəlxalq əlaqələrinin genişlənməsində, vahid elmi-təhsil mühitinin saxlanmasında və təhsil ocaqları arasında dostluğun möhkəmləndirilməsindəki xidmətlərinə görə Abel Məhərrəmova təşəkkürünü bildirib.

Onu da qeyd edək ki, bir müddət əvvəl Bakı Dövlət Universitetinin 100 illik yubileyinin 2019-cu ildə UNESCO səviyyəsində qeyd olunması ilə bağlı qurumun Baş Konfransı 39-cu sessiyasında qərar qəbul edib.





# “UNEC-in islahat təcrübəsi uğur modelidir”

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən “Avrasiya iqtisadi perspektivi” V Beynəlxalq Avrasiya İqtisadi Forumunda iştirak edib.**



Forum çərçivəsində “Avrasiya humanitar əməkdaşlığı: Təhsil, elm və mədəniyyət” mövzusunda plenar iclas təşkil edilib. Tədbirdə MDB məkanı üzrə elmi istinad indeksi institutunun yaradılması, universitetlərin təhsil və elm sahəsində qarşılıqlı əlaqələrinin dərinləşməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Avrasiya Universitetlər Assosiasiyasının icra komitəsinin sədri, professor A. Sidoroviç UNEC-in fəaliyyətinə diqqət çəkərək, bu ali təhsil ocağının uğurlarını rəğbətlə izlədiyini bildirib. UNEC-in regionda və dünyada nüfuzunun sürətlə artdığına diqqət çəkən professor, universitetin inkişaf strategiyasının doğru müəyyən edildiyini və bu təcrübənin öyrənilməsinin vacibliyini vurğulayıb. Tədbirdə iştirak edən Rusiyanın tanınmış iqtisadçı alimləri UNEC-in Rus İqtisad Məktəbinin fəaliyyətini yüksək qiymətləndirərək, pedaqoji fəaliyyətlərini burada davam etdirməkdən məmnun olacaqlarını bildiriblər.

Rektor Ə.Muradov forum çərçivəsində Sankt-Peterburq Dövlət İqtisad Universitetində də olub. Universitetin rektoru, professor İqor Maksimtsev nailiyyətlərini yaxından izlədiyi UNEC-in islahat təcrübəsini uğur modeli adlandırıb. O, UNEC-də tətbiq edilən yenilikləri ali təhsil səviyyəsində mütərəqqi addım hesab etdiyini bildirib. Sankt-Peterburq Dövlət İqtisad Universitetinin kitabxanası ilə tanış olan Ə.Muradov yaxın zamanda Azərbaycanda ilk dəfə olaraq UNEC-də 7 gün 24 saat fəaliyyət göstərəcək müasir kitabxananın tələbələrin istifadəsinə veriləcəyini diqqətə çatdırıb. Professor İ.Maksimtsev yeni yaradılan kitabxananın fəaliyyəti ilə tanış olmaq, ümumiyyətlə, UNEC təcrübəsini öyrənmək məqsədilə Bakıya səfər etməyi planlaşdırdığını bildirib. Görüşdə ikili diplom proqramı barədə razılaşma əldə edilib.

UNEC rektorunun növbəti görüşü isə “Müasir iqtisadiyyatın problemləri” Avrasiya beynəlxalq elmi-analitik jurnalının baş redaktoru N.Qazizullin ilə olub. Baş redaktor UNEC brendinin beynəlxalq aləmdə qısa zamanda tanındığına diqqət çəkərək, bu təcrübəni dünyanın elm və təhsil ictimaiyyəti ilə paylaşmağın zərurətini vurğulayıb. O, “Müasir iqtisadiyyatın problemləri” jurnalının xüsusi buraxılışının UNEC-ə həsr ediləcəyini bildirib.

Görüşlərdə UNEC-in elmi tədqiqat universitetinə çevrilməsi istiqamətində tətbiq edilən yeniliklər xüsusi vurğulanıb. Ali təhsil ocağının ictimaiyyətə açıq olması, ölkədə və regionda baş verən iqtisadi proseslərə öz proqnozları ilə çevik reaksiya verən UNEC ekspertlərinin fəaliyyəti yüksək qiymətləndirilib.



# Sumqayıt Dövlət Universitetinin 55 illik yubileyi qeyd edilib

**Dekabrın 8-də Sumqayıt Dövlət Universitetinin (SDU) 55 illik yubileyi münasibəti ilə mərasim keçirilib. Tədbir iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.**



Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb. Tədbirdən öncə foyedə təşkil olunan tələbələrin əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Universitetin akt zalında davam etdirilən mərasimdə təhsil nazirinin müavini Ceyhun Bayramov, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, dünyanın müxtəlif ölkələrindən olan alimlər və ali məktəblərin rektorları iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan universitetin rektoru Elxan Hüseynov Sumqayıt Dövlət Universitetinin keçdiyi tarixi yoldan, qazandığı uğurlardan və ali məktəbin gənc nəslin təlim-tərbiyəsindəki rolundan danışıb.

Universitetin kollektivini yubiley münasibətilə təbrik edən təhsil nazirinin müavini Ceyhun Bayramov SDU-nun zəngin ənənələrə malik elmi-pedaqoji fəaliyyətindən, ölkəmizdə elm və təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıb. Nazir müavini ümummilli lider Heydər Əliyevin elmə, təhsilə daim böyük önəm verdiyini, ulu öndərin ideyalarının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Nazir müavini SDU-nun Azərbaycanda yüksək ixtisaslı kadr hazırlığında rolunu, ölkəmizin beynəlxalq səviyyədə təhsil əlaqələrinin inkişafında əhəmiyyətini diqqətə çatdırıb. Ceyhun Bayramov bidirib ki, SDU fəaliyyət göstərdiyi bütün dövrlərdə yalnız Azərbaycanın deyil, həm də keçmiş Sovetlər Birliyinin, eləcə də bir sıra xarici ölkələrin sənaye müəssisələrini yüksək ixtisaslı kadrlarla təmin edib, ölkəmizin intellektual potensialının inkişafına dəyərli töhfələr verib.

Tədbirdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Ufa Dövlət Neft Texniki Universitetinin rektoru Ramil Baxtizin kollektivi 55 illik yubiley münasibəti ilə təbrik edərək yeni-yeni nailiyyətlər arzulayıblar. Rusiya-Azərbaycan Universitetləri Assosiasiyasının Rusiya tərəfdən həmsədri, akademik Ramil Baxtizin çıxışında Sumqayıt Dövlət Universitetinin elm, təhsil sahəsindəki özünəməxsus yerindən və ziyalı mühitinin formalaşmasındakı rolundan danışıb, universitet rəhbərliyini və kollektivi 55 illik yubileyi münasibəti ilə təbrik edərək yeni –yeni nailiyyətlər arzulayıb. Ramil Baxtizin SDU-nun Fəxri doktor adına layiq görülməsindən məmnunluğunu ifadə edib, bu adın Rusiya və Azərbaycan arasında dostluq və əməkdaşlığın genişləndirilməsinə öz töhfəsini verəcəyini vurğulayıb.

SDU-nun 55 illik yubileyinə həsr olunmş mərasimdə Başqırdıstan Respublikasının baş nazirin müavini S.Saqitovun, Uxta Dövlət Texniki Universitetinin rektoru Nikolay Cxadayanın, universitetin fəxri doktoru, Almaniyanın Lüdviqshafen şəhərinin oberburqomistri Eva Lohsenin təbrik məktubları səsləndirilib.

Mərasimdə ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə universitetin yubiley münasibəti ilə təltif olunan əməkdaşlarına dövlət mükafatları, həmçinin bir qrup əməkdaşa isə Təhsil Nazirliyinin "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı və Fəxri fərmanı təqdim olunub.

**"Təhsil"**

# ADNSU ilə "Microsoft Azərbaycan" şirkəti arasında əməkdaşlıq genişlənir

**Dekabrın 5-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlının "Microsoft Azərbaycan" şirkətinin biznesin inkişafı üzrə meneceri Emin Axundov, şirkətin Sloveniya və Bolqarıstandan olan təhsil həlləri üzrə mütəxəssisləri Oliver Zofiç və Teodora Varbanova ilə görüşü olub.**



ADNSU-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə professor M.Babanlı universitetin "eazi-START" Startap və İnnovasiya Mərkəzi və "AzİI İT Academy" haqqında ətraflı məlumat verib, gələcək inkişaf istiqamətlərindən danışıb. "Microsoft Azərbaycan" şirkətini ən etibarlı tərəfdaşlardan hesab etdiyini deyən rektor şirkətlə sıx əlaqələrin qurulmasının, "Microsoft"un informasiya resurslarının universitetin təhsil proqramına inteqrasiyasının əhəmiyyətini diqqətə çatdırıb.

ADNSU ilə əməkdaşlığa xüsusi önəm verildiyini qeyd edən E.Axundov təhsil həlləri üzrə bir sıra problemli məsələlərin həllində birgə layihələrin həyata keçirilməsinin və əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə, eyni zamanda, universitetdə müəllim və tələbələrlə birgə iş imkanları nəzərdən keçirilib, əməkdaşlıq istiqamətləri müzakirə olunub.

# Çinin Lonqdonq Universiteti ADNSU ilə birgə layihələr gerçəkləşdirmək arzusundadır

**Çin Xalq Respublikasında səfərdə olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlı dekabrın 23-də Qansu əyalətinin Lonqdonq Universitetinin prorektoru Ma Yueninqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Prorektor Ma Yueninq Lançjouya Lonqdonq Universitetinin rektorunun tapşırığı ilə əməkdaşlıq münasibətlərini müzakirə etmək məqsədilə gəldiklərini qeyd edərək təmsil etdiyi ali məktəbin neft-qaz təhsili sahəsində Çində aparıcı universitetlərdən biri olduğunu bildirib.**



Rektor, professor M.Babanlı Lonqdonq Universitetinin ADNSU ilə əməkdaşlığa böyük önəm verməsinə görə təşəkkürünü ifadə edərək ali məktəbin imkanları və nailiyyətləri barədə ətraflı məlumat verib və universitetin əməkdaşlığa hazır olduğunu bildirib.

Lonqdonq Universitetinin prorektoru ADNSU-nun yüksək potensialından istifadə etmək arzularını ifadə edərək ixtisasartırma və elmi kadrların hazırlanmasında, azərbaycanlı müəllimlərin tədrisə cəlb olunmasında, birgə layihələrin gerçəkləşdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıblar.

Tərəflər Lonqdonq Universitetinin nümayəndələrinin ADNSU-da təhsil imkanları ilə yerində tanış olmaları üçün Azərbaycan paytaxtına səfərə gəlmələrinə dair razılıq əldə ediblər.

# Azərbaycan Dillər Universitetində Rusiyaşünaslıq Mərkəzi açılıb

**Dekabrın 8-də Azərbaycan Dillər Universiteti (ADU) və Rusiya Federasiyasının A.S.Puşkin adına Rus dili Dövlət İnstitutu arasında əməkdaşlıq sazişi imzalanıb.**



AZƏRTAC xəbər verir ki, saziş ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, akademik Kamal Abdulla və A.S.Puşkin adına Rus dili Dövlət İnstitutunun rektoru, professor Marqarita Rusetskaya tərəfindən imzalanıb.

İmzalanmadan sonra ADU-nun nəzdində Rusiyaşünaslıq Mərkəzinin açılış mərasimi keçirilib.

Sazişdə əməkdaşlıq çərçivəsində rus dilinin tədrisi, test üsulu ilə imtahanların keçirilməsi, kadr hazırlığı və təsnifatının artırılmasında institutun təcrübəsindən, həmçinin distant təhsil resurslarından yararlanmaq, rus dilinin tədrisi və test üsulu ilə sertifikatlaşdırılmış imtahan sahəsində həyata keçirilən layihə və proqramlara təşkilati, metodiki və texniki, həmçinin "Rus dilində təhsil" portalı vasitəsilə dəstəyin göstərilməsi, rus dili, Rusiya mədəniyyəti və ədəbiyyatı, eyni zamanda, ADU-nun nəzdində fəaliyyət göstərən rusiyaşünaslıq elmi-tədqiqat laboratoriyasının bazasında milli dil bacarıqlarının yoxlanılması üzrə olimpiadaların, yaradıcı müsabiqələrin təşkili, təhsil turizmi üzrə proqramların reallaşdırılması nəzərdə tutulub.

Rektor Kamal Abdulla qonaqları universitetdə görməkdən məmnun olduğunu söyləyib. O bildirib ki, bu mərkəz iki ali təhsil müəssisəsi arasında layihələrin həyata keçirilməsi, əlaqələrin gücləndirilməsi baxımından vacib platforma olacaq. Rektor, həmçinin imzalanan saziş çərçivəsində bir çox faydalı və səmərəli işlərin görüləcəyini vurğulayıb.

A.S.Puşkin adına Rus dili Dövlət İnstitutunun beynəlxalq əlaqələr üzrə prorektoru Viktoriya Kosteva institutun rektoru M.Rusetskayanın müəyyən səbəblərdən tədbirdə iştirak edə bilməməsinə görə təəssüf hisslərini bildirib. O, rektorun K.Abdullaya ünvanladığı məktubu iştirakçıların diqqətinə çatdırıb. Məktubda M.Rusetskaya K.Abdullanı Rusiya Federasiyasının ali dövlət mükafatı olan Puşkin medalı ilə təltif olunması münasibətilə təbrik edib. Məktubda qeyd edilib ki, Azərbaycanda rus dili və ədəbiyyatının, həmçinin Rusiya mədəniyyətinin tanıdılması istiqamətində rektor K.Abdullanın əvəzedilməz rolu, o cümlədən onun Bakı Beynəlxalq Multikulturalizm Mərkəzindəki genişmiqyaslı fəaliyyəti yüksək qiymətləndirilib. Rektor M.Rusetskaya məktubda, həmçinin vurğulayıb ki, K.Abdullanın Rusiyada və digər xarici ölkələrdə roman, pyes, şeir, esse və məqalələrinə böyük məmnuniyyətlə müraciət olunur. Rektor məktubunu K.Abdullaya elm, təhsil və ictimai fəaliyyətində, ədəbi yaradıcılığında nailiyyətlər arzuları ilə bitirib.





Daha sonra V.Kosteva rektor K.Abdullaya institutun yaranmasının 50 illik yubileyi münasibətilə təhsil müəssisəsinin markasını hədiyyə edib.

Prorektor V.Kosteva institutun yaranması, tədris prosesi, tələbə heyəti, Linqvistika Mərkəzinin rəhbəri Oleq Rodçenko isə sertifikatlaşdırılmış test üsulu ilə aparılan imtahanlar haqqında məlumat verib.

Daha sonra Milli Məclisin deputatı Elmira Axundova, Azərbaycandakı rus icmasının rəhbəri Mixail Zabelin, Bakı-Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein öz fikirlərini bölüşüblər.

Sonra ADU-nun nəzdində fəaliyyət göstərən Rusiyaşünaslıq Mərkəzinin rəsmi açılış mərasimi keçirilib. İnstitutun Linqvistika Mərkəzinin rəhbəri Oleq Rodçenko ADU-nun rus dili üzrə mütəxəssislərinə "Rus dilində aktual proseslər" mövzusunda mühazirə deyib. O, mühazirəsində rus dilinin fonetikası, qrammatikası, leksika və semantikası, həmçinin müxtəlif səviyyələrdə prosesin aktivliyi haqqında ətraflı məlumat verib. ADU-nun tələbələri imzalanmış saziş çərçivəsində sertifikatlaşdırılmış test üsulu ilə oxuma, yazma, dinləmə, leksik və qrammatik bacarıqların yoxlanması istiqamətində imtahan veriblər. İmtahan 4 saat müddətində davam edib. İmtahanın sonunda tələbələrə sertifikatlar verilib.

Daha sonra ADU-da ölkənin KİV nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib. A.S.Puşkin adına Rus dili Dövlət İnstitutunun rəsmiləri KİV nümayəndələrinə təmsil etdikləri qurum haqqında məlumat veriblər. Qonaqlar universitetlər arasında imzalanan sazişin təhsil sahəsinə töhfələri, perspektivlər, rusiyaşünaslıq istiqamətində nəzərdə tutulan planlar, Rusiyada Azərbaycan dilinin tədrisi və digər istiqamətdə verilən sualları cavablandırıb.

# Dillər Universitetində sərgi: "Mədəniyyətlərarası dialoq-dünya eposları"

**Dekabrın 26-da Azərbaycan Dillər Universitetində (ADU) "Mədəniyyətlərarası dialoq - dünya eposları" mövzusunda sərgi keçirilib.**

ADU-dan AZƏRTAC-a bildirilib ki, sərgi bu ali təhsil ocağının müqayisəli folklor elmi-tədqiqat laboratoriyasının və "SABAH" qrupunun birgə layihəsi çərçivəsində təşkil olunub.

Sərgidə ADU-nun tələbələri iştirakçılara dünya mədəniyyətinin şifahi xalq ədəbiyyatı nümunələri olan eposlar haqqında təqdimat edib, "Kitabi-Dədə Qorqud", "İqor polku haqqında dastan", "Nibelunqlar haqqında nəğmə", "Beovulf" və "Roland haqqında nəğmə", "Sid haqqında nəğmə" dastanları barədə Azərbaycan, ingilis, rus və digər dillərdə ətraflı məlumat veriblər.

Müqayisəli folklor elmi-tədqiqat laboratoriyasının müdiri, dosent Həmidə Əliyeva dünya və Qərbi Avropa eposlarını Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi, kökləri mifoloji dünyagörüşünə gedib çıxan "Kitabi-Dədə Qorqud" dastanları ilə müqayisəli şəkildə öyrənməyin əhəmiyyətindən danışıb. Vurğulanıb ki, sərgidə təmsil olunan eposlar xalqın milli mənəvi dəyərləri, etno-psixoloji keyfiyyətləri ilə sıx əlaqəlidir. H.Əliyeva bu cür tədbirlərin mütəmadi şəkildə təşkil ediləcəyinə ümidvar olduğunu bildirib.

Sərginin təşkilində əməyi olanlara təşəkkür edən ADU-nun rektoru, akademik Kamal Abdulla eposlar haqqında təsəvvürlərimizin sərgi vasitəsilə başqa mədəniyyətlərlə yanaşı, Azərbaycan mədəniyyətinin də təbliğatının gözəl bir örnəyinə çevrildiyini bildirib. O deyib: "Mən çox istərdim ki, bizim laboratoriyalarımız və müəllimlərimizin başladıqları bu mədəni şücaət, təbliğat davam etsin və tələbələrimizin daha geniş kütləsi bu işə cəlb olunsun. Bu cür sərgilərin təşkili ənənəyə çevrilməlidir. Yaxın gələcəkdə başqa ölkələrin universitetlərində Azərbaycan mədəniyyətini, dilini təbliğ edərkən belə gözəl işlərə ehtiyacımız olacaq. Bu, bilavasitə Azərbaycan mədəniyyətinə yeni dostlar və təbliğatçılar qazandıracaq".

Sərginin təşkilində fəal iştirak edən tələbələrə sertifikatlar təqdim olunub.



# BMU-nun rektoru Azərbaycan Biznes Keys 2017 Müsabiqəsinin qalibləri ilə görüşüb

**ABŞ Təhsilli Azərbaycan Məzunları İctimai Birliyi tərəfindən keçirilən ənənəvi "Azərbaycan Biznes Keys 2017 Müsabiqəsinin" final mərhələsi keçirilib. Bu il 15 illiyini qeyd edən müsabiqə 2002-ci ildən təşkil olunur. Müsabiqə ABŞ Səfirliyinin təşkilati dəstəyi, yerli və xarici şirkətlərin sponsorluğu ilə həyata keçirilir. Yarışın bu ilki qalibi müsabiqədə ilk dəfə iştirak edən Bakı Mühəndislik Universitetinin Hüseyn Məmmədov (Dünya İqtisadiyyatı-4.kurs), Qəzənfər Kərimli (Maliyyə-3 kurs), Lalə Rüstəmli (Dünya İqtisadiyyatı-3.kurs) və Cəfər Cəfərovdan (Dünya İqtisadiyyatı-3.kurs) ibarət komandası olub.**




Universitetin rektoru, professor Havar Məmmədov qalib tələbələri qəbul edib, onları nailiyyətləri münasibəti ilə təbrik edib. Rektor qeyd edib ki, universitetin tələbələri 2017-2018-ci dərs ilinə uğurlu başlayıblar. Xüsusən İT və iqtisadiyyat fakültələrinin tələbələri onlarla müsabiqənin qalibi olublar. Tələbələrə tövsiyələrini verən rektor gələcək həyatlarında uğurlar arzulayıb.

Qeyd edək ki, Azərbaycan Biznes Keys yarışması universitetlərin maliyyə, biznes, iqtisadiyyat sahəsində təhsil alan bakalavr və magistr tələbələrindən ibarət komandalar arasında keçirilən ən prestijli biznes yarışmasıdır. Yarışmada analiz üçün tələbələrə real həyatda şirkətlərin qarşılaşdıqları biznes problemləri əsasında yazılmış Harvard Business School-un keysləri təqdim edilir. Əvvəlcədən bütün komandalar 6 həftə ərzində biznes analizi, strategiyanın qurulması, təqdimat etmək bacarığı və s. mövzularda təlimlər keçirlər. Təlimdən sonra komandalar final mərhələsindən öncə sınaq təqdimatlarında da iştirak edirlər.

Dörd yarımfinal qalibi olan komanda birinci yer uğrunda mübarizə məqsədilə hakimlər qarşısında öz təhlillərinin təqdimatı ilə çıxış edirlər. Finalçılardan keyslərə həll yolları təqdim etmək tələb olunur və qiymətləndirilmə, komandaların kritik biznes düşüncə qabiliyyəti, maliyyə analizi, marketinq strategiyası, təqdimat bacarıqları, eləcə də sual-cavab mərhələsinə hazırlıqlarına əsaslanır. Qalib komandalar ümumilikdə 10.000 AZN mükafat əldə edir (I yer 6000 AZN, II yer 3000 AZN və III yer 1000 AZN).

# ADDA ilə qazaxıstanlı tərəfdaşlar arasında yeni memorandum imzalanıb



**Azərbaycan Dövlət Dəniz Akademiyasının beynəlxalq əlaqələri ildən-ilə genişlənir. ADDA-nın bu istiqamətdə ən yaxın tərəfdaşlarından biri Qazaxıstanın Ş.Yesenov adına Xəzər Dövlət Texnologiya və Mühəndislik Universitetidir. Akademiya bu universitetlə 2011-ci ildə bağlanmış müqaviləyə əsasən "İkili diplom təhsili" beynəlxalq proqramı çərçivəsində Qazaxıstan üçün bakalavr və magistr dərəcələri üzrə 40-a yaxın mütəxəssis hazırlayıb.**

Qarşılıqlı faydalı əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə 21-23 noyabr tarixlərində ADDA-nın rektoru Çingiz Əliyev, tədris və tərbiyə işləri üzrə prorektoru Zahid Şərifov və Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının nümayəndəsi Vüsal Mustafayevdən ibarət nümayəndə heyəti Aktauda işgüzar səfərdə olub.

Səfər zamanı Xəzər Dövlət Texnologiya və Mühəndislik Universitetinin rektoru Berik Axmetov ilə "İkili diplom təhsili" beynəlxalq proqramının davam etdirilməsinə dair danışıqlar aparılıb. Müzakirələrin nəticəsi olaraq bu proqramın davam etdirilməsi məqsədilə qarşılıqlı razılaşmaya əlavə kimi yeni memorandum imzalanıb. Memoranduma əsasən, tələbə və professor-müəllim mobilliyi, birgə elmi-tədqiqatların aparılması, əldə olunmuş nəticələrin beynəlxalq konfranslarda müzakirəsi, elmi məcmuələrdə birgə dərc edilməsi də qərara alınıb.

Azərbaycan nümayəndələri universitetin maddi-texniki bazası ilə yaxından tanış olublar, ADDA-nın nəzdində olan Təlim-tədris mərkəzində Qazaxıstan dənizçiləri üçün kursların təşkili məsələsini də müzakirə ediblər.

Universitetin professor-müəllim və tələbə heyəti ilə görüşdə ADDA-nın rektoru Ç.Əliyev geniş məruzə ilə çıxış edərək suallara cavab verib. Sonra 2016-2017-ci tədris ilində Akademiyanı bitirmiş qazaxıstanlı tələbələrə təntənəli şəraitdə ADDA-nın diplomları təqdim olunub. Qazaxıstanlı məzunlar təhsil illərində göstərilən qayğıya və yüksək səviyyəli tədrisə görə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyinə, Dəniz Akademiyasının professor-müəllim heyətinə dərin təşəkkürlərini bildiriblər.

***İnformasiya-resurs mərkəzi***



# ADNSU-da Tələbələrin 66-cı Elmi-texniki Konfransı




**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) görkəmli alim Ağa Axundovun 135 illiyinə həsr olunmuş Tələbələrin 66-cı Elmi-texniki konfransı keçirilib.**

Açılış mərasimində ADNSU-nun rektoru, professor Mustafa Babanlı, "Schneider Elektrik" şirkətinin Mərkəzi Asiya ölkələri üzrə nümayəndəsi Emrah Tekdemir, şirkətin Türkiyə, İran və Orta Asiya üzrə regional rəhbəri Bora Tuncer, Ağa Axundovun qardaşı qızı Nailə Axundova, universitetin professor-müəllim heyəti və tələbələr iştirak edib.

Tədbiri giriş sözü ilə açan ADNSU-nun rektoru, professor Mustafa Babanlı tələbələrin 66-cı Elmi-texniki konfransının əhəmiyyətini qeyd edib. Tələbələrin elmi potensialının üzə çıxarılması üçün bu cür konfranslarda iştirakın vacibliyini vurğulayan rektor M.Babanlı bəzi məruzələrin gələcəkdə genişləndirilib uğurlu startap layihəsinə çevrilə biləcəyini qeyd edib.

ADNSU-nun energetika fakültəsinin innovasiya və beynəlxalq əlaqələr üzrə dekan müavini Orxan Kərimzadə görkəmli alim, professor Ağa Axundovun həyat və fəaliyyəti haqqında təqdimatla çıxış edib. Ağa Axundovun Azərbaycanla yanaşı ölkə xaricində gördüyü işlər haqqında məlumat verən O.Kərimzadə həmçinin, görkəmli alimin ADNSU-nun energetika fakültəsinin yaradıcısı və ilk dekanı olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

"Schneider Elektrik" şirkətinin Mərkəzi Asiya ölkələri üzrə nümayəndəsi Emrah Tekdemir Elmi-texniki konfransa dəvət üçün rektor, professor Mustafa Babanlıya təşəkkür edib. Təmsil etdiyi qurum haqqında konfrans iştirakçılarına məlumat verən Emrah Tekdemir ADNSU ilə "Schneider Elektrik" arasında əlaqələrin hər iki tərəf üçün mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Geoloji-kəşfiyyat fakültəsinin dekanı, dosent Naməd Paşayev son dövrlər ADNSU-da elmi sahənin inkişafına xüsusi diqqət yetirildiyini, ciddi elmi-tədqiqatlarla məşğul olan tələbələrin yetişdiyini vurğulayıb.



Tədbirə qonaq qismində dəvət olunan Ağa Axundovun qardaşı qızı Nailə Axundova bu cür diqqətə görə ADNSU-nun rektoru, professor M.Babanlı başda olmaqla bütün universitet rəhbərliyinə təşəkkür edib. Ağa Axundov haqqında xatirələrini bölüşən N.Axundova onun peşəkar mühəndis, bacarıqlı energetik, həm də gözəl ailə başçısı olduğunu deyib.

Konfransda çıxış edən Tələbə Elmi Cəmiyyətləri Şurasının sədri, dosent Yunis Qəhrəmanlı konfransın ayrı-ayrı bölmələrində keçiriləcək iclaslar və çıxışlar haqqında məlumat verib. Ümumilikdə 9 bölmədə 336 nəfərin çıxışının gözlənildiyini bildirən dosent Y.Qəhrəmanlı bütün iştirakçılara uğurlar arzulayıb.

Daha sonra konfrans müxtəlif bölmələrdə öz işini davam etdirib.

# ADNSU-da İndoneziyanın Azərbaycandakı səfiri ilə görüş keçirilib

**Dekabrın 6-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) İndoneziyanın ölkəmizdəki səfiri Husnan Bey Fananie ilə görüş keçirilib.**




Səfir əvvəlcə universitetin rektoru professor, Mustafa Babanlı ilə görüşüb. İndoneziya və Azərbaycan arasındakı dostluq münasibətlərinin müzakirə olunduğu görüşdə ADNSU ilə əlaqələrin inkişaf etdirilməsi və İndoneziya universitetləri ilə müxtəlif istiqamətlərdə birgə əməkdaşlıq haqqında söhbət aparılıb.



İndoneziyalı gənclərin ADNSU-da təhsilə maraq göstərdiyini deyən Husnan Bey Fananie ölkəsindəki ali təhsil ocaqları ilə əməkdaşlıq əlaqələrinin inkişafı üçün əlindən gələni edəcəyini qeyd edib.

Qonağı universitetdə görməkdən məmnun olduğunu deyən rektor, professor M.Babanlı İndoneziya ilə əlaqələrin hər zaman prioritet istiqamətlərdən biri olduğunu bildirib. Rektor, professor M.Babanlı təhsil, texnologiya və araşdırmalar mövzusunda əməkdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Daha sonra səfir ADNSU tələbələri ilə görüşüb. İndoneziya haqqında təqdimatla çıxış edən Husnan Bey Fananie Azərbaycanın dünyanın ən gözəl və zəngin ölkələrindən biri olduğunu deyib. Səfir olduğu gündən Azərbaycanı ikinci vətəni hesab etdiyini vurğulayan Husnan Bey Fananie Azərbaycan-İndoneziya münasibətlərindən danışıb. Diplomat İndoneziyanın Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini — ərazi bütövlüyünü birmənalı şəkildə müdafiə etdiyini vurğulayıb.

Daha sonra səfir ölkəsi haqqında məlumatları tələbələrin diqqətinə çatdırıb, müxtəlif istiqamətləri əks etdirən video-təqdimatlar nümayiş olunub.

# Azərbaycan Dövlət Pedaqoji Universitetində TÜRKSOY-un kafedrası açılıb

**Dekabrın 7-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) kafedrasının açılış mərasimi keçirilib.**



ADPU-dan AZƏRTAC-a bildirilib ki, rektor Cəfər Cəfərov rəhbərlik etdiyi ali təhsil müəssisəsində türk dünyasının həmrəyliyi, birliyi, eləcə də türk ədəbiyyatının, tarixinin, mədəniyyətinin elmi tədqiqi və təbliği istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdırıb. Rektor bildirib ki, ADPU Türkiyənin bir çox universitetləri ilə elm və təhsil sahəsində uğurlu əməkdaşlıq edir. Universitetdə TÜRKSOY-un kafedrasının açılması da bu istiqamətdə atılan vacib addımlardan biridir. Bu kafedra ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Azərbaycan Dövlət Pedaqoji Universitetində yaradılıb. O, TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirib və bu təşkilat ilə ADPU arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənəcəyini vurğulayıb.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının baş katibi, professor Düsen Kaseinov TÜRKSOY-un kafedrasının yaradılmasından və ADPU-nun türk dünyasına dəyərli töhfələr verməsindən məmnun qaldığını bildirib.

Tədbirdə TÜRKSOY-un fəaliyyətini əks etdirən film nümayiş olunub.

Sonra ADPU ilə TÜRKSOY arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlıq protokolu imzalanıb. Protokolda ADPU ilə TÜRKSOY, eləcə də bu quruma üzv olan ölkələr arasında elmi-mədəni mübadiləni təmin etmək, türk mədəniyyəti ilə bağlı elmi araşdırmalar aparmaq, təhsil sahəsində ortaq layihələr hazırlamaq və qarşılıqlı əməkdaşlıq öz əksini tapıb.

Mərasimdə ADPU-nun filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilova, "Türk araşdırmaları" elmi-tədqiqat laboratoriyasının müdiri, professor Elman Quliyevə, ədəbiyyat və onun tədrisi metodikası kafedrasının professoru Yaqub Babayevə, Azərbaycan və dünya ədəbiyyatı kafedrasının professoru Mahmud Allahmanlıya Molla Pənah Vaqifin 300 illik yubileyi münasibətilə TÜRKSOY tərəfindən təsis edilmiş medallar təqdim olunub.





# Ümummilli lider Heydər Əliyev mədəniyyət və incəsənət sahəsinin inkişafı istiqamətində böyük işlər görüb

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunan "Zirvədən zirvəyə və əbədiyyətə" mövzusunda elmi seminar keçirilib.**

ADMİU-dan AZƏRTAC-a bildiriblər ki, əvvəlcə tədbir iştirakçıları ulu öndərin universitetdəki büstü önünə əklil qoyublar.

Heydər Əliyev Mədəniyyət və İncəsənət Məktəbində təşkil edilən tədbirdə ADMİU-nun rektoru, professor Fərəh Əliyeva ümummilli liderin zəngin irsindən, mədəniyyət və incəsənət sahəsinin inkişafındakı mühüm xidmətlərindən danışıb. Bildirilib ki, ulu öndər Heydər Əliyev üçün mədəniyyət və incəsənət iqtisadiyyat və siyasət qədər ölkəni tanıdan, xalqı bütövləşdirən amillərdən biri olub.

Tədbirdə Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və elmi araşdırmalar departamentinin direktoru Məhəbbət Mehdiyeva ölkəmizdə bütün sahələrin inkişafında, uğurların arxasında ulu öndərin olduğunu qeyd edib, görkəmli dövlət xadiminin uzaqgörən siyasətindən söz açıb.

Seminarda professorlar Aqşin Babayev, Oqtay Mirqasımov, Zamiq Əliyev ümummilli liderlə bağlı xatirələrini bölüşüblər.

# Lənkəran Dövlət Humanitar Kollecinin müəllim və tələbələri anım mərasimində iştirak ediblər

**Dekabrın 12-də Azərbaycan xalqının böyük oğlu, görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar Lənkəran Dövlət Humanitar Kollecinin əməkdaş və tələbələri ümumrayon anım mərasimində iştirak ediblər.**

Kollecin direktoru dosent Ruslan Həmidov başda olmaqla müəllim və tələbələr Heydər Əliyev Xatirə Parkında ulu öndərin əzəmətli abidəsini ziyarət edərək önünə təzə tər gül dəstələri düzdülər. Azərbaycanın çağdaş dövrünün yeni intibah mərhələsinin banisi sayılan Heydər Əliyev şəxsiyyəti tükənməz və öyrənildikcə öyrənilməsi bir dünyadı, ümmandı. Heydər Əliyev Azərbaycanın söykəndiyi dağdı. O dağınsa zirvəsi çox ucadır, ucadan da uca. Bu da danılmaz həqiqətdir ki, həmin uca zirvədən boylanan Günəşin – Heydər Əliyev dühasının tükənməz nuru Azərbaycanın müstəqilliyinin əbədiliyinə, millətimizin işıqlı sabahlarına daim işıq saçacaq. Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.Müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirik.

**Sarsıldı xalqlar, sarsıldı millət,**
**Ürəklər alışdı, ürəklər yandı,**
**Heydərtək, ölməz, dahi şəxsiyyət,**
**Əbədi olaraq, tarixdə qaldı.**

**Cəmil QULİYEV,**
**kollecin müəllimi**



# 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə DÖVLƏT PROQRAMI

**Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

**1. Giriş**

2006-cı il dekabrın 13-də Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu təşviq edir.

İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir.

"Əlillərin hüquqları haqqında" Konvensiyanın 24-cü maddəsinə əsasən, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin təhsil hüququnu tanıyırlar. Ayrı-seçkiliyə yol vermədən bu hüququn həyata keçirilməsi üçün iştirakçı dövlətlər bütün pillələrdə inklüziv təhsil sistemini və əlilliyi olan şəxslərin fasiləsiz təhsil almaq imkanını təmin etməlidirlər. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin əlillik əlamətinə görə təhsildən kənarlaşdırılmamasını, onların digər insanlarla eyni əsaslarla inklüziv, keyfiyyətli və pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin etməlidirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə görə sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.

Vətəndaşların Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş təhsil hüquqlarını təmin etmək məqsədi ilə "Təhsil haqqında" və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Eyni zamanda, "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda sağlamlıq imkanları məhdud şəxslərin təhsili və peşə hazırlığı ilə bağlı məsələlər öz əksini tapmışdır.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda xüsusi təhsil, evdə təhsil və inteqrasiyalı təhsilin təşkil olunması ilə bağlı normaların nəzərdə tutulmasına baxmayaraq, inklüziv təhsilə dair müddəalar yer almamışdır.





Qeyd olunan Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarının təmin etmək üçün "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları" təsdiq olunmuşdur. Həmin qaydalara əsasən, inteqrasiyalı təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində xüsusi təhsil proqramları ilə xüsusi siniflərdə təhsilinin təşkili ilə bağlı məsələləri əhatə edir.

Hazırda sağlamlıq imkanları məhdud uşaqlar əsasən xüsusi məktəblərdə və xüsusi internat məktəblərində və ya evdə təhsilə cəlb olunmuşdurlar. Digər tərəfdən, sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulan mövcud təhsil təminatından istifadə imkanları bütün ölkəni əhatə etmir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" çərçivəsində aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, dövlət uşaq müəssisələrində yaşayan uşaqların 37,7 faizi xüsusi təhsilə olan ehtiyacları üzündən xüsusi internat məktəblərinə yerləşdirilmişdirlər. Regionlarda gözdən əlil və ya kar, sonradan karlaşmış, zəifeşidən uşaqlar üçün xüsusi təhsilin təşkil edilməməsi səbəbindən onlar Bakı şəhərində fəaliyyət göstərən xüsusi internat məktəblərində təhsilə cəlb olunaraq orada yaşayırlar. Hal-hazırda ölkə ərazisində 65482 nəfər sağlamlıq imkanları məhdud uşaq vardır. Onlardan 9355 nəfəri evdə, 2558 nəfəri uşaq xüsusi məktəblərində, 2725 nəfəri isə xüsusi internat məktəblərində təhsilə cəlb olunmuşdurlar.

Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüş, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblər əsaslı təmir edilmiş və ya yenidən qurulmuş, həmin müəssisələr müasir tələblərə cavab verən inventar və avadanlıqlarla təchiz edilmişdir.

Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur.

Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılmışdır. Layihələrin icrası olaraq 15 ümumi təhsil müəssisəsində, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur. Layihələrin icrası dövründə inklüziv təhsilin hüquqi tənzimlənməsində boşluqların mövcudluğu inklüziv təhsilin Azərbaycan Respublikasında tətbiqində çətinliklər yaratmışdır.

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilmişdir. Nəticə etibarilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçmişdir. Bu mərhələdə xüsusi təhsil sahəsində köklü islahatların aparılması, əlilliyi olan uşaqların təhsilə cəlb olunması qaydalarının yenilənməsi, onların ümumi təhsil müəssisəsində inklüziv təhsilə cəlb edilməsi və inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi nəzərdə tutulmuşdur.

2015-2016-cı tədris ilindən əlilliyi olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmışdır. İnklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı tədbirlər



dörd eksperimental məktəbdə uğurla sınaqdan keçirilir.

Sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması qaydalarının, həmçinin qiymətləndirmə testlərinin olmaması səbəbindən psixoloji-tibbi-pedaqoji komissiyalar tərəfindən rəy verilməsi zamanı çətinliklər yaranır. Hazırda psixoloji-tibbi-pedaqoji komissiyaların fəaliyyətinin əsas istiqaməti uşaqların təhsil imkanlarının olub-olmaması ilə bağlı seçim etməkdir. Lakin uşaqların təhsil hüquqlarını təmin etmək üçün psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən onların təhsil ehtiyacları müfəssəl qiymətləndirilməli və hər bir uşaq üçün kompleks yanaşmanı təmin edən fərdi inkişaf planı hazırlanmalıdır. Bu səbəbdən də psixoloji-tibbi-pedaqoji komissiyaların fəaliyyətində dəyişikliklər edilməlidir.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın 1.4-cü bəndində sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) həyata keçirilməsi zəruridir.

**2. Dövlət Proqramının məqsədi**

Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pilləleri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

**3. Dövlət Proqramının əsas vəzifələri**

3.0. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

3.0.1. sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi;

3.0.2. təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi;

3.0.3. sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması;

3.0.4. inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması;

3.0.5. sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması.

**4. Gözlənilən nəticələr**

4.0. Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

4.0.1. təhsilin bütün pillələri üzrə təhsil müəssisələrinin infrastrukturunun sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması təmin ediləcəkdir;

4.0.2. informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud şəxslər üçün informasiya əldə etmək imkanları genişləndiriləcəkdir;

4.0.3. məktəbəqədər, ümumi və ilk peşə-ixtisas təhsili üzrə təhsil proqramlarında sağlamlıq imkanları məhdud şəxsləri təhsildən istifadə imkanları ilə digər şəxslərlə bərabər səviyyədə təmin edən dəyişikliklər ediləcəkdir;

4.0.4. inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazası yaradılacaqdır;

4.0.5. sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması imkanlarının qiymətləndirilməsində yeni qaydalar tətbiq olunacaqdır;

4.0.6. sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları barədə əhalinin məlumatlılıq səviyyəsi artacaqdır.

**5. Dövlət Proqramının əsas maliyyələşdirilmə mənbələri**

Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı tələb olunan xərclər Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və aidiyyəti dövlət qurumları üçün nəzərdə tutulmuş vəsaitlər, habelə digər qanuni mənbələr hesabına maliyyələşdirilir.

**6. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI**

| Sıra №-si | Tədbirlər | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| **6.1** | **Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | |
| 6.1.1. | Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması üçün inkişaf xüsusiyyətlərinin qiymətləndirilməsi meyarlarının, vasitələrin və metodların hazırlanması | 2018 | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 6.1.2. | Təhsil müəssisələrində inklüziv təhsilin tətbiqi məqsədi ilə “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının Qanununda, təhsil müəssisələrinin nümunəvi nizamnamələrində, ştatlarında dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlanması | 2018–2019 | Təhsil Nazirliyi |
| 6.1.3. | Psixoloji-tibbi-pedaqoji komissiyanın yeni əsasnaməsinin hazırlanması | 2018 | Təhsil Nazirliyi |
| **6.2.** | **İnklüziv təhsilin məzmunu və təlim texnologiyalarının tətbiqi** | | |
| 6.2.1. | Bütün təhsil pillələri və əlavə təhsil üzrə standartlarda müvafiq dəyişikliklər edilməsi | mütəmadi | Təhsil Nazirliyi |
| **6.3.** | **İnklüziv təhsilin təşkili ilə bağlı maddi-texniki bazanın möhkəmləndirilməsi** | | |

| | | | |
|---|---|---|---|
| 6.3.1. | Sağlamlıq imkanları məhdud şəxslər üçün təhsil müəssisələrində onların maneəsiz hərəkətini təmin etmək üçün pandusların, xüsusi liftlərin quraşdırılması, təhsil müəssisələrinin məlumatın vizual, səs və daktil formada alınmasını təmin edən vasitələrlə, nəqliyyat vasitələri, reabilitasiya avadanlıqları ilə və digər yardımçı vəsait və texnologiyalarla, didaktik materiallarla təchiz edilməsi | 2018-2024 | Təhsil Nazirliyi |
| 6.3.2. | Dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində sağlamlıq imkanları məhdud şəxslərə uyğunlaşdırılmış öyrədici materialların, valideynlər və müəllimlər üçün metodiki vəsaitlərin hazırlanması və nəşr edilməsi | mütəmadi | Təhsil Nazirliyi |
| 6.3.3. | İnklüziv təhsildə beynəlxalq təcrübədə istifadə olunan öyrədici elektron proqramların tətbiq edilməsi | mütəmadi | Təhsil Nazirliyi |
| **6.4.** | **İnklüziv təhsilin təşkil edilməsi ilə bağlı kadr hazırlığı** | | |
| 6.4.1. | Pedaqoji kadrların hazırlanması və əlavə təhsili üzrə tədris proqramlarına xüsusi təhsil üzrə yeni modulların daxil edilməsi | 2018–2019 | Təhsil Nazirliyi |
| **6.5.** | **Təşkilati tədbirlər** | | |
| 6.5.1. | Təhsil müəssisələrində təlim prosesinin inklüziv təhsilin tələblərinə uyğun olaraq qurulması | mütəmadi | Təhsil Nazirliyi |
| 6.5.2. | Sağlamlıq imkanları məhdud şəxslərin peşə və əmək vərdişlərinə yiyələnməsi üçün müxtəlif peşələr üzrə xüsusi məktəblərdə, inteqrasiyalı və xüsusi internat məktəblərində, ilk peşə-ixtisas | 2020–2024 | Təhsil Nazirliyi |

| | | | |
|---|---|---|---|
| | təhsili müəssisələrində tədris emalatxanalarının yaradılması | | |
| 6.5.3. | Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) məqsədi ilə keçirilən buraxılış və monitorinq imtahanlarında, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarında sağlamlıq imkanları məhdud şəxslərin iştirakının təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi | 2018–2023 | Dövlət İmtahan Mərkəzi, Təhsil Nazirliyi |
| **6.6.** | **Monitorinqin aparılması ilə bağlı tədbirlər** | | |
| 6.6.1. | Təhsil müəssisələrində inklüziv təhsilin keyfiyyət meyarlarının və monitorinq mexanizminin hazırlanması və tətbiq edilməsi | 2018 | Təhsil Nazirliyi |
| 6.6.2. | İnklüziv təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması | 2018–2020 | Təhsil Nazirliyi |
| **6.7.** | **Maarifləndirmə** | | |
| 6.7.1. | Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması ilə bağlı əhali arasında məlumatlandırma işinin təşkil edilməsi | 2018–2021 | Təhsil Nazirliyi |
| 6.7.2. | Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyası ilə bağlı sosial çarxların hazırlanması, kütləvi informasiya vasitələrində nümayişinin təşkil edilməsi | 2018–2021 | Təhsil Nazirliyi |



# 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür




**İldən-ilə geniş vüsət alaraq dünyanın bir çox ölkəsində soydaşlarımız tərəfindən qeyd olunan 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü Azərbaycan xalqının milli təqvimində xüsusi yer tutur. Dünya azərbaycanlılarının həmrəyliyi ideyası ölkəmizdə dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi soydaşlarımızın kompakt yaşadıqları ölkələrdə onların təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsində mühüm amildir.**

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda ulu öndərin böyük iftixarla söylədiyi “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra ümummilli lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib. Dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olan ulu öndərimiz xarici dövlətlərə səfərləri zamanı proqramının zənginliyinə, iş gününün gərginliyinə baxmayaraq həmin ölkələrdə yaşayan, fəaliyyət göstərən həmvətənlərimizlə görüşlərə də mütləq vaxt ayırır, onların problem və qayğıları ilə yaxından maraqlanır, daha sıx təşkilatlanmaları üçün dəyərli tövsiyələr verirdi.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev ulu öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının “Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında” 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın





16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olmuş, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynamışdır.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilmiş, Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir. Dünya Azərbaycanlılarının I qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda "Dünya Azərbaycanlılarının Xartiyası"nın qəbulu birlik və mütəşəkkilliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqləyib.

Həmrəylik günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirir, Azərbaycanın, xalqımızın tarixini yazır və nəsillərdən-nəsillərə ötürürlər.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü mübarək olsun!

**"Təhsil"**

# Birlik və həmrəyliyimiz

**31 dekabr - Azərbaycan xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.**

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya Azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Sonra bu təşəbbüs mərkəzi hakimiyyətin də dəstəyini qazandı və artıq bütün Azərbaycanlılar rəsmən bu günü bayram kimi qeyd edir.Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram dünyanın 80-dan çox ölkəsində yaşayan 60 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. İndi həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər. Mən də öz növbəmdə, təhsil işçisi olaraq bütün təhsil işçilərini həmrəylik günü münasibətilə təbrik edir, gələcək işlərində müvəffəqiyyətlər arzulayıram.

**Cəmil QULİYEV,**
**Lənkəran Dövlət Humanitar Kollecinin müəllimi, tarix üzrə fəlsəfə doktoru**



# Pedaqoji mühazirələrin dinlənilməsinə start verilib

**“Ümumi təhsildə keyfiyyət ili” çərçivəsində təşkil edilən pedaqoji mühazirələrin dinlənilməsinə start verilib.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdindəki Təlimə Dəstək Mərkəzinə paytaxtın 12 inzibati rayonu üzrə 1000-dən artıq pedaqoji mühazirə təqdim olunub.

Ümumi təhsil məktəblərinin pedaqoji heyətinin ən çox müraciət etdikləri mövzular “Müəllim-şagird münasibətlərinin pedaqoji əməkdaşlıq əsasında qurulması”, “Fənnin tədrisində müasir təlim texnologiyalarının tətbiqi”, “İbtidai təhsil səviyyəsində şagird nailiyyətlərinin inkişafına məktəbəhazırlıq təhsilinin təsiri”, “İstedadlı şagirdlərlə işin təşkili formaları”dır.

Pedaqoji mühazirələr dinlənildikdən sonra mövzunun uyğunluğu və aktuallığı, təcrübi əhəmiyyəti, orijinallığı baxımından uyğun gələnlər seçilərək şəhər (rayon) mərhələsi üzrə Təşkilat Komitəsinə təqdim ediləcək.

Pedaqoji mühazirələrin şəhər (rayon) mərhələsində ən yaxşı məruzələr müəyyənləşdirilərək innovativ xarakterə, səmərəli təcrübəyə əsaslananları ölkə üzrə seçimlərə təqdim olunacaq.

Pedaqoji mühazirələrin ölkə mərhələsinin qalibləri müvafiq qaydada mükafatlandırılacaqlar.

Qeyd edək ki, 2017-2018-ci dərs ilində təşkil olunan pedaqoji mühazirələrin əsas məqsədi ümumi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqəti artırmaq, yaradıcı müəllim və məktəb rəhbərlərini aşkara çıxarmaq, qabaqcıl təcrübə nümunələrini təbliğ etmək və perspektiv üçün inkişafyönlü təkliflər hazırlamaqdan ibarətdir.

Pedaqoji mühazirələrin şəhər mərhələsinin 2018-ci ilin fevral-mart aylarında, ölkə mərhələsinin isə aprel-may aylarında keçirilməsi nəzərdə tutulur.

# Məktəblərarası yarış keçirilib

**“Hər vərəqi bir yarpağa dəyişək” layihəsi çərçivəsində məktəblərarası yarış keçirilib.**



Azərbaycan Respublikası Təhsil Nazirliyi, İDEA İctimai Birliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Azərbaycan Kağız və Karton İstehsalat Kombinatının birgə həyata keçirdiyi layihənin əsas məqsədi ekoloji maarifləndirməyə diqqət çəkmək, kağız israfını azaltmaq, təkrar emalı təşviq etmək yolu ilə ağacların qorunmasına, təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına nail olmaqdan ibarətdir.

Yarışın nəticəsinə əsasən, Bakı şəhəri 283 nömrəli tam orta məktəb 590 kq, 7 nömrəli tam orta məktəb 520 kq, 5 nömrəli tam orta məktəb isə 440 kq kağız tullantıları toplayıb. Bunun müqabilində məktəblərə A4 vərəq hədiyyə olunub.

Qalib gəlmiş 283 və 7 nömrəli məktəblərin şagirdlərinin Azərbaycan Kağız və Karton İstehsalat Kombinatına ekskursiyası nəzərdə tutulub. Ekskursiya zamanı şagirdlər Azərbaycan Kağız və Karton İstehsalat Kombinatında kağızın təkrar emalı prosesi ilə tanış olacaqlar.





# 815 şagird fənn müsabiqələrinin final mərhələsində

**Bakı şəhəri üzrə ümumi təhsil məktəblərinin VI və VII sinif şagirdləri arasında fənn müsabiqələrinin final mərhələsi keçirilib.**

Fizika, kimya, biologiya, riyaziyyat və informatika fənləri üzrə keçirilən fənn müsabiqələrinin final mərhələsinə Bakı şəhəri üzrə 815 şagird qatılıb. Onlardan 196 nəfəri riyaziyyat, 140 nəfəri kimya, 175 nəfəri fizika, 159 nəfəri biologiya, 145 nəfəri isə informatika fənni üzrə müsabiqədə iştirak edib. Müsabiqədə VI sinif şagirdləri riyaziyyat fənni, VII sinif şagirdləri digər fənlər üzrə biliklərini nümayiş etdiriblər.

Fənn müsabiqələrinin finalı fizika, riyaziyyat və informatika fənləri üzrə Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Respublika Liseyində, kimya və biologiya fənləri üzrə isə Kimya-Biologiya Təmayüllü Respublika Liseyində təşkil edilib.

Fənn müsabiqələrinin ilkin mərhələsində şagirdlərə fənlər üzrə müsabiqə tarixinədək keçdikləri məktəb proqramına uyğun tapşırıqlarla yanaşı, məntiqi təfəkkürü, analiz qabiliyyətini və qeyri-standart düşünməni tələb edən suallar təqdim edilib. 40 sualın cavablandırılması üçün şagirdlərə 2 saat yarım vaxt verilib.

Qeyd edək ki, fənn müsabiqələrinin keçirilməsində əsas məqsəd istedadlı uşaqların aşkar edilməsi, şagirdlər arasında sağlam rəqabət mühitinin yaradılması, aşağı sinif şagirdlərinin müxtəlif fənlərə olan marağının artırılması və onlarla məqsədyönlü işlərin aparılmasıdır.

# Növbəti intellektual qarşılaşma

**Paytaxt məktəblilərindən ibarət komandalar arasında növbəti intellektual yarışma təşkil edilib.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 144 və 283 nömrəli tam orta məktəb, 246 və 276 nömrəli məktəb-liseylərin komandaları "Hazırcavablar" intellektual oyununda yarışıb. Məktəblilər "Dil və ədəbiyyat", "Coğrafiya", "Biologiya", "İlk dəfə" və "İdman" bölmələri üzrə sualları cavablandırıb.

İntellektual oyunun nəticələrinə əsasən, 144 nömrəli tam orta məktəbin komandası qalib gəlib.

Qeyd edək ki, "Hazırcavablar" intellektual oyunu BŞTİ və AzTV-nin birgə layihəsidir. İntellektual oyun həftədə bir dəfə olmaqla, AzTV-də yayımlanır.

"Hazırcavablar" intellektual oyununda BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin şagirdlərindən ibarət komandalar iştirak edir.

Layihənin əsas məqsədi məktəblilərin intellektual səviyyəsini və dünyagörüşünü artırmaq, onları ictimaiyyətə tanıtmaq, həmçinin, şagirdlərin asudə vaxtını səmərəli təşkil etməkdən ibarətdir. Şagirdlərə özünüifadə vərdişləri aşılamaq, onların fənlərə marağını yüksəltmək, yaradıcı inkişafına təkan vermək və intellektual fəaliyyətə daha geniş miqyasda cəlb olunmasını təmin etmək də layihənin əsas hədəfidir.



# Müəllim və valideynlər qəbul edilib

**Dekabrın 8-də paytaxtda müəllim və valideynlərin səyyar qəbulu keçirilib.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və struktur bölmə əməkdaşlarının iştirak etdiyi səyyar qəbul vəzifə funksiyalarının tələb olunan səviyyədə yerinə yetirilməsi istiqamətində müəssisə rəhbərlərinin məsuliyyətinin artırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərdə daha sağlam və yaradıcı mühitin təmin olunması üçün sistemli iş aparmaq məqsədlərinə xidmət edir.

Bakıdakı 22 nömrəli tam orta məktəbdə paytaxtın Xəzər və Sabunçu rayonları üzrə keçirilmiş qəbula gələn vətəndaşlar məktəblərin maddi-texniki təminatı, şagird sıxlığı ilə əlaqədar əlavə korpusların tikilməsi, rəsm dərnəklərinin təşkili, direktor müavini vəzifəsinə işə qəbul və digər müvafiq məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar tərəfindən qaldırılmış bütün məsələlər qeydiyyata alınıb. Bir sıra müraciətlər yerindəcə həllini tapıb, digər məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin icrasına başlanılıb.

# Yubiley tədbirləri davam edir

**Paytaxt məktəblərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyi münasibətilə silsilə tədbirlər təşkil edilir.**




Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində M.P.Vaqifin həyat və yaradıcılığına dair konfrans, "dəyirmi masa", mühazirə, ədəbi-bədii gecə, bədii qiraət və rəsm müsabiqələri keçirilir.

Böyük Azərbaycan şairinin 300 illik yubileyi ilə bağlı tədbirlərin təşkil olunmasında əsas məqsəd Vaqif irsini daha dərindən araşdırıb öyrənmək, onun yaradıcılığındakı humanist dəyərləri, bənzərsiz poeziya nümunələrini meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermək, həmçinin, şagirdlərin ədəbiyyata marağını və dünyagörüşünü artırmaqdan ibarətdir.

Tədbirlərdə "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2017-ci il tarixli sərəncamı, şairin adının YUNESKO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi, M.P.Vaqifin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilir. Vaqif irsinin daha dərindən öyrənilməsinə ehtiyac olduğu diqqətə çatdırılır.

Tədbirlərdə M.P.Vaqifin həyat və yaradıcılığına dair videoçarxlar göstərilir. Şagirdlər şairə məxsus şeirlər söyləyir, ədəbi-bədii kompozisiya və səhnəciklər nümayiş etdirirlər.





# ADNSU tələbələri "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" haqda məlumatlandırılıblar

**Dekabrın 7-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" na dair tələbələr arasında növbəti məlumatlandırıcı tədbir keçirilib.**

ADNSU-nun tərbiyə işləri üzrə prorektoru, dosent Ata Babayev "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsinin və plandan irəli gələn tədbirlərin həyata keçirilməsinin ölkəmiz üçün əhəmiyyətini qeyd edib. Dosent A.Babayev Azərbaycanda açıq hökumət prinsiplərinin genişlənməsi və korrupsiyanın qarşısının alınması, eləcə də vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, korrupsiyaya qarşı mübarizədə davamlı həyata keçirilən strategiya nəticəsində ölkəmizin böyük uğurlar əldə etdiyini qeyd edib.

ADNSU-nun İctimaiyyətlə Əlaqələr və Marketinq Departamentinin direktoru Bəhruz Nəzərov "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələrlə bağlı ADNSU-da görülən işlər barədə məlumat verib. B.Nəzərov elektron universitetin yaradılması, ADNSU-nun facebook səhifəsinin təkmilləşdirilməsi, universitetin saytının yenilənməsi, universitetin mətbuat orqanı olan "Oil and İndustry" jurnalının nəşr edilməsi, İctimai Etimad Şurasının yaradılması və görülən digər işlər haqqında məruzə ilə çıxış edib.

Qeyd edək ki, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 27 aprel 2016-cı il tarixində təsdiqlənib. Plan 11 istiqamət üzrə qruplaşdırılmış 58 tədbiri əhatə edir.

# Lənkəran Dövlət Humanitar Kollecində Pedaqoji təcrübənin başlanması ilə bağlı konfrans keçirilib

**8 dekabr 2017-ci il tarixində Lənkəran Dövlət Humanitar Kollecinin akt zalında buraxılış kurs tələbələrinin təcrübələrinin başlanması münasibətilə konfrans keçirilib.**

Konfransı giriş nitqi ilə açan kollecin direktoru, dosent Ruslan Həmidov tədbir iştirakçılarını və dəvət olunmuş təcrübə keçiriləcək məktəb nümayəndələrini salamlayıb və bu işdə onlara uğurlar arzulayıb. Direktor təcrübələrin əhəmiyyəti, mütəxəssis hazırlığı prosesində zəruruliyi barədə məlumat verərək əvvəlki illərdə aparılan təcrübələrdə qazanılan uğurlar və müşahidə edilən nöqsanlar haqqında tələbə və metodistləri ətraflı məlumatlandırıb. Kollecin təcrübə rəhbəri Sevər Əhmədova bildirib ki, bu il kollecin "Təsviri incəsənət müəllimliyi", "Texnologiya müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi" ixtisasları üzrə təhsil alan 87 nəfər sonuncu kurs əyani şöbə tələbələri bu gündən başlayaraq 4 həftəlik müşahidə təcrübəsində iştirak edəcək. Bu təcrübələr Lənkəran şəhər 4 saylı humanitar təmayüllü məktəb-liseydə keçiriləcək. Konfransda təcrübəçi tələbələr, metodist və fənn müəllimlərini maraqlandıran suallarla bağlı geniş müzakirələr aparılıb, əvvəlki illərdə keçirilən təcrübələrdən fotoşəkillər və video kadrlar nümayiş edilib. Sonda direktor dosent Ruslan Həmidov təcrübələrin daha da səmərəli keçirilməsi üçün metodik tövsiyələr və əməli tapşırıqlar verərək konfransı bağlı elan edib.

**Cəmil QULİYEV,**
**kollecin müəllimi, tarix üzrə fəlsəfə doktoru**



# Azərbaycanlı məktəblilər Moskvada Beynəlxalq Rus Dili Olimpiadasının qalibi olublar

**Azərbaycanlı məktəblilər A.S.Puşkin adına Rusiya Dövlət Rus Dili İnstitutunun xarici ölkələrin məktəbliləri üçün keçirdiyi Beynəlxalq Rus Dili Olimpiadasının qalibi olublar.**

AZƏRTAC xəbər verir ki, Moskvada A.S.Puşkin adına Rusiya Dövlət Rus Dili İnstitutunda keçirilən XV Beynəlxalq Rus Dili Olimpiadasının finalında dünyanın 31 ölkəsindən 150 məktəbli iştirak edib. A.S.Puşkin adına Rusiya Dövlət Rus Dili İnstitutu bu Olimpiadanı 1972-ci ildən başlayaraq, artıq 45 ildir ki, təşkil edir. Olimpiada bir neçə mərhələdə keçirilir: seçim mərhələsi və yarımfinal "Rus dilində təhsil" portalında distant rejimdə, final isə Moskvada əyani şəkildə keçirilir. Bu il 44 ölkədən 2500-dən artıq məktəbli seçim turunun iştirakçısı olub. Onlar rus dili üzrə imtahan tapşırıqlarını şifahi və yazılı formada yerinə yetiriblər, ölkəşünaslıq üzrə layihələri müdafiə ediblər, "Yunıy orator" ("Gənc natiq") yaradıcılıq müsabiqəsində iştirak ediblər.



Final sınaqları nəticəsində Olimpiadanın 10 mütləq qalibi və əlavə nominasiyalarda mükafatçılar təyin edilib. Mütləq qaliblər Rusiya ali məktəblərində filologiya və linqvistika istiqamətlərində proqramlar üzrə Rusiya Federasiyasının büdcəsi hesabına təhsil almaq hüququ əldə edəcəklər.

Bakı şəhəri 160 nömrəli Klassik gimnaziyanın şagirdi Aydan Məmmədzadə Olimpiadanın mütləq qalibi olub. O, 1-ci dərəcəli diploma və "Yunıy orator" ("Gənc natiq") müsabiqəsinin qalibi adına layiq görülüb. Azərbaycanın digər təmsilçisi – Bakı Modern Təhsil Kompleksinin şagirdi Emin İsmayılov 3-cü dərəcəli diplom qazanıb.

Azərbaycanın Rusiyadakı səfirliyinin humanitar məsələlər üzrə müşaviri Vüqar İmaməliyev qalibləri səfir Polad Bülbüloğlunun adından təbrik edib, onlara təhsillərində müvəffəqiyyətlər arzulayıb. Diplomat olimpiadanın təşkilatçılarına da minnətdarlığını bildirib və Azərbaycanda rus dilinə qayğı ilə yanaşmadan danışıb. Rusiya Dövlət Rus Dili İnstitutunun rektoru M.N.Rusetskaya bu günlərdə Azərbaycan Dillər Universitetinin (ADU) bazasında ölkədə ilk dəfə olaraq Rusiyaşünaslıq Mərkəzinin açılmasından danışıb. O, həmçinin ADU ilə Rusiya Dövlət Rus Dili İnstitutu arasında əməkdaşlıq haqqında müqavilənin imzalandığını da bildirib. Rektorun sözlərinə görə, gələcəkdə Rusiyanın bu ali məktəbində Azərbaycan dili və mədəniyyəti mərkəzi açılacaq.

Olimpiadanın finalı çərçivəsində məktəblilər Moskvanı gəzib, V.İ.Vernadski adına Geologiya muzeyi və Planetariya ilə tanış olublar.

# Məktəbdə "açıq dərs"

**"TOPs proqramı – fiziki tərbiyə üzrə müasir təhsil texnologiyasının yaradılması" layihəsinin dördüncü mövsümündə Bakıdakı 220 nömrəli inklüziv məktəbdə üçüncü sinif şagirdləri üçün "açıq dərs" keçirilib.**




"Açıq dərs" "TOPs" metodikasının inklüziv sinifdə tətbiq olunması, eyni zamanda, bu təcrübənin digər məktəblərdən olan fiziki tərbiyə müəllimlərinə nümayiş etdirmək məqsədi daşıyıb.

Layihənin rəhbəri Vəli Musayev bildirib ki, dördüncü ildir həyata keçirilən proqram əvvəlcə pilot layihə kimi üç məktəbi əhatə edib. Hazırda məktəblərin sayı 150-yə çatıb. Layihə çərçivəsində ümumtəhsil məktəblərində fiziki tərbiyə fənninin tədris metodikası təkmilləşdirilir və ölkənin bütün təhsil ocaqlarında tətbiq oluna biləcək fəal təlim metodu hazırlanır. İnklüziv məktəblərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar da bu proqrama qoşularaq fəal idmanla məşğul olmaq, həmyaşıdları ilə birgə yarışmaq imkanı qazanırlar.

"Açıq dərs"də müxtəlif məktəblərin fiziki tərbiyə müəllimləri, valideynlər, Azərbaycanda səfərdə olan "British Council" təşkilatının təhsil və cəmiyyət məsələləri üzrə regional direktoru Riçard Everit iştirak ediblər.

Qeyd edək ki, "TOPs" layihəsi Təhsil Nazirliyi, "British Council", Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası və "İnkişaf Naminə İdman" İctimai Birliyinin birgə əməkdaşlığı ilə həyata keçirilir.

# "Xalq mahnılarımızı yaşadaq" müsabiqəsinin qalibləri müəyyənləşib

**Paytaxt məktəbliləri arasında təşkil edilən "Xalq mahnılarımızı yaşadaq" müsabiqəsinin final mərhələsi keçirilib.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) AZƏRTAC-a bildiriblər ki, bu qurumun tabeliyindəki 211 nömrəli tam orta məktəbdə təşkil olunan tədbirdə "Məktəblinin dostu" layihəsinin rəhbəri Rüstəm Ağayev, "ASAN xidmət"in İnsan resursları və təlim şöbəsi müdirinin müavini Cahangir Hacıyev, xalq artistləri Canəli Əkbərov, Mələkxanım Əyyubova, Simarə İmanova, məktəb kollektivi və valideynlər iştirak ediblər.

Münsiflər heyətinin rəyinə əsasən, BŞTİ-nin tabeliyindəki 63 və 284 nömrəli tam orta məktəblərin şagirdləri birinci, ikinci, 20 nömrəli məktəb-liseyin şagirdi isə üçüncü yerə layiq görülüblər. Qaliblərə diplomlar təqdim edilib.

"Məktəblinin dostu" layihəsi çərçivəsində "Xalq mahnılarımızı yaşadaq" müsabiqəsinin keçirilməsinin əsas məqsədi şagirdlər arasında milli musiqi dəyərlərimizi təbliğ etmək və onların istedadını üzə çıxarmaqdır.

Müsabiqənin final mərhələsinə "Məktəblinin dostu" layihəsinin əhatə etdiyi ümumi təhsil məktəblərində təşkil olunan seçimlərdə uğurlu nəticə göstərən 31 şagird qatılıb. Məktəblilər xalq və bəstəkar mahnılarını ifa ediblər.



# Rayon uşaq-gənclər inkişaf mərkəzlərinin direktorlarının iştirakı ilə «dəyirmi masa»

**Azərbaycan Respublikasında davamlı inkişaf şəraitində ekoloji təhsilin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə əməkdaşlığı şəraitində Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi tərəfindən Bakı Biznes Mərkəzində "Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" mövzusunda məktəblilərin II Respublika müsabiqəsinin yekun tədbiri keçirilib.**





Bu tədbir çərçivəsində RUGİM-in rəhbərlik heyətinin və respublikada fəaliyyət göstərən rayon Uşaq-Gənclər İnkişaf Mərkəzlərinin direktorlarının iştirakı ilə «dəyirmi masa» keçirilmişdir.

«Dəyirmi masa»da ekologiya, kənd təsərrüfatı, mədəniyyət və turizm sahələrində mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə edilib.

Müzakirə olunmuş məsələlərin və gələcək fəaliyyət istiqamətlərinin öz əksini tapdığı "Yaşıl Şəbəkə" programı çərçivəsində bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulub.

Rayon Uşaq-Gənclər İnkişaf Mərkəzlərinin direktorları 2018-ci birgə əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduqlarını və bunun üçün öz səylərini əsirgəlməyəcəklərini vurğulayıblar.

«Dəyirmi masa»da respublikanın 55 rayonunun Uşaq-Gənclər İnkişaf Mərkəzlərinin direktorları iştirak etmişdir.

**Firuzə SULTAN-ZADƏ,**
**Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru**



**24 noyabr 2017-ci il tarixində Ağsu şəhər bir nömrəli tam orta məktəbdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə I qrant müsabiqəsi"ndə qalib gəlmiş "Bizə qoşul və xilas et!" layihəsi çərçivəsində təlim keçirilib.**

# "Bizə qoşul və xilas et!" layihəsi davam edir



Tədbirdə şəhər 1 nömrəli məktəb-liseyin müəllim kollektivi və şagirdləri iştirak ediblər.

Təlimi giriş nitqi ilə açan layihə rəhbəri, Ağsu rayon Kəndoba kənd tam orta məktəbinin biologiya müəllimi Ziba Məmmədova icra edilən layihənin məqsədini açıqlayaraq bildirib ki, Ağsu rayonunda fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin bir-biri ilə əməkdaşlığına nail olmaq və bu əməkdaşlıq sayəsində erkən evliliyin bioloji fəsadlarını öyrənmək, müzakirə etmək, problemi diqqət mərkəzində saxlayaraq onunla mübarizə yollarının məktəblilərə öyrədilməsinə nail olmaqdır. "Bu məqsədlə biz Ağsu rayonunun ən qabaqcıl müəllimlərini bir araya toplayaraq, "Erkən evliliyin bioloji fəsadları" mövzusunda seminar təşkil etdik. Bununla yanaşı, məktəblərdə sözügedən mövzuda dərslər keçirilir. Layihə çərçivəsində rayonun 4 ümumtəhsil məktəbinin şagirdləri üçün erkən evliliklərin bioloji fəsadları ilə bağlı maarifləndirmə işləri aparılır".



Təlimçi Elnarə Qasımova erkən evlilik probleminin həllinin insanların maarifləndirilməsindən asılı olduğunu vurğulayıb, maarifləndirici slaydları məktəblilərə təqdim edib.

Tədbirdə könüllü təlimçi - tibb işçisi Hədiyyə Hüseynova çıxış edərək, erkən nikahlar nəticəsində qanunsuz ailələr, boşanmalar, fiziki və mənəvi cəhətdən zəif olan uşaqlar, ən əsası ana və uşaq ölümləri kimi ortaya çıxan fəsadları diqqətə çatdırıb.

Daha sonra çıxış edənlər də şagirdlərə mövzu ilə bağlı ətraflı məlumatlar verərək, cəmiyyətdə mövcud olan müxtəlif problemlərin erkən nikahların sayının artmasına səbəb olduğu, bu sıradan savadsızlıq, məlumatsızlıq, bəsit düşüncə tərzi və maddi problemləri tədbir iştirakçıları ilə müzakirə ediblər. Sonda sözügedən mövzu ilə əlaqədar məktəbliləri maraqlandıran suallar cavablandırılıb, təlim iştirakçılarına mövzu ilə əlaqədar maarifləndirici bukletlər təqdim edilib.

Qeyd edək ki, layihənin icra müddəti 3 ayı əhatə edir. Sentyabr ayının 22-də başlayan layihə dekabrın 22-də yekunlaşdırılacaq. Layihə çərçivəsində dekabrın 1-də Ağsu şəhər 3 nömrəli tam orta məktəbdə şagirdlər üçün maarifləndirici seminarlar keçirilib. Oktyabrın 20-də Ağsu rayon Heydər Əliyev Mərkəzində «Bizə qoşul və xilas et!» layihəsinin təqdimat mərasimi və məktəbliləri maarifləndirəcək könüllü müəllimlərin seçim turu keçirilib. Seçim turunda 20 nəfər müəllim iştirak edib. Həmin müəllimlər də öz dərs dedikləri orta məktəblərdə mövzu ilə əlaqədar kiçik seminarlar keçirirlər. Ümumilikdə isə layihədə 300-ə qədər məktəblinin iştirakı, bukletlər vasitəsi ilə 1500 məktəblinin maarifləndirilməsi nəzərdə tutulub.

**Elnarə GÜNƏŞ**

# Təbiət elminin patriarxı



Azərbaycanın görkəmli təbiətşünas alimi akademik Həsən Əlirza oğlu Əliyev 15 dekabr 1907-ci ildə Zəngəzur qəzasının Comərdli kəndində anadan olmuşdur. Naxçıvan şəhərində orta məktəbi bitirdikdən sonra AKTİ- də təhsil almışdır. 1941-1943-cü illərdə Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur. 1944-cü ildə kənd təsərrüfatı elmlər namizədi və 1965-ci ildə kənd təsərrüfatı elmlər doktoru alimlik dərəcəsi almışdır. Görkəmli alim 1952-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. O, bir çox məsul vəzifələrdə çalışmış, Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini (1944-1949) eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim (1945-1949), Azərbaycan SSR Elmlər Akademiyası Botanika İnstitutunun direktoru (1949-1952), Azərbaycan SSR kənd təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi (1952), Azərbaycan SSR Elmlər Akademiyasının akademik-katibi (1952-1957), Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunda laboratoriya müdiri (1957-1967), Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru (1968-1993) vəzifələrində işləmiş və Azərbaycan elminin tərəqqisi üçün əlindən gələni əsirgəməmişdir. Azərbaycanın ekoloji vəziyyətinin yaxşılaşması üçün ömrünün sonuna kimi çalışan Həsən Əliyev 1993-cü il fevralın 2-də Bakı şəhərində dünyasını dəyişmiş, Fəxri xiyabanda dəfn edilmişdir.

Akademik Həsən Əliyev Azərbaycan təbiətinin gözəl mütəxəssisi idi. Azərbaycanda təbiəti qorumağın elmi əsaslarını işləyib hazırlamış, nadir təbiət abidələrini müəyyən etmiş, yeni qoruqların yaradılmasının zəruri olduğunu əsaslandırmışdır.

Böyük alim Həsən Əliyevin elmi yaradıcılığı çox zəngindir. Onun haqqında çoxlu kitablar yazılmış və filmlər çəkilmişdir. Alimin 60 illik elmi fəaliyyəti haqqında saatlarla, günlərlə danışmaq olar. Ancaq mən onun elmi fəaliyyətinin bir neçə məqamına toxunmaq istəyirəm.

Həsən Əliyev "Həyəcan təbili" kitabında yazırdı: "İnsanı təbiət yaratmış və öz sərvətlərini səxavətlə onun istifadəsinə vermişdir. 600 min ildən artıqdır ki, müasir insanla təbiət arasında münasibət müəyyən nisbətdə davam edir. Bəşəriyyət öz inkişafının yüksək pillələrinə ayaq qoyduqca bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. İnsanın sayı artdıqca və texniki vasitələrə daha mükəmməl yiyələndikcə təbiətə daha çox təsir edir, onu dəyişdirir, qırır, öz məqsədləri üçün daha geniş istifadə edir, əvəzində isə ona heç nə qaytarmır. Demək, insan təbiətə çox ciddi zərər vurur".

Cəmiyyətin sürətlə inkişaf etdiyi, böyük texniki qüvvəyə malik olduğu indiki dövrdə təbiətlə insan arasındakı münasibət pozulmuş və təhlükəli şəkil almışdır. Hətta son zamanlar təbiətin istismarı elə bir dərəcədə qüvvətlənmişdir ki, təbii sərvətlər daha tez tükənməyə başlamışdır. Alim təbii sərvətlərin mühafizəsini, onlardan səmərəli istifadə edilməsini, xüsusən canlı sərvətlərin qorunmasını ümummilli və beynəlxalq məsələ hesab edir.

Akademik Həsən Əliyev Kür-Araz ovalığında geniş tədqiqat işləri apararaq şoran və şorəkət torpaqların yaranma səbəblərini öyrənmiş və onların aradan qaldırılma yollarını göstərmişdir.

Alimi Azərbaycan meşələrinin qorunması, mühafizəsi problemi daim narahat etmiş və onu düşündürmüşdür. O, meşələri təbiətin böyük sərvəti, əvəzsiz xəzinəsi adlandırmışdır.

Akademik Həsən Əliyev Bərdə bölgəsində meşəçilik institutunda olmuş və burada çalışan işçilərə öz dəyərli məsləhətlərini vermişdir.

Kür sahili boyu uzanan Tuğay



meşələrini o belə qiymətləndirmişdir: "Tuğay meşələrini təbiət özü bizə bəxş etmişdir. Onun hərtərəfli əhəmiyyəti saysız –hesabsızdır. Bu təbii zolaq onu əhatə edən ərazinin iqlimini nizama salır, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının sabitliyinə və yüksəldilməsinə gözəl şərait yaradır. Bundan başqa, bu meşələr böyük torpaqqoruyucu və sahilbərkidici rola malik olub, həm də Kür çayının əvəzsiz bəzəyi kimi göz oxşayır. Ov heyvanları və quşlar üçün sığınacaq, insanlar üçün gözəl istirahət guşəsidir".

Respublikamızın düzənlik zonasında yerləşən Tuğay meşələrinin insan fəaliyyəti nəticəsində məhv olmaq təhlükəsi ilə üzləşdiyini və Tuğay meşələrinin belə bərbad hala düşməsini, orada ilboyu qanunsuz olaraq mal-qara otarılması, fermaların yerləşməsini göstərmişdir. "Əgər Kürqırağı meşələr bərpa edilərsə, bu ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsinə kömək deməkdir" fikirlərini söyləmişdir.

Akademik Həsən Əliyev həm də geniş ictimai fəaliyyətlə də məşğul olmuşdur. O, Azərbaycanda «Təbiəti Mühafizə Cəmiyyəti» yaratmış və uzun müddət ona rəhbərlik etmişdir. O, respublikamızı qarış-qarış gəzmiş, təbiəti müşahidə etmiş, flora və faunanı öyrənmiş, qeydlər apararaq təbiətin qorunması, zənginləşməsi problemini araşdıraraq və onun aradan qaldırılması yollarını kütləvi informasiya vasitələri ilə ictimaiyyətə çatdırmışdır.

Akademik Həsən Əliyevin qaldırdığı ekoloji problemlər, elmi fikirlər bu gün də çox aktualdır. Onun ekologiya elmi haqqında söylədiyi fikirləri istəyirəm sizin diqqətinizə çatdırım: «Ekologiya yaxın gələcəkdə bütün elmləri bir-biri ilə əlaqələndirərək nəhəng və möhtəşəm bir çinar ağacını xatırladan fundamental, planetar əhəmiyyətli və çox perspektivli elmə çevriləcəkdir. Ekologiyasız başqa elmlərin inkişafı qeyri-mümkündür».

Alimin başqa insanlardan fərqi ondadır ki, o, 50-100 il qabaqca baş verəcək prosesləri əvvəlcədən görə bilir. Bu yerdə Məhəmməd Peyğəmbərin bir kəlamı yadıma düşdü. O demişdir: "Alimlər dünyanın çırağı, axirətin nurudurlar". Akademik Həsən Əliyev məhz belə alimlərdəndir.

Böyük alim Həsən Əliyevin elmi irsinin öyrənilməsi və təbliği məqsədilə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin tələbə - gənclər təşkilatının nəzdində Həsən Əliyev adına "Yaşıl Dünya" klubu yaradılmışdır. Direktorluq və klubun üzvləri təşəbbüskarlıq göstərərək 2008-ci ildə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin həyətində yaşıllaşdırmada istifadə olunan 100 ədəd relikt ağac, Eldar şamı və çoxlu sayda bəzək kolları əkmişlər. Bundan başqa, klubumuz hər il «Beynəlxalq ekoloji bilik günü»nü qeyd edir, tədbirlər keçirir, 5 iyun – "Ümumdünya Ətraf Mühitin Mühafizəsi" günündə isə aksiyalar təşkil edir.

Əgər bu gün akademik Həsən Əliyevin elmi irsi öyrənilirsə, təbliğ olunursa, demək, o yaşayır və daim bizim qəlbimizdə yaşayacaqdır.

**Xosrov MUSAYEV,**
**Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin ekologiya fənn müəllimi, kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktoru**



# Azərbaycan alimi Rumıniya universitetinin fəxri professoru seçilib



**Azərbaycan Texniki Universitetinin professoru, texnika elmləri doktoru Şahnaz Şahbazova Rumıniyanın Arad şəhərindəki "Aurel Vlaicu" Universitetinin fəxri professoru adına layiq görülüb. Bu universitet tərəfindən hər il dünyanın müxtəlif ölkələrindən bir neçə alim fəxri professor adına layiq görülür.**

2017-ci ildə Arad Universitetinin bu ali mükafatına Azərbaycan Texniki Universitetinin professoru Ş.Şahbazova layiq görülüb. Tədbirdə Arad Universitetinin rektoru, yerli icra hakimiyyətinin nümayəndələri, Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin üçüncü katibi Vüqar Hüseynli və attaşesi Fərid Məmmədov, elmi şuranın üzvləri, müəllimlər və ziyalılar iştirak ediblər. Arad Universitetinin rektoru, professor Ramona Lile fəxri professor diplomunu Ş.Şahbazovaya təqdim edib. Azərbaycanlı alim ingilis dilində öz elmi fəaliyyəti barədə məlumat verib. O, tanınmış azərbaycanlı alim, professor Lütfi Zadədən danışıb, onunla birgə çalışdığını qürurla vurğulayıb. Bundan əlavə Ş.Şahbazova öz elmi istiqamətlərindən – qeyri-səlis çoxluqlar, genetik alqoritmlər, süni intellekt sistemləri və neyron şəbəkəsindən bəhs edib. Daha sonra Rumıniyanın Arad Universiteti ilə həm Azərbaycan Texniki Universiteti (AzTU), həm də Azərbaycan Mühəndislik Akademiyası arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

Professor Ş.Şahbazova Arad Universitetinin elektrik mühəndisliyi fakültəsində "Təlim materiallarına nəzarət modulunun funksiyası" mövzulu mühazirə ilə çıxış edib və Rumıniyanın Baş Mühəndislik Assosiasiyası və Arad Universitetinin mühəndislik fakültəsi tərəfindən "Təhsil və tədqiqatda parlaq və davamlı yüksək standart və dəyərli töhfələrinə görə" mükəmməllik sertifikatı ilə mükafatlandırılıb. Arad şəhərinə səfəri çərçivəsində professor Ş.Şahbazova Rumıniya İdarəetmə Mühəndisliyi və Texniki İnformasiya Cəmiyyətinin "Təhsil və tədqiqatda parlaq və davamlı yüksək standart və dəyərli töhfələrinə görə" mükəmməllik diplomu ilə də mükafatlandırılıb.

Azərbaycanlı alim, həmçinin "Agora Orada" Universitetində olub və bu ali məktəblə AzTU arasında anlaşma memorandumu imzalanıb. Professor Ş.Şahbazovaya "Agora Orada" Universitetinin "Kompüter rabitəsi və nəzarəti" beynəlxalq jurnalında dərc olunan, professor Lütfi Zadənin bioqrafiyası haqqında məlumatların tanınması və dəyərli əməkdaşlığına görə" mükəmməllik sertifikatı təqdim edilib.





# İxtirası ilə dünyanı heyrətləndirən Azərbaycan məktəblisi

**Akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərinin (“İstək” liseyi) 9-cu sinif şagirdi, 15 yaşlı məktəblimiz Reyhan Camalova ABŞ və Hindistanın birgə təşkilatçılığı ilə Hindistanda keçirilən “Qlobal Sahibkarlıq Sammiti 2017”-yə ixtirası ilə qatılaraq böyük uğura imza atıb. Öz adından söz etdirməyi bacaran gənc qız ixtirası ilə sammit iştirakçılarını heyrətləndirib...**

Reyhan Rauf qızı Camalova Quba şəhərində ziyalı ailəsində anadan olub. Uşaqlıqdan istedadı ilə fərqlənib. Reyhan 5 yaşından kiçik "ixtira"lar etməyə başlayıb. "Robotlar", kağızlardan xüsusi qurğular düzəldib. 2009-cu ildə Quba şəhərindəki A.Məmmədov adına 2 nömrəli təbiət-təmayüllü məktəb-liseyə qəbul olub.

2015-ci ildə “İstək” liseylərinə keçirilən qəbul imtahanında Quba-Xaçmaz iqtisadi rayonu üzrə ən yüksək nəticə göstərib. Əldə etdiyi nəticəyə görə 100% təqaüdlə (tamamilə ödənişsiz) “İstək” liseyində təhsil almaq hüququ qazanıb.

2017-ci ili onun üçün uğurlu hesab etmək olar. Belə ki, o, cari ilin fevral-mart aylarında “İstək” liseylərində “Social Innovation Lab”ın rəsmi təşkilatçılığı ilə keçirilən “ClimateLaunchpad” startap akselerator proqramının təqdimatında iştirak edib. Daha sonra Azərbaycanda ilk dəfə keçirilən “ClimateLaunchpad - startap yaşıl biznes” müsabiqəsinə öz “Rainergy” adlı layihəsi ilə qatılıb.

Layihə “ClimateLaunchpad startap” müsabiqəsinin Azərbaycan finalında “Tamaşaçıların ən sevimli startapı” adına layiq görülüb. Hindistanda keçirilən Qlobal Sahibkarlıq Sammitinə öz ixtirası ilə qatılan Reyhan Camalova özünün ən böyük uğuruna imza ataraq hamı tərəfindən alqışlarla qarşılanıb.

Yağış suyundan enerji istehsal edən 15 yaşlı ixtiraçı gəncin fikrincə, dünyada milyardlarla litr yağış suyundan düzgün istifadə olunsa, o zaman ondan potensial enerji kimi istifadə etmək olar. Bu problemi həll etmək üçün Reyhan öz şagird dostları və fizika müəllimləri ilə birlikdə yağış suyundan enerji istehsal edən Reynerci (Rainergy) qurğusunu yaradıb. Qurğu dörd əsas hissədən: yağış suyunun kollektoru, su çəni, elektrik generatoru və batareyadan ibarətdir. Yağış suyu kollektoru su çənini yağış suyu ilə doldurur, su isə elektrik generatorunun içi ilə böyük sürətlə axaraq elektrik enerjisi yaradır. İstehsal olunan enerji akkumulyatorlarda toplanır, elektrik şəbəkəsinin xətlərinə düşən təzyiqi azaldır və ehtiyacı olan icmalara elektrikdən istifadə etmək üçün əlavə mənbə verir. Reynercinin prototipi hazırda 22 led lampanı işıqlandırır ki, bu da təqribi 22 watt enerji deməkdir. Gənc ixtiraçı söyləyir ki, bu enerjini çoxaltmağın üzərində işləyirlər: “Bəzi ölkələrdə enerji həddindən artıq bahadır. Bunun üzərində işləyib enerjini çoxaltdıqdan sonra çox az pul xərcləməklə enerji ala biləcəyik”.

ABŞ prezidenti Donald Trampın baş müşaviri və prezidentin Hindistanda keçirilən Qlobal Sahibkarlıq Sammitindəki nümayəndəsi İvanka Tramp Reyhan Camalovanı ayağa qaldıraraq onun nailiyyətini təqdir edib: “Azərbaycandan olan Reyhan Camalova da bu gün bizimlə birlikdədir. Reyhanın 15 yaşı var. Lakin belə gənc



yaşda olması onu yağış suyundan enerji istehsal edən şirkətini yaratmaqdan çəkindirmədi. Reyhanın güclü bir şüarı var - “Hər dəfə bir evi işıqlandır”. Reyhan, sənin işıqlandırdığın hər bir ev dünyanı işıqlandırır. Sənin parlaq zəkan və gərgin əməyin bizim hamımızı ruhlandırır. Təşəkkür edirəm”.

Həmin çıxışdan sonra bütün iştirakçılar Reyhanı alqışlayıblar. Bir Azərbaycan məktəblisi üçün bündan sevincli nə ola bilər ki?.. Ölkəmizdən 15 yaşlı bir gəncin belə bir nüfuzlu tədbirə qatılması xüsusilə son illər təhsilimizin inkişafından soraq verir.

Məlumat üçün bildirək ki, Qlobal Sahibkarlıq Sammiti dünyanın hər yerindən yeni sahibkar, sərmayəçi və dəstəkləyiciləri bir araya gətirən məşhur ənənəvi illik sahibkarlıq tədbiridir. “İlk növbədə qadınlar, tərəqqi hamı üçün” şüarı altında keçirilən sammitdə qadın sahibkarların dəstəklənməsi və iqtisadi artımın dünya səviyyəsində saxlanması müzakirə edilir.

Reyhan Camalova və onunla birlikdə səfər edən Leyla Tağızadənin tədbirdə iştirakı ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən dəstəklənib.

Zahirən öz həmyaşıdlarından fərqlənməyən, ancaq qeyri-adi istedadı ilə hamının diqqətini özünə cəlb etməyi bacaran bu gənc gələcəkdə dünyada dönüş yaradacaq layihələrə imza atmağı, Nobel mükafatını qazanmağı qarşısına məqsəd qoyub. Azərbaycanlı şagird artıq gələcəklə bağlı planlarını da müəyyənləşdirib. Gənc ixtiraçı dünyada özündən sonra Lütfi Zadə kimi iz qoymaq istəyir. Reyhanın ən böyük arzusu bütün dünyanı lərzəyə gətirəcək kəşflərə imza atmaqdır. Kiçik ixtiralarının onu həmin işıqlı yola apardığına inandığını deyir: “İnsanlığa xeyri olan biri olmaq istəyirəm”.

**edu.gov.az**





# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI PROQRAMLARI FƏNNİ ÜZRƏ FƏAL DƏRS NÜMUNƏSİ



**Gülnaz ƏFƏNDİYEVA,**
***Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin informatika müəllimi***

**Açar sözlər:** İKT, proqramlar, təhsil, WORD mətn redaktoru, format menyusu, şrift əmri.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları (İKT) ictimai həyatın inkişafına təsir göstərən əsas amillərdən biridir. Kompüter texnologiyalarının cəmiyyətin müxtəlif sahələrində, xüsusilə də təhsil sistemində geniş tətbiqi müasir bilik və bacarıqlara malik yeni nəslin formalaşmasına birbaşa təsir edən vacib məsələdir. Belə ki, yeni cəmiyyətin vətəndaşı kimi yetişmək üçün gənc nəsil İKT biliklərini mənimsəməli, müasir texnologiyalardan istifadə bacarığına malik olmalı, bu sahədə mütəmadi olaraq maariflənməli, əldə etdiyi bilikləri tətbiq etməyi və eyni zamanda da aşılamağı bacarmalıdır.

İKT proqramlarından istifadə etməklə təşkil edilmiş müasir tədris modeli müəllimlərin, eləcə də peşəyönümlü liseylərin müəllim kollektivi qarşısında geniş vəzifələr qoyur. Bu tələblərə cavab vermək üçün həmin proqramlara dərindən yiyələnmək lazımdır. Ən çox istifadə olunan belə proqramlarından biri də WORD proqramıdır. WORD proqramı dünyada ən çox geniş yayılmış proqramlardan biridir. Bu proqram mətnlərlə işləmək, onları emal etmək üçün geniş imkanlar açır. Mətn emalının ən əhəmiyyətli hissələrindən biri mətnlərin zəruri formatlarının təyin olunması – mətnin formatlaşdırılmasıdır. WORD mətn redaktorunda mətnin formatlaşdırılmasının özünəməxsus xüsusiyyətləri var. Öz təcrübəm əsasında "Mətnlərin formatlaşdırılması" mövzusundakı nümunəvi dərs icmalını təqdim edirəm.

**Mövzu:** Mətnlərin formatlaşdırılması.

**Standartlar:** 3.2.1. Qrafiki redaktorda şəkli yadda saxlamaq və çap etmək bacarıqlarını nümayiş etdirir;

3.2.2. Mətni müvafiq qaydada formatlaşdırır;

3.2.3. Təqdimat proqramında ilkin işləmək bacarığını nümayiş etdirir.

**İş forması:**

Kiçik qruplarla iş

**İş üsulu:**

Beyin həmləsi,

1. BİBÖ.
2. Karusel.

**Məqsəd:**

1. Dünyagörüşünün genişləndirilməsi.
2. Yeni biliklərin əldə edilməsi.
3. WORD proqramında mətn üzərində işləməklə biliklərin möhkəmləndirilməsi.

**İnteqrasiya:**

1. İnformatika.
2. Kompüter texnologiyası.
3. Riyaziyyat.

Resurslar: Kompüter dəsti, proyektor, müəllim üçün metodik vəsait, dərslik, iş vərəqləri.

**DƏRSİN MƏRHƏLƏLƏRİ**

1. Motivasiya

*Tədqiqat sualı*





2. Tədqiqatın aparılması.
3. İnformasiya mübadiləsi və müzakirəsi
4. Nəticənin çıxarılması və təşkili
5. Yaradıcı tətbiqetmə
6. Qiymətləndirmə

**Motivasiya:** Şəkildə hansı ofis proqramı göstərilib?

**Tədqiqat sualları:**

**I Qrup**

1. "Microsoft office" proqramları hansılardır?
2. WORD mətn redaktorunda şriftlərin formasını necə dəyişdirmək olar?
3. Mətndə sətirlər arasındakı məsafə necə tənzimlənir? Fikirlərinizi şəkil üzərində izah edin.

**II Qrup**

1. WORD mətn redaktoruna daxil olmağın ən əlverişli üsulunu şəkildə göstərin.
2. Mətnin fonunu necə rəngləmək olar?
3. Fikirlərinizi şəkil üzərində izah edin.

**III Qrup**

1. Mətn hansı menyu sətrində formatlaşdırılır?
2. Mətnin kənarlarını müvafiq qaydada necə düzəltmək olar?
3. Fikirlərinizi şəkil üzərində izah edin.

**IV Qrup**

1. Mətndə müvafiq yazıları necə qalın, kursiv, yaxud altından xətt çəkilmiş formada formatlaşdırmaq olar?
2. Rəng çalarları necə seçilir?
3. Fikirlərinizi şəkil üzərində izah edin.

**Məlumatın mübadiləsi və müzakirəsi**



1. "Microsoft office" proqramları
2. WORD mətn redaktoru
3. Formatlaşdırmanın əsas alətləri Home (Qlavnaya-Əsas) qoşmasındakı Font (Şrift-Yazı tipi) təlqinində (qrupunda) toplanmışdır.
4. Şrift (font,şrift) – simvolun ekranda və çap səhifəsində müəyyən formatda görünüşünü təyin edir (Ctrl+Shift+P).
5. Ölçü (font size, razmer) – simvolun ölçüsünü təyin edir




(Ctrl+Shift+F).

6. Home (Qlavnaya-Əsas) qoşmasındakı Paragraph (Abzas-Abzas) qrupuna daxil olan





Line and Paragraph Spacing (İnterval-Çıxıntı və İnterval) düyməsini sıxmaqla ekrana açılmış kontekst menyudan istədiyiniz intervalı (məsələn, 2.0) seçərək sətirlərarası intervalı seçimə uyğun dəyişmək olar.

7. Mətnin bütövlükdə arxa fonunu rəngləmək üçün.

8. İstifadəçi mətn hazırlayarkən hazırladığı mətnə qoyulmuş tələbatdan asılı olaraq dörd tip tənləşdirmə tətbiq edə bilər (sol, orta, sağ, həm sağ həm sol tərəfdən mətnin formatlaşdırılması).

9. Mətndə seçilmiş fraqment üçün şriftin rəngini dəyişməkdən ötrü Font (Şrift-Yazı tipi) siyahısının aşağı sağ küncündə yerləşən Font Color (Mətnin rəngi) düyməsindən istifadə etmək mümkündür.

10. Mətndəki seçilmiş yazıların arxa hissəsinin rəngini dəyişmək üçün;

11. Mətndə müvafiq seçilmiş yazının altından xətt çəkmək üçün;

12. Mətndə müvafiq seçilmiş yazını kursiv formaya çevirmək üçün;

13. Mətndə müvafiq seçilmiş yazını qalın formaya çevirmək üçün istifadə olunur.

**Gözlənilən nəticə:** Təhsilalanlar "Microsoft office" proqramlarından biri olan WORD mətn redaktorunda işləmə prinsipini, xüsusilə, mətnin formatlaşdırılmasını bacarır.

**Tətbiq sahəsi:** Bütün növ reklam və çap xidmətlərində.

**Qiymətləndirmə**

| Qruplar / meyarlar | Məntiqi danışma | Biliyin tətbiq edilməsi | Əməkdaşlıq edir | Yekun Qiymət |
|---|---|---|---|---|
| I Qrup | | | | |
| II Qrup | | | | |
| III Qrup | | | | |
| IV Qrup | | | | |

**Tapşırıq:**

1. Şagirdlərin kompüterdə hər hansı bir mətni formatlaşdırması.



# Çalışıram ki, fənnin tədrisində tətbiq edilən təlim metodları müxtəlif olmaqla yanaşı, həm də mövzuya uyğun gəlsin



**Nahidə ƏHMƏDOVA,**
***Bakı Modern Təhsil Kompleksinin Azərbaycan dili və ədəbiyyat müəllimi***

Bu gün şagirdlərimə daha yaxşı təhsil vermək üçün, ilk növbədə, onların psixoloji xüsusiyyətlərini öyrənirəm. Onların maraq dairələrinə bələd oluram, təhsil sahəsindəki fəaliyyətimdə məhz onları inkişaf etdirməyə çalışıram. Belə olduqda təlim prosesi daha maraqlı obyekt kimi üstünlük qazanır və şagirdlərin diqqətini özünə cəlb edir. Bu zaman şagirdlər təlim prosesinə birinci dərəcəli obyekt kimi baxır, orada iştirak etməyə böyük maraq göstərirlər.

Aparılan ümumi pedaqoji araşdırmalarda gəlinən qənaət bundan ibarətdir ki, insanın inkişafını təmin etmək üçün onun interaqtiv mühitdə olması, aqəli anlayışlarla təmasda fəaliyyət göstərməsi daha çox əhəmiyyətli hesab olunur.

Tədris etdiyim Azərbaycan dili və ədəbiyyat fənni materiallarının rəngarəngliyi ilə seçilir. Çalışıram ki, fənnin tədrisində tətbiq edilən təlim metodları müxtəlif olmaqla yanaşı, həm də mövzuya uyğun gəlsin. Çünki fəal təlim əsasında qurulan dərslərdə bir metodla kifayətlənmək olmaz.

Azərbaycan dilindən V sinifdə tədris etdiyim bir dərs nümunəsinə nəzər salaq:

**Mövzu: *OMONİMLƏR***

***Standart: 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.***

***Məqsəd: Sözün leksik və qrammatik mənasını izah etməklə omonimlərin mənalarını izah edir.***

***İş forması: Qruplarla iş, kollektivlə iş***

***Resurs: Kompüter və proyektor, iş vərəqləri***

***Motivasiya:*** Əminəm ki, həyatda eyni ada malik olan, lakin müxtəlif məna kəsb edən sözlərlə qarşılaşmısınız.

Bunları necə ayırmaq olar?



1.Axar çay –su mənbəyi
2.Hər gün içdiyimiz çay.



1. Ay – yerin peyki.
2.Ay- ilin on iki ayı.

## OMONİMLƏR

Deyilişi və yazılışı eyni olan, lakin müxtəlif mənalar ifadə edən sözlərə OMONİMLƏR deyilir.

**Tədqiqat sualı:**

**Fərqli məfhumların eyni cür adlandırılması insanlarda çaşqınlıq yaradırmı? Bunları necə fərqləndirmək olar?**

**Omonim sözləri bilməklə sözlər arasında yarana biləcək çaşqınlığı aradan qaldırmaq mümkündür.**





*Musiqi ilə keçirilən gecə*



*Arı balı.*



*Yarışda toplanılan bal*

**Sözün omonim mənaları həm eyni nitq hissəsinə, həm də müxtəlif nitq hissələrinə aid ola bilər.**



*Kök – yerkökü (isim)*



*Kök – ağacın kökü (isim)*



*Kök – dolu insan (sifət)*

**Eyni nitq hissəsinə aid olan omonimlər.**



İSİM



Yaz fəsli (isim)



Leksik omonimlərin qrammatik omonimlərdən fərqi nədir?

**Leksik omonimlərin məna tayları əsas nitq hissəsinə aid olur.**

Çat – isim / feil

sağ – sifət / feil







**Qrammatik omonimlərin mənalarından biri əsas, digəri isə köməkçi nitq hissəsi olur.**




**Bəzi sözlər omonim kimi götürülə bilməz:**

*** Vurğusu dəyişməklə mənası dəyişən sözlər:**

alın' (isim) – a'lın (feil)
bil'dir (zərf) – bildir' (feil)
dimdik' (isim) – dim'dik (sifət)

*** Şəkilçi qoşulduqdan sonra deyilişi və yazılışı eyniləşən sözlər:**

qazan (isim) – xörək qazanı
qazan (feili sifət)-quyu qazan

*** Ümumi və xüsusi isimlər:**

aslan – heyvan
Aslan – xüsusi ad
nərgiz – gül
Nərgiz – xüsusi ad

**DİQQƏT**

**Bəzi cəhətlərinə görə, yəni deyiliş və yazılışca eyni olmalarına, müxtəlif mənalarda işlənmələrinə görə omonimlər çoxmənalı sözlərə bənzəyir.**

**Fərq**

**1.Omonim sözlərin mənaları tamamilə fərqləndiyi halda, çoxmənalı sözlərin mənaları arasında müəyyən yaxınlıq olur.**

**2. Çoxmənalı sözlər həmişə eyni nitq hissəsinə aid olur, omonim sözlər isə həm eyni, həm də müxtəlif nitq hissələrinə aid ola bilər.**

**Qruplarla iş**
**OMONİM qrupu**

**Şeirləri oxuyun və altından xətt çəkilmiş sözlərin leksik mənasını müəyyənləşdirin.**

**Köynəyi sarı,**
**Gəl mənə sarı.**
**Tikanı yox eylə,**

**Neçə rəngə çalır Göy,**
**Qırmızı, al, yaşıl, göy.**





## ANTONİM qrupu

**Şeirləri oxuyun və altından xətt çəkilmiş sözlərin leksik mənasını müəyyənləşdirin.**

**Mətbəxdə yanırdı qaz,**
**Otağa soxuldu qaz,**
**Baba, götür yeri qaz.**

**Toplan yaxşı bir itdi,**
**Heyif, meşədə itdi.**

## SİNONİM qrupu

Şeirləri oxuyun və altından xətt çəkilmiş sözlərin leksik mənasını müəyyənlənləşdirin.

**Səmadan baxırdı Ay,**
**Tətilə var neçə ay?**

**Bir səs gəlir ürəyimdən –**
**Rza, yaz!**
**Qarşı gündən gülümsəyən**
**yaza yaz!**

Qrup nümayəndələri görülən işləri təqdim edirlər. Qruplar bir-birinin işinə münasibət bildirirlər.

**1. Mətndə insanın bədən üzvlərini bildirən neçə sözə rast gəldiniz?**

**2. Bu mətndə onlar hansı mənada işlənilir və həmin sözlərin həqiqi mənalarını yazın.**

**Səlimin başı ağrıyırdı. Tənbəllik eləməyib kəndin başına, Vahid həkimin evinə yollandı. Evə çatanda qapının ağzında Vahidin oğluna rast gəldi. Oğlan,deyəsən, atasının köynəyini geyinmişdi –köynəyin qolları az qala uşağın dizinə çatırdı.**

**-A bala, dədən haradadır? - Səlim soruşdu. - Baş həkim dedi ki, dağın başına getsin, çobanlardan kimsə xəstədir, - deyə oğlan cavab verdi. Səlim kor-peşman kəndin ayağına, öz evinə qayıtdı.**

## Nəticə

**Omonimlər müxtəlif məfhumları əks etdirir. Hər bir omonim ən azı iki leksik mənanı ifadə etməlidir. Omonimlər həm eyni nitq hissəsinə, həm də müxtəlif nitq hissəsinə aid ola bilər. Omonim sözlərin hər mənası bir leksik vahid hesab olunur. Çoxmənalı sözlərdə isə omonimlərdən fərqli olaraq bütün məna çalarları ilə birlikdə eyni söz sayılır.**

**Qiymətləndirmə:**

| *Qruplar* | OMONİM | SİNONİM | ANTONİM |
|---|---|---|---|
| *Sözün leksik və qrammatik mənasını izah edir.* | | | |
| *Çoxmənalı sözlərlə omonimləri fərqləndirir.* | | | |
| *Əməkdaşlıq edir* | | | |
| *Nəticə* | | | |

**Tapşırıq:**

**Ədəbiyyat kitabından bir mətn götürüb dəftərinizə yazın. Mətndəki leksik və qrammatik omonimləri seçib dəftərinizdə qeyd edin.**



# 2017-ci ilin Nobel mükafatları sahiblərinə çatdı




**Dekabrın 10-da İsveçin və Norveçin paytaxt şəhərləri Stokholm və Osloda 2017-ci ilin Nobel mükafatı laureatlarının mükafatlandırılması mərasimi keçirilib. www.nobelprize.org saytının məlumatına əsasən, mərasim 1896-cı il dekabrın 10-da vəfat etmiş Alfred Nobelin anım günündə baş tutub. Alfred Nobelin vəsiyyətinə uyğun olaraq Stokholmda keçirilən tədbirdə fizika, kimya, fiziologiya və təbabət, ədəbiyyat və iqtisadiyyat sahələrində mükafatlar təqdim olunub.**

Bu il Nobel mükafatına fizika sahəsində LIGO detektorunun inkişafına verdiyi həlledici töhfələrinə və qravitasiya dalğalarının müşahidəsinə görə üç amerikalı alimə - Rainer Vaisə, Bərri Bərişə və Kip Törne, kimya üzrə məhlulda biomolekulların yüksək həlletmə qabiliyyətli strukturunun müəyyənləşdirilməsi üçün krio-elektron mikroskopiya texnologiyalarını inkişaf etdirmələrinə görə alman əsilli amerikan Yoakim Frank, isveçrəli Jak Duboşey və britaniyalı Riçard Handerson, fiziologiya və təbabət üzrə amerikalı Ceffri Hall, Maykl Rosbaş və Maykl Yang, ədəbiyyat sahəsində yapon əsilli britaniyalı yazıçı Kadzuo İşiquro, iqtisadiyyat üzrə "davranış iqtisadiyyatı" sahəsində tədqiqatlarına görə Amerikanın Çikaqo Universitetinin alimi Riçard H. Thaler layiq görülüblər. Mükafatı laureatlara İsveç Kralı XVI Karl Qustav tərəfindən təqdim olunub.

2017-ci il üzrə Sülh mükafatı isə ayrıca təqdim olunub. Mükafatlandırma mərasimi Osloda keçirilib. Mükafat Nüvə silahının qadağası üzrə Beynəlxalq kampaniyanın (ICAN) icraçı direktoru Beatris Finə və Xirosimanın atom dəhşətlərini yaşamış 85 yaşlı yapon Sesuko Terlouya təqdim olunub. Norveç Kralı V Haraldın iştirakı ilə keçirilən təntənəli mərasimdə Kral ailəsi, ölkənin Baş naziri, hökumətin və Ali Məhkəmənin üzvləri də iştirak ediblər.

Tədbirdə çıxış edən Norveç Nobel Komitəsinin təmsilçisi Berit Reiss-Andersen nüvə silahının bəşəriyyət üçün yaratdığı təhlükə barədə danışıb. O qeyd edib ki, Nüvə silahının yayılmaması haqqında müqavilənin (NSYM) olmasına baxmayaraq bu növ silahdan istifadə təhlükəsi hələ də mövcuddur. Onun sözlərinə görə, "İCAN" bu mükafata nüvə silahının qadağan olunması ilə bağlı həyata keçirdiyi addımlarına görə layiq görülüb. "İCAN" -nın icraçı direktoru Beatris Fin Norveç Nobel Komitəsinə təşkilatın işini tanıdığına və dəstək olduğuna görə minnətdarlığını bildirib. Nüvə silahlarının bu gün insanlığa böyük təhlükə yaratdığını vurğulayan Beatris Fin deyib ki, "nüvə silahları ilə bağlı "hekayə" bir gün sona çatacaq və bu sonun nə olacağı insanlardan asılıdır". O, bir daha dünya



ölkələrinə səslənərək nüvə silahından istifadənin tam qadağan olunmasına çağırıb. "Nüvə silahından istifadənin riski bu gün "soyuq müharibə"nin sonlarına nisbətən daha yuxarıdır. Amma "soyuq müharibə"dən fərqli olaraq, bu gün biz nüvə silahına malik olan digər çox dövlətlərlə, terrorçularla və kibermüharibələrlə rastlaşırıq" - deyə B.Fin bildirib. B. Fin əlavə edib ki, mükafat istisnasız olaraq bütün ölkələr tərəfindən nüvə silahının qadağası üzrə BMT Konvensiyasının imzalanmasına nail olmağa çalışan təşkilatın fəaliyyətinə xərclənəcək. 1945-ci ildə Xirosima şəhərində nüvə bombardmanını yaşamış "İCAN" təşkilatının fəalı Sesuko Terlou çıxış edərək, öz həyatından və nüvə silahının faciəvi nəticələrindən söz açıb. "Mən yanan xarabalıqlar arasında qalanda 13 yaşlı qız idim, mən sağ qalmaq üçün mübarizə aparırdım. Mən xarabalıqlar altında bir səs eşitdim, o məni işığa doğru hərəkət etməyə səsləyirdi. Mən işığa doğru hərəkət etməyə davam etdim. Və sağ qaldım. Bizim işığımız bu gün nüvə silahının qadağan olunması barədə müqavilədir. Bu zalda olanlara və bütün dünya üzrə bizi dinləyənlərə mən Xirosima xarabalıqlarında eşitdiyim o sözləri təkrarlayıram: "Təslim olma! Davam et! İşığı görürsən? Ona doğru sürün". Bir bombayla mənim sevimli şəhərim məhv edilmişdi. Onun sakinlərinin əksəriyyəti mülki şəxs idilər. Onların arasında, ailə üzvlərim və mənim 351 sinif yoldaşım var idi" - deyə Terlou bildirib.

Stokholmun Konsert zalında keçirilən mərasimə 1500-dən artıq qonaq - laureatların ailə üzvləri, elm, mədəniyyət və siyasət nümayəndələri qatılıblar. Mükafatlandırmadan sonra Stokholmun Şəhər ratuşasında rəqslə başa çatan ənənəvi Nobel banketi başlayıb. Bu il mükafatın məbləği hər bir nominasiya üzrə 9 milyon İsveç kronu və ya 1 milyon ABŞ dolları təşkil edib. Qeyd edək ki, üzərində Nobelin əksi olan medal 19 karat qızıldan hazırlanıb və çəkisi 175 qramdır.

**Oruc MUSTAFAYEV**



# Uşaqların icbari müayinəsi çox vacibdir



***Bu gün uşaqlarımızın hərtərəfli, cəmiyyət üçün faydalı vətəndaşlar kimi yetişməsi üçün onların sağlam böyümələri mühüm əhəmiyyət kəsb edir. Cəmiyyət üzvlərinin ən ümdə vəzifəsi də gələcəyimizi təmin edəcək uşaqların sağlam inkişafına vəsilə olmaqdır. Bu isə həm valideynlərin, həm sağlamlığımızın keşiyində dayanan həkimlərimizin qarşısında duran başlıca vəzifə kimi aktuallığını hər zaman saxlamaqdadır. Çünki uşaqların, xüsusən də məktəbyaşlı uşaqların xəstəliklə əlaqədar tədrisdən kənarda qalması arzuolunan deyil. Uşaqlarımızı dövrün xəstəliklərindən necə qorumalı? Onların sağlam böyüməsinə necə nail olmalı? Bu və digər suallarımızı Bakıdakı 3 saylı Kliniki Xəstəxananın Uşaq xəstəlikləri şöbəsinin müdiri Ramiz İsmayılovla müzakirə etdik.***

**- Bu gün uşaqlar arasında ən çox hansı xəstəliklərin yayılmasını qeyd edərdiniz?**

- Bu gün uşaqlar arasında yuxarı tənəffüs yollarının virus və bakterial mənşəli xəstəlikləri daha çox yayılıb. Xəstəliklər ən çox məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlarda rast gəlinir. Bu da onların immun sisteminin vəziyyətindən və uşaqların olduqları mühitdə daha çox bir -biri ilə təmasda olmaları ilə əlaqələndirilir. Məktəbyaşlı uşaqlarda boğaz ağrıları, boğazın irinli iltihabı - anginaları çox olur. Fəsildən asılı olaraq 6-14 yaşlı şagirdlərdə revmatizm xəstəliyinin aktivləşməsi də baş verir. Kiçik yaşlı məktəblilər arasında son illər öd yollarının, öd kisəsinin diskineziyasına da çox rast gəlinir. Qanazlığı problemi, qurd xəstəlikləri də xeyli artıb.

**- İnfeksiyaların qarşısını almaq üçün uşaqların immunitetini necə qaldırmaq olar? Ümumiyyətlə, sizin immunitet məsələsinə münasibətiniz necədir?**

- İlk növbədə, immunitet nədir? Buna aydınlıq gətirək. İmmunitet qorunmaq, dözüm, davamlılıq deməkdir. Bu yalnız xəstəliklərə deyil, eyni zamanda ətraf mühitin mənfi faktorlarından qorunmaq və onlara qarşı dözümlü olmaqdır. İmmunitetdə insanın gen faktorunun da böyük rolu var. Bəzən ayrı-ayrı millətlər eyni xəstəliyi müxtəlif gedişatlarla keçirə bilərlər və sağalma müddətləri də fərqli ola bilər.

Müxtəlif infeksiyalara qarşı immuniteti artırmağa uşaq həyatının ilk illərindən başlamaq lazımdır. Yeni doğulmuş uşaqlar mütləq təbii - ana südü ilə qidalanmalıdır. Əvvəllər ana südü 6 aylıqda, 1 yaşa qədər mütləq sayılırdısa, indi 2 yaşa qədər verilməsi tövsiyə olunur.

Ana südü tək qida deyil, təkcə müxtəlif xəstəliklərə qarşı hazır immunitet mənbəyi deyil, eyni zamanda milli "kod" mənbəyidir. Yəni bəzən biz uşağın hansı südlə bəslənməyinə görə onun milli, əxlaqi, dini mənsubiyyətini belə müzakirə edirik. Körpə uşaqlarda immunitetin artırılmasının ən önəmli məsələsi onların bağırsaq sisteminin vəziyyətidir. Həzm və sorulma proseslərinin normaya salınmasıdır. Bağırsaq mikroflorasının pozulmasının (disbakteriozun) qarşısının alınmasıdır. Sonrakı yaş qruplarının öz spesifikasına uyğun ummunitetin korreksiya üsulları vardır.

**- Xəstəliklərin geniş yayıldığı indiki dövrdə uşaqların icbari müayinədən keçirilməsinə necə baxırsınız?**

- İndiki dövrdə uşaqların icbari müayinəsi - dispanserizasiyası çox vacibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə 2013-cü ilin martında "Uşaqların icbari dispanserizasiyası haqqında" qəbul edilmiş qanun uşaqların sağlamlığının qorunması işində müstəsna əhəmiyyət kəsb edir. Bu qanun uşaqların sağlamlığının qorun-

ması, möhkəmləndirilməsi, normal fiziki inkişafı, xəstəliklərin ilkin mərhələdə aşkar edilməsi tədbirlərini müəyyən edir. Bu işə səhiyyənin ən yaxşı mütəxəssisləri cəlb olunub.

Aşkar olunan xəstələr və xəstələnmə riski olan uşaqlar dispanser qeydiyyatına götürülür. Bu qanun respublikada profilaktik tibbin inkişafına çox böyük təkan verir.

**- Necə bilirsiniz, uşaqları həkimə yalnız xəstələndikdə aparmaq lazımdır?**

- Bir çox inkişaf etmiş ölkələrdə xəstə uşaq həkimə, poliklinikaya xəstəliyin ilk günlərində, ya da xəstələnmə riski olan zaman müraciət edirlər. Bizdə isə həmişə belə olmur. Xəstələr bəzən xəstəliyin ağırlaşma formalarında müraciət edirlər.

Xəstəliyin ilk günlərində bəzən simptomatik müalicə kifayət edir. Ağırlaşmış formalarda isə müalicə kursu uzanır. Ağır antibiotiklər, damardaxili manipulyasiyalar lazım olur. Bu isə xəstə üçün, onun yaxınları üçün həm maddi, həm də mənəvi cəhətdən ziyandır. Respublikada aparılan icbari dispanserizasiya bir növ bu məqsəd üçün aparılır.

**- Bəzən valideynlər uşağı həkimə aparmadan aptekdən dərman alır və bir növ "müalicə" ilə məşğul olur. Bu isə bəzən ciddi fəsadlara səbəb olur. Bu barədə nə deyə bilərsiniz?**

- Bir neçə 10 il əvvəl xəstələrə bütün köməyi tibb işçiləri aparırdı. Xəstələrə əzələyə, venaya iynə vurmaq, imalə etmək qorxulu sayılırdı. Əhali arasında tibbi maarifləndirmə işinin aparılması, kütləvi informasiya vasitələrində tibbi vərdişlərin nümayişi bir çox hallarda valideynləri cəsarətli edib. Əzələyə olan iynələr, bəzən venaya olan müdaxilə, müxtəlif imalələr indi çox vaxt evdə valideynlər tərəfindən aparılır. Əksər hallarda olmasa da, bəzən fəsadlar baş verir. Ancaq ağır nəticələr də ola bilər. Ona görə də həkimsiz, özbaşına aptekdən dərman almaq və evdə müalicə ilə məşğul olmaq qadağandır.

**- İndi çoxları dərmanların keyfiyyətindən şikayətlənir. Uzunmüddətli dərman müalicəsi nəticə vermir. Uşaq orqanizmi sanki dərmanların sınaq obyektinə çevrilir. Azyaşlıları mümkün infeksiyalardan necə qorumalı, valideynlərə hansı tövsiyələriniz var?**

- Dövlət xəstəxanalarında dərman təminatı olduğu üçün keyfiyyət məsələsi etibarlıdır. Çünki



bütün dərmanlar innovasiya mərkəzindən alınır. Evdə ambulator müalicə alan xəstələr dərmanları apteklərdən alır. Bu dərmanlar müxtəlif firmaların olduğu üçün keyfiyyətinə təminat vermək olmur. Belə dərmanlarla müalicə bəzən effekt vermir və müalicə kursu uzanır. Bu isə, siz dediyiniz kimi, uşaqların dərmanların sınaq obyektinə çevrilməsinə səbəb olur. Azyaşlı uşaqların xəstəliklərdən qorunmasının əsas tədbiri kimi profilaktik peyvəndləri qeyd etməliyik. Profilaktik peyvəndlər bir çox qorxulu infeksiyaların tamamilə yox olmasına səbəb olub. Ona görə də əsas göstəriş yoxdursa, peyvəndlərin olunması mütləqdir.

Valideynlərə isə tibbi biliklərinin artırılmasını məsləhət görərdim. Bu işdə səhiyyə işçiləri onlara daim öz köməkliklərini göstərməyə hazırdır.

**- Bəzən deyirlər ki, 90-cı illərin uşaqları indikilərə nisbətən daha möhkəm orqanizmə malik olub. Bu fikrə münasibətiniz?**

- Tibbi statistika göstərir ki, 90-cı illərlə müqayisədə bəzi xəstəliklər artıb, bəziləri isə əsaslı şəkildə azalıb. Məsələn, əvvəllər uşaqlar arasında çox yayılmış "sepsis" xəstəliyinə indi çox nadir hallarda rast gəlinir. Bir çox qorxulu infeksiyalara artıq rast gəlinmir. Ancaq elmin, texnikanın bu inkişafı dövründə stress, əsəbilik, depressiyalar artıb. Ona görə də bəhs etdiyiniz möhkəmlik nisbi göstəricidir.

**- Maraqlı söhbət üçün təşəkkür edirik, sonda oxucularımıza nə deyərdiniz?**

- Mən də sizə, oxuculara sağlamlıq arzulayıram.

**O.MUSTAFAYEV**



# Medalların mübarək, Rəvan!

**Aşağıdakı şəkillərdə əks olunmuş medal və diplomların sahibi Bakıdakı Paşa Nəzərov adına 60 nömrəli orta məktəbin 9-cu sinif şagirdi Rəvan Hüseynovdur.**

Rəvan idmana lap kiçik yaşlarından, hələ məktəbə getməmişdən maraq göstərmişdir. Rəvan Məktəbə gedəndən sonra idmanla ciddi məşğul olmağa başlayır. Bədən tərbiyəsi dərslərində həmyaşıdlarından seçilən Rəvan müəllliminə idmanın boks növünə daha maraqlı olduğunu və artıq 10 yaşından – 2013-cü ildən boks üzrə məşqlərə başladığını deyir. Əvvəlcə oxuduğu məktəbdə, sonralar isə «Gilan» boks federasiyasında müntəzəm olaraq davamlı məşqlər keçir. Eyni zamanda «Qurtuluş – 93» idman klubunda təcrübə toplayır.

Azərbaycanın idman ustası İlkin Seyfəddinovun rəhbərliyi altında məşqlər keçən yeniyetmə Rəvan müəlliminin etimadını doğrultmuş, yaşıdları arasında müxtəlif yarışlarda iştirak etmiş və ən yüksək nəticələrə nail olmuşdur. O, müxtəlif tarixi günlərlə əlaqədar respublikamızın ayrı-ayrı şəhər və rayonlarında, habelə ölkəmizin hüdudlarından kənarda yeniyetmələr arasında təşkil edilmiş yarışlarda qalib olmuşdur.

Rəvan Hüseynov Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin 76 kq çəki dərəcələri arasında Respublika birinciliyi uğrunda təşkil etdiyi yarışda qalib gələrək adıçəkilən nazirliyin diplomuna layiq görülmüşdür. Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Təhsil» Respublika İdman Mərkəzi Gəncə filialının






ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr etdiyi Boks idman növü üzrə turnirdə birinci yeri tutduğuna görə mərkəzin diplomunu almışdır. Balakən rayonunda Azərbaycan Gənclər və İdman Nazirliyinin yaranmasının 23-cü ildönümünə həsr edilmiş yeniyetmələr arasında boks idman növü üzrə açıq rayon birinciliyində 70 kq çəki dərəcəsində də 8 saylı Uşaq-Gənclər İdman Məktəbinin nümayəndəsi Rəvan fərqlənmiş və birinci yerin diplomuna layiq görülmüşdür. Bütün bunlardan başqa, Rəvan Hüseynov Şirvan, Siyəzən, Neftçala şəhərlərində və «Təhsil» Respublika İdman Mərkəzinin, Uşaq-Gənclər İdman Məktəbinin təşkil etdikləri digər yarışlarda birinci yeri tutmuş, fəxri fərmanlara, diplomlara sahib olmuşdur.

Öz üzərində mükəmməl çalışan Rəvanın 10-dan artıq medalı və diplomları var. O, bunlara öz əzmkarlığı, çalışqanlığı ilə nail olmuşdur.

Rəvanın kiçik qardaşı, 60 nömrəli məktəbin 8-ci sinif şagirdi Murad həmçinin boksla məşğul olur. O öz çəki dərəcəsində keçirilən yarışlarda uğurlar qazanır.

Rəvan söhbət zamanı dedi:

– Dərslərimi mənimsədiyimə görə müəllimlərimə, idmanda qazandığım uğurlar üçün isə məşqçim İlkin Seyfəddinova minnətdaram.

**Ənvər MƏŞƏDİYEV**

# Görkəmli alimin şeir dünyası

**Bu il professor Hikmət Mahmudun iki cilddə «Seçilmiş əsərləri» adlı şeirlər kitabı çapdan çıxıb. Kitabların birinci cildinə şair-publisist Əli Rza Xələfli «Alimin şeir dünyası», ikinci cildinə isə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli «Qoşa qanadlı poeziya» adlı ön söz yazmışdır. «Günəş-MMC» mətbəəsində nəfis şəkildə çap edilmiş hər iki cildin redaktoru xalq şairi Nəriman Həsənzadədir.**




Hikmət müəllimin keçdiyi şərəfli həyat yoluna qısaca nəzər salsaq onun elm və sənət yolunda çəkdiyi zəhmət sayəsində necə böyük uğurlar qazandığının şahidi olarıq. O, 1967-ci ildən Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda elmi fəaliyyətə başlamış və 1971-ci ildə «Kəlbəcər rayonunun perlitləri, onların fiziki və kimyəvi xüsusiyyətləri, 1992-ci ildə isə «Azərbaycan mezo-kaynazoy yaşlı vulkanik şüşələri» mövzusunda namizədlik və doktorluq dissertasiyalarını müdafiə etmişdir. Apardığı çoxsaylı elmi-tədqiqat işləri 200-dən çox elmi əsər, o cümlədən 16 elmi kitab, 10 monoqrafiya, 7 dərslik kitabı və 7 ixtira ilə nəticələnmişdir. Onun bu tədqiqat işləri «İxtiralar və Kəşflər Komitəsi» tərəfindən müəlliflik şəhadətnamələri ilə təsdiqlənmişdir. H.Mahmudov elmdəki xidmətlərinə görə «Tərəqqi» medalı ilə təltif edilib. Eyni zamanda o, «Qızıl qələm» və «Vətən» mükafatları laureatıdır. Həmçinin müxtəlif vaxtlarda elmdəki xidmətlərinə görə ayrı-ayrı qurumlar tərəfindən «İlin vətənpərvər adamı», «Şərəfli ömür yolu» mükafatlarına, «İlin adamı» adına, habelə «Avropa Nəşr Mətbu Evi» tərəfindən « Qızıl medal» və diplomla da mükafatlandırılıb. 2015-ci ildə isə o, Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Bütün bunlarla bərabər Hikmət Mahmud 50 ildən çoxdur ki, ali məktəblərdə, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Dövlət Neft Akademiyasında fəaliyyət göstərmiş, hazırda isə Bakı Dövlət Universitetində öz pedaqoji fəaliyyətini davam etdirərək geokimya və ekologiya fənlərindən mühazirələr oxuyur. Uzun illərdir ki, ali məktəblərin müəllim və tələbələri Hikmət müəllimin kitablarından dərslik və dərs vəsaiti kimi istifadə edirlər. Eyni zamanda o, Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunda şöbə müdiri vəzifəsində çalışır və elmi-tədqiqat işlərini davam etdirir. Göründüyü kimi, geologiya-minerologiya elmləri doktoru, professor Hikmət Mahmudun elmi-pedaqoji fəaliyyəti ayrıca bir mərhələdir. Bütün bunlar bir tərəfə, bu yazımızda isə söhbət şair Hikmət Mahmuddan, onun bu yaxınlarda işıq üzü görmüş «Seçilmiş əsərləri» adlı ikicildliyində toplanmış şeirlərindən gedir. Hikmət Mahmudun bu seçilmiş əsərləri onun əsərlərinin tam külliyyatıdır. Onu da qeyd edək ki, onun indiyə qədər 9 şeirlər kitabı, 11 poeması dərc olunub. Əsərləri müxtəlif xalqların dillərinə tərcümə edilib. Türk, alman, bolqar, rus, fars və gürcü dillərində də Hikmət Mahmudun poetik aləmi özünə böyük oxucu auditoriyası qazanıb.

Şair Hikmət Mahmudun sözlərinə bir çox görkəmli bəstəkarlarımız - Ələkbər Tağıyev, Eldar Mansurov, İsrail Kərimov, Oqtay Rəcəbov, Oqtay Zülfüqarov, Şəfiqə Axundova, Hökumə Nəcəfova, Tahir Əkbər və başqaları 50-dən çox mahnı bəstələyiblər. Onun ikicildlikdə toplanmış şeirlərinə bəstələnmiş «Ola bilməz», «Zəminələr bacısı», «Təzə il», «Ad günün mübarək», «Bizim Vətən qızları», «Kəndimiz», «Biz qoşa gəzək», «Danışanda, güləndə...», «Ala gözlər», «Məhəbbət yaşa baxmır...», «Nədir günahım de mənim» və bir çox digər mahnıları sevimli müğənnilərimiz tərəfindən böyük məhəbbətlə ifa olunur.

Hikmət Mahmudun oxuculara təqdim olunan ikicildliyində minə yaxın şeiri, qırxa yaxın qoşması, on üç poeması, rübailəri, qəzəlləri, bayatıları toplanıb. Bu poeziya incə, zərif duyğular poeziyasıdır, insanlara, həyata sonsuz məhəbbətin ifadəsidir. Bu şeirlər gör-



kəmli alimin, müdrik şairin könül nəğmələridir. Hikmət Mahmudun poeziyası haqqında qüdrətli söz sərrafları – İlyas Əfəndiyev, Əli Vəliyev, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Məmməd Araz, Famil Mehdi, Nəriman Həsənzadə böyük məhəbbətlə öz ürək sözlərini söyləyiblər. Şairin yaradıcılığına yüksək qiymət verən ədəbiyyatşünas alimlər – Əkrəm Cəfər, Pənah Xəlilov, Xalid Əlmirzəyev, akademik Firudin Köçərli, Fuad Qasımzadə və başqaları Hikmət Mahmudun qüdrətli sənətkar və ilhamlı bir şair olduğunu dəfələrlə təsdiqləmişlər.

Yeri gəlmişkən onu da qeyd edək ki, şairin yaradıcılığına yüksək qiymət verənlərdən biri də akademik İsa Həbibbəylidir. O, ikicildliyin ikinci cildinə yazdığı ön sözün sonunda fikirlərini belə yekunlaşdırır: «Hikmət Mahmudun «Seçilmiş əsərləri» Azərbaycan ədəbiyyatında müasir maarifçi poeziyanın maraqlı, cəlbedici və əhəmiyyətli nümunəsi sayılmağa layiqdir. Bu, elmlə şeiriyyəti, müdrikliklə şairanəliyi özündə birləşdirən qoşa qanadlı poeziyanın geniş imkanlarını əks etdirən qiymətli əsərlərin mənalı bir toplusudur. Bu, şeirdə elmiliyin yerini və elm adamının fəaliyyətində şeirin mövqeyini aydınlaşdırmağa imkan yaradan düşündürücü poetik bir irsdir... Şairin bədii əsərləri, onun yaratdığı elmi təlim olmayıb, əksinə, alim təfəkküründən qidalanmış yaddaqalan, təsirli, əhəmiyyətli və ilhamlı şeirlərdən ibarət olan qiymətli poeziya nümunəsidir».

Bütün bunlar onu deməyə əsas verir ki, professor Hikmət Mahmudovun min bir zəhmət bahasına araya-ərsəyə gətirdiyi bu ikicildlik «Seçilmiş əsərləri» çoxsaylı oxucuların rəğbətini qazanacaq, onların stolüstü kitabına çevriləcək.

**Ə.DAŞDƏMİRLİ**

# «Xəzinə» poeziya antologiyası

**Haqqında söhbət açmaq istədiyimiz «Xəzinə» poeziya antologiyasının bu II cildi də I cild kimi, XXI əsr Azərbaycan poeziyasına həsr olunub.**




Antologiyada müxtəlif yaş kateqoriyalarından olan bir çox istedadlı, tanınmış, peşəkar və eləcə də həvəskar şairlərin şeir nümunələri toplanıb. Eyni zamanda bu cilddə ədəbiyyatda hələ xüsusi çəkisi olmayan, şeiriyyatın sirlərini təzətəzə qavramağa çalışan, ilk yazıları ilə oxucuların görüşünə gələn gənc yazarların da şeirləri yer alıb.

Bakı, «Təknur» nəşriyyatında çap olunaraq işıq üzü görən 272 səhifəlik bu poeziya antologiyasının tərtibçisi və redaktoru Sumqayıt Dövlət Universitetinin IV kurs tələbəsi gənc şair Elvin İntiqamoğludur. Antologiyanın rəyçiləri filologiya üzrə fəlsəfə doktorları Rövşən Məmmədov və Dəyanət Cümənovdur. Nəfis şəkildə tərtib olunmuş almanaxı çapa hazırlayanlar isə Aytən Nadirova və Narxanım Soltanlıdır.

Poeziya antologiyasının bu cildinə ön söz yazmış gənc şair Elvin İntiqamoğlu burada şeiri dərc olunmuş 30 şairdən 25-nin hər birindən bir neçə şeir nümunəsini böyük məharətlə, sonsuz məhəbbətlə və poetik bir dillə təhlil edərək oxuculara ərməğan edir.

Həmin antologiyada müxtəlif üslubda, müxtəlif vəzində yazılmış şeirləri dərc olunan, hazırkı poeziyanın zirvəsi adlandırılan Musa Yaqubun «Payız düşüncələri», «Verdiyin əzaba görə», Sabir Rüstəmxanlının «Anamın əlləri», «Dörd divar», Rafiq Yusifoğlunun «Güzgüdə gördüyüm adam», «Oxumuram əl çəkin», Sabir Sarvanın «Dəli şeytan deyir ki...», «Qarabağlı uşaq», Füzuli Soltanın «Aparır», «Varmış», Həsənxan Əsədovun «Mənim arzum», «Mənim şikayətim» və başqa şairlərin oxuculara təqdim olunmuş şeirləri elə bu qəbildəndir.

Antologiyanın müsbət cəhətlərindən biri də ondan ibarətdir ki, burada şeirləri verilmiş bir çox şairlərin həm tərcümeyi-halı, həm də şəkili dərc olunub. Əlbəttə, bu da oxucu ilə şair arasında bir tanışlıq körpüsü rolunu oynayır.

İnanırıq ki, oxuculara və eləcə də şeir həvəskarlarına təqdim olunan «Xəzinə» poeziya antologiyası adlı bu kitab hamının diqqətini çəkəcək, böyük maraqla qarşılanacaqdır.

**ƏDALƏT**

# Görkəmli şəxsiyyətlərin həyatından

**Enriko Fermi**
**(1901-1954)**

Böyük italyan fiziki. 1922-ci ildə Pizan Universitetini qurtarmış və 1923-cü ildə Almaniyada M.Bornun yanında işləmişdir. 1938-ci ildə ABŞ-a köçmüş, Kolumbiya, Çikaqo universitetlərinin professoru olmuşdur. Atom və nüvə fizikası, statistik mexanika, yüksək enerjilər fizikası, astrofizika, kosmik şüalar fizikası sahəsində böyük işlər görmüşdür. Kvant elektrodinamikasının yaradıcılarından biri olmuşdur. 1934-cü ildə süni radioaktivliyi kəşf etmiş, neytronların hərəkət xassəsini izah etmiş və 1938-ci ildə bu sahədəki işlərinə görə Nobel mükafatı almışdır.

***

Fizik E.Fermi faşist İtaliyasından ABŞ-a mühacirət edərkən, Amerika gömrük idarəsində onu saxlayıb, savadsız adamların Amerikaya buraxılmadığını deyib, ona riyaziyyatdan belə bir sual verirlər:

- «27 + 46» neçə edər?

***

Atom bombası yaradılarkən «Manhetten» layihəsi adı altında yaradılırdı. Bu layihənin hərbi rəhbəri general Lesli



Qrovss idi. Hərbçiləri görməyə gözü olmayan E. Fermi həmişə onu sancardı. Bir dəfə Fermi nahar vaxtı Qrovssdan soruşur:

- Cənab general, elm aləmində yenilik yaradan, böyük kəşflər edən alimləri dahi alim adlandırırlar. Sizcə, hərbi işdə hansı generalı dahi general adlandırmaq olar?

General bir qədər fikirləşib deyir:

- Təxminən yüz generaldan üçünü dahi general adlandırmaq olar!

- Bu fikri daha dəqiq necə ifadə etmək olar? - Fermi soruşur.

- Məncə, eyni imkanlı beş döyüşdə qalib gələn generalı dahi general adlandırmaq olar! - deyə Qrovss cavab verir.

- Onda gəlin hesablayaq, - deyə Fermi hesablamağa başlayır. «Eyni imkanlı I döyüşdə qalib gəlmə ehtimalı 12-ə, II döyüşdə qalib gəlmə ehtimalı 14-ə, üçüncüdə 18-ə, dördüncüdə 116-ə, beşincidə 132-ə bərabərdir. Bu da, öz növbəsində 396-a bərabərdir. O da təqribən 0,03-ə bərabərdir. Siz haqlısınız, general. Doğrudan da 100 generaldan üçünü dahi general adlandırmaq olar. Ancaq başa düşə bilmirəm ki, burada dahilik nə var?! Bu ki, xalis ehtimal nəzəriyyəsidir!

***

Atom bombasınm yaradılmasına dair işlər yekunlaşan zaman dünya şöhrətli alimlər Enriko Ferminin əlini sıxıb onu təbrik edirlər. Bu təbriklərdən heç nə başa düşməyən və heç kimdən əməlli-başlı cavab almayan Ferminin həyat yoldaşı xanım Laura məclisdə yeganə qadın olan fizik Leona Vudsa müraciət edir. Leona Lauraya tərəf əyilib deyir: «Suss... sizin əriniz yapon admiralını batırıb».

Qonaqlar gedəndən sonra Laura öz şübhələrini dağıtmaq üçün Enrikodan soruşur:

- Enriko, sən doğrudanmı, yapon admiralını batırmısan?

Üz-gözündən heç bir şey sezilməyən Fermi:

- Doğrudanmı? - deyə suala



sualla cavab verir.

- Deməli, sən yapon admiralını batırmamısan?

- Məgər elədir? - deyə Enriko eyni anlaşılmaz hiyləgərliklə soruşur.

...Xanım Laura işin nə yerdə olduğunu yalnız Xirosima əhvalatından sonra bildi.

## NİLS BOR (1885-1962)

Görkəmli Danimarka nəzəriyyəçi-fiziki. Müasir fizikanın yaradıcılarından biri. 1908-ci ildə Kopenhagen Universitetini bitirmiş, 1911-1913-cü illərdə Kembricdə E.Rezerfordun, Tompsonun yanında işləmişdir. 1920-ci ildə indi öz adı ilə adlanan nəzəri fizika institutunu yaratmışdır. 1922-ci ildə atomun planetar modelinin kvant nəzəriyyəsini verdiyinə görə Nobel mükafatı almışdır. Maraqlıdır ki, N.Borun oğlu Oqe Bor da 1975-ci ildə fizika sahəsindəki kəşflərinə görə Nobel mükafatı almışdır.

***

N.Bor çox gözəl futbolçu idi. O, Nobel mükafatı alanda qəzetlərdə belə bir elan getmişdi: «Danimarka yığma komandasının mərkəz hücumçusu N.Bor fizika sahəsindəki kəşflərinə görə Nobel mükafatı almışdır».



***

Dahi fizik N.Bor dərin məzmunlu müddəanı adi müddəadan fərqləndirməyin üsulunu göstərmişdir: «Əks müddəa qurmaq lazımdır, əgər o mənasız çıxarsa, deməli ilkin müddəa bayağıdır. Məsələn, bütün insanlar ölməlidirlər, müddəası bayağıdır, çünki onun əksi olan «bütün insanlar ölməzdir» müddəası mənasızdır».

***

Bir dəfə N.Bor orta məktəbdə oxuyanda ədəbiyyat müəllimi «Mən nənəmin qonağı idim» mövzusunda inşa yazmağı tapşırır... Səhəri gün N.Bor bir sətirdən ibarət olan yazı işini müəllimə təqdim edir: «Nənəm evdə yox idi».

***

N.Bor nəzəri fizika institutu üçün yeni tikilən binanın inşasına xüsusi fikir verirdi. Tez-tez gəlib inşaatçılarla söhbət edib, onları dilxor edirdi. Bir dəfə yenə tikinti işi ilə maraqlanmaq üçün tikinti meydançasına gələn Boru tikinti mühəndisi qabaqlayıb deyir:

- Cənab professor, əgər bu divarın (əli ilə göstərib) bir az da qabağa çəkilməyini istəyirsinizsə, tez deyin, yoxsa bir saatdan sonra beton quruyacaq, onu sökmək çətin olacaq...

Ondan sonra bina hazır olana qədər N.Bor tikinti meydançasında görünmədi.

***

Bir dəfə N.Borun fizik yoldaşlarından biri onun kabinetinə girir və qapıya at nalı bərkidildiyini görüb, çox böyük təəccüblə N.Bordan soruşur:

- Professor, doğrudanmı siz də bu əfsanəyə inanırsınız?

- Əlbəttə, yox, - Bor cavab verir, - ancaq deyirlər ki, bu bəzən ona inanmayanlara da kömək edir.

***

Məşhur riyaziyyatçı Q.Harolddan soruşanda ki, necə olur ki, məşhur fizik Nils Bor auditoriya qarşısında həmişə çox uğursuz çıxış edir və çox az adam onu başa düşür, sizin isə çox gözəl natiqlik qabiliyyətiniz var. Professor Harold bir qədər fikirləşib deyir: «Çox asan izahı var bunun, professor N.Bor həmişə gələcəkdə danışacaqlarını izah edir, mən isə əvvəl danışdıqlarımı».



# Rostropoviçlər adına Musiqi Məktəbinin yeni binası

